*Mən dünyaya Tanrı tərəfindən elçi olaraq*
*Xeyri Şərdən, Doğrunu Yalandan,*
*Haqqı Nahaqdan ayırmağa göndərildim!*
*ZƏRDÜŞT PEYĞƏMBƏR*

# Avesta

# VİDEVDAT

*Rus dilindən tərcümə edən:*
**Xanlar Həmid**
***şair, dramaturq, AYB-nin üzvü***

*Kitabda prof. İ.M. Steblin-Komenski, K.Q.Zelman, A.A.Braqinski, İ.Y.Kryukov, E.Qrantovski və Bəhmənin tərcümələrindən istifadə olunub.*

"Apostrof-A"
BAKI – 2023

Redaktor:
**İLQAR FƏHMİ**
***Yazıçı dramaturq, AYB-nin katibi***

Elmi redaktor və rəyçi:
**KAZIM ƏZİMOV**
*Fəlsəfə elmləri doktoru, professor,
Britaniya Akademiyası və London Universiteti Klassik Yunan fəlsəfəsi, «Avesta» və Klassik İslam fəlsəfəsi üzrə adyunkt professoru, Harvard və Havay Universitetlərin Təhsilin və Münaqişələrin İnkişafı üzrə adyunkt professoru, ABŞ Sosiologiya Cəmiyyətinin və Paris Fəlsəfə Cəmiyyətinin üzvü*

Naşir:
**AKİF DƏNZİZADƏ**

A97 **AVESTA (Videvdat),** Bakı, «APOSTROF-A», 2023, – səh. 320 səh.

**ISBN 978-9952-562-57-6**

Kitaba ilk dəfə tam şəkildə Azərbaycan dilinə poetik tərcümə olunan “ Avesta”nın “Videvdat” hissəsi daxil edilib.

“Avesta” zərdüştiliyin müqəddəs kitabıdır. “Videvdat” da “Coğrafi poema”, “ Yima”, “Devalara qarşı qanun”, “Yas”, “Dəfn mərasimi”, “Şəfa vermə” haqqında məlumat tapmaq mümkündür.

## ÖN SÖZ

Azərbaycan xalqının tarixi qutsal xəzinələrindən biri də zərdüştiliyin ana kitabı olan Avestadır ki, onun içindəki hikmətlər min illər keçsə də öz əhəmiyyətini itirməyib. Avestanın araşdırılması, tədqiqi ilə ölkəmizin hüdudlarından kənarda da, ölkəmizdə də alimlər məşğul olmuş, bu gizli xəzinəni müasir insanlar üçün açmağa çalışımışlar. Lakin əfsuslar olsun ki, dərin ilahi hikmətlərlə dolu olan bu ölməz əsəri uzun illər əsasən rus dilinə edilmiş tərcümələrdən oxumuşduq. Avestanın mətnindən azərbaycan dilinə yalnız kiçik fraqmentlər tərcümə edilərək mətbuatda yayımlanmışdı…

Yalnız 21-ci əsrdə, tanınmış şair Xanlar Həmid bu ağır işin altına girdi və uzun illik əziyyətdən sonra Avestanın birinci hissəsini Azərbaycan dilinə tərcümə edib kitab halında nəşr etdirdi…

Bir neçə il əvvəl bu kitib çap ediləndən sonra ölkə ictiamiyyəti arasında çox böyük maraqla qarşılandı. Kitabın təqdimatına çoxsaylı ziyalılarımız, alimlərimiz təşrif buyurmuşdu. Hər kəs də bu ağır işin öhdəsindən gəldiyinə görə Xanlar Həmidə təşəkkür edir, Avesta kimi mürəkkəb quruluşa malik bir əsərin tərcüməsinin xüsusi ilə ağır çətin bir iş olduğunu, tərcüməçidən böyük zəhmət və əziyyət tələb etdiyini vurğulayırdılar.

Bundan əlavə əsərin tərcüməsinin keyfiyyətindən hamı razı idi. Bu cür mürəkkəb fəlsəfi, sakral mətnə malik olan əsər çox rahat asan dildə, hamının anlaya biləcəyi tərzdə tərcümə edilmişdi ki, bu da tərcüməçinin ağır zəhmətinin bəhrəsi idi.

Təqdimatdan sonra Avestanın birinci hissəsinin tərcüməsi kitab halında geniş yayıldı, ziyalılar və alimlər arasında müzakirələrə səbəb oldu, haqqında yazılar yazıldı ki, bu da çox sevindirici bir haldır. Çünki yüngül mətnlərin, tez oxunub, tez də unudulan əbədi əsərlərin sel kimi üstümüzə axdığı bir məqamda, həqiqətən ağır dərin tutumlu əsərlərin bu cür diqqət çəkməsi çox sevindirici

bir haldır. Onlarla ziyalımız elə şəxsən mənim özümdən o kitabı harda əldə etməyi soruşurdu, hiss edirdim ki, həqiqətən də bu boz axının içində belə bir dəyərli əsərin tərcüməsinə ehtiyac var imiş.

Elə ilk hissənin təqdimatı zamanı Xanlar Həmid oxuculara anons verdi ki, artıq Avestanın ikinci hissəsinin üzərində işə başlamışam.

Və budur, artıq ikinci hissə də hazırdır. Mən çox sevinirəm ki, Xanlar Həmid bu ağır yükün altına girib, Avestanın ikinci hissəsinin də tərcüməsini uğurla başa vurdu və kitab halında oxuculara təqdim etdi.

Əlbəttə ki, minillər tarixi olan bu cür dərin məzmunlu, fəlsəfi, sakral əsərlərin tərcüməsi müəllifin yuxusuz gecələrinin, ağır zəhmətinin hesabına başa gəlib.

Mən şəxsən öz adımdan bu işdə bütün çətinlikləri dəf edərək Avestanın ikinci hissəsini də tərcümə edib kitab kimi çap etdiyinə görə, Xanlar Həmidə dərin təşəkkürümü bildirirəm. Əminəm ki, bu kitab da ziyalı oxucularımız tərəfindən böyük sevgiylə qarşılanacaq, minillik mənəviyyat tariximizin dərinliklərinə baş vurmaq üçün oxuculara yol göstərəcəkdir...

***İlqar Fəhmi***
*Yazıçı dramaturq*
*AYB-nin katibi*

## GİRİŞ ƏVƏZİ

Avesta bəşər mədəniyyətində bir eradır ki, bu gün də elm adamlarını təəccübləndirmədə davam edir. Avesta biz istəsək, istəməsək də dünyanın ikiyə bölündüyünü, Xeyirin və Şərin mübarizəsindən ibarət olduğunu açıq şəkildə göstərir.

Avesta mətni olan "Videvdat" birinci dəfə 1723-cü ildə Oksford kitabxanasına Hindistanın Surat şəhərindən gətirildi, lakin bu mətni kimsə oxuya bilmədi. Ancaq fransız alimi Anketil Duperron məxsusən Avesta mətnlərini öyrənmək üçün 1755-ci ildə Hindistana getdi. 1762-ci ildə Fransaya qayıdan alim Kral kitabxanasına avesta, pəhləvi, fars, sanskrit dillərində zərdüştizmə aid olan 180 mətn bağışladı. 1771-ci ildə Avropada Avestanın tərcüməsi fransız dilində Duperron tərəfindən nəşr edildi. 1776-cı ildə Riqada alman dilində birinci tərcümə meydana gəldi.

Avesta Şərq və Qərb fəlsəfəsinə yetərincə təsir etmişdir. Hegel (1770-1831) qeyd edirdi ki, Zərdüşt təliminin əsası, bünövrəsi iki əks qüvvənin - Xeyirin və Şərin mübarizəsindən ibarətdir. Höte (1740 - 1832) "Qərb - Şərq divanı"nında zərdüştizmi işığın qaranlıq üzərində qələbəsini təmin edən bir din kimi səciyyələndirir. Avestanı birinci olaraq K. Kossoviç (1814 - 1883) latın dilinə tərcümə etmişdir. Avestanın öyrənilməsində və tərcümə edilməsində A.A. Freyman, E.E. Bertels, İ.İ. Struve, M.M. Dyakonov, İ.Q. Əliyev, S.O. Vinoqradov, İ.M. Oronski, İ.S. Braqınski, İ.M. Steblin - Komenski, .K. Q. Zeleman, V. Y. Kryukov, E. Qrantovski, K.A. Kassoviç, A.O. Makolevski mühüm rol oynamışlar.

"Videvdat" (avesta - vi- daeva - data) "Divlərə, devalara qarşı qanun". 22 bölmədən ibarətdir. "Videvdat" Avestanın o mətnlərindəndir ki, bütünlüklə, tam halda müasir dövrə qədər gəlib çatmışdır. Avesta mətnləri arasında " Videvdat" Zərdüşt peyğəmbərə görə daha əhəmiyyətlidir. Digər mətnlər əgər Puitik dənizidirsə, Videvdat bu dənizi yuyan böyük Vourukəş dənizdir, digər mətnlər kiçik, Videvdat onları əhatə edən böyük ağacdır. Videvdat mətnləri bir də ona görə çox əhəmiyyətlidir ki, 22 bölmənin hər bölməsində yeni məlumatlar əldə edirik. "Coğrafi poemanı" ki,

qərb alimləri Videvdatın birinci bölməsi adlandırırlar, bu bölmədə on altı ölkənin siyahısı ardıcıllıqla yerini tutmuşdur, hansı ki, onları Ahura Mazda yaratmışdır. Ancaq bu on altı ölkənin hər birinə Anhra Man ən müxtəlif fəlakətlər göndərir. A.O. Makolevskiyə görə "Videvdat"da təsvir olunan on altı ölkə məhz Araz, Volqa, Sır-Dərya, Amu-Dərya, Hind, Fərad və Dəclə çayları arasındakı geniş ərazilərdir ki, Azərbaycanı, İranı, Orta Asiyanı, Əfqanıstanı, Pakistanı, Hindistanı, Mesapotomyanı və Rusiyanın Xəzər ətrafı ərazilərini əhatə edir. A.O.Makolevskiyə görə Ahura Mazdanın yaratdığı birinci ərazi Arianam Vaejahda Vəhvi Daitidir, hansı ki Araz çayının başlanğıc adı sasanilər tərəfindən Daiti adlandırılmışdır. A.O.Makolevkiyə istinad etsək Arianam Vaeyahın mərkəzinin Azərbaycan Aranında yerləşdiyini ehtimal etmək olar. Lakin dünyanın bir çox avestaşünasları bu yerin Orta Asiyada, Sır-Dərya çayı sahillərində olduğunu göstərirlər. C. Darmstetərə görə Vahvi Daiti Zərdüştün vətəni Azərbaycandadır.

Hnent – Hirkaniya isə Bisutun yazılarına görə Parfiyanın bir hissəsi olmaqla eramızın birinci əsrində müstəqil dövlət olmuşdur. İranın indiki Təbəristan, Gülüstan torpaqlarını əhatə edir. Hersfeldə görə on dördüncü yaradılan Varena torpağı dörd bucaqlıdır, ərşakilər ona Varna (Göy) deyirdilər. Hansı ki sərhəd ölkəsi idi. Ptolomey Varenanı İranın Rəşt, Ənzəli, Təvriz - Təbriz ərazilərində yerləşdirirdi. C. Darmsteter belə hesab edir ki, Zərdüştün doğulduğu məkanını Raqa və Atropatena olduğunu güman etmək olar. Ancaq zərdüştizm qərbdən şərqə yayıldığı üçün Atropatena Zərdüşt təliminin ilk yayıldığı ölkədir, vətənidir. Avestanın özündə deyilir ki, Zərdüşt doğulduğu dağda, Dreji çayının sahilində Ahura Mazdadan vəhy almışdır.

Darmstetərə görə Atropatan - Azərbaycan adı belə "od toxumu" kimi izah edilən fikrə xidmət edir. Hətta Darmstetərə və Hersfeldə görə "Coğrafi poema"nın müəllifi Atropatena maqlarıdır.

Avesta mətnləri sasanilər dövründə pəhləvi dılınə tərcümə edilərək yenidən yazıldı. Müasir tədqiqatçılardan Avesta dilinin Midiya dili olduğunu Meye, Tedesko, Huart, Hersfeld və digərləri etiraf edir. Avesta dilinin araşdırılması və öyrənilməsi, qatların dili Meyeni bu xüsusi nəticəyə gətirir ki, bu dil fars dilindən fərqlidir. Cənubi

İrana aid deyil, həmçinin soqd dilindən fərqlidir, şimal - şərqə aid deyil, qalır şimal-qərb, yəni Midiya dilidir. Hersfeld, Huart, Meye Tedeskonun bu fikirlərinə qoşulub təsdiq etmişlər. İ.Purdavud da Avesta dilinin Midiya dili olduğunu, İranın şimal - qərb regionunun dili olduğunu bildirir.

Videvdata görə dünyanın donması hökmdar Yumanın günahları ucundan baş verdi. Anhra Manın yer üzünə gətirdiyi sərt qış uzun illər çəkdi. Ahura Mazda Yimaya insanların, heyvanların, bitkilərin xilası üçün Varlar tikilməsinin təlimatın verdi. Avestaya görə beləliklə, canlı aləmin müəyyən hissəsi xilas olundu. Bu hadisə Nuhun tufanında insanların gəmilərlə xilas edilməsi ilə nə qədər də səsləşir.

Üçüncü bölmə yerin təmiz saxlanılmasına, hər cür murdarlıqdan qorunmasına, dördüncü bölmə insan hüquqlarına, verilən mükafat və cəzalardan bəhs edir. Beşinci bölmə murdarlığın heyvanlar tərəfindən yayılması, altıncı bölmə torpağın və suyun qalıqlarla murdarlanmasının qarşısının alınmasına həsr edilmişdir. Yeddinci bölmə meyit drujunun mərhuma hücumunun vaxtı, səkkizinci bölmə dəfn mərasimi, doqquzuncu bölmə barşnum (doqquz gecənin təmizlənməsi), onuncu bölmə Qatların sözləri ilə təmizlənmə, on birinci bölmə dünyanın müxtəlif şeylərinin təmizlənməsi zamanı oxunan dualar, on ikinci bölmə yas, on üçüncü bölmə it, on dördüncü bölmə yaxşılıq və xeyirxahlıq, su samurunu öldürməyin günahını təmizləyəndir, on beşinci bölmə beş günah, on altıncı bölmə mentruasiya olan qadın, on yeddinci bölmə saç və dırnaqlarla rəftar qaydaları, on səkkizinci bölmə yalançı kahinlər və həqiqi kahinlər, on doqquzuncu bölmə Zərdüştün devalara qarşı çıxması. Universal peşə. Ölümdən sonra ruhun taleyi, iyirminci bölmə ilk şəfa verən Trita, iyirmi birinci bölmə su ilə şəfa vermə, günəş, ay, ulduzlar, iyirmi ikinci bölmə şəfa verən Airyaman haqqında müfəssəl məlumatlardan ibarətdir. Hər bir bölmədə Zərdüşt peğəmbərin Ahura Mazda ilə dialoqu vardır. Ümumiyyətlə Videvdat Ahura Mazdanın Zərdüşt peyğəmbərə verdiyi təlimatlardan ibarətdir. Odun, yerin, suyun, havanın təmiz saxlanması, kirlənməməsi üçün insan nə etməlidir? Heyvanlara hansı qayğılar

göstərilməlidir, bitkilər necə becərilməlidir? Qədim zərdüşti mərasimləri, yas, dəfn mərasimləri, ruhun ölümdən sonrakı həyatı, adət və ənənələr, günahlar və onlara qarşılıq olaraq müxtəlif cəza növləri, Ahura Mazdaya, Müqəddəs Möminliyə xidmətə görə mükafatlar - bütün bunlar Zərdüşt peyğəmbərin " Videvdat"ında öz parlaq əksini tapmışdır. "Videvdat" çox uzaq keçmişimizə bir səyahətdir, öyrənmək baxımından Xeyirə, Doğruya, Həqiqətə bir ehtiram nümunəsidir.

Bütün bunlarla birlikdə " Coğrafi poema"da göstərilən ərazilərin yerini təsbit etmək çox çətindir. Həm də ki, " Yuma" bölməsində Varların necə tikildiyini və bu Varlarda həyat tərzinin təsvirini vermək o qədər də asan deyil. "Videvdat"ın tərcümə edilməsində ən böyük çətinliklərdən biri də mətnin poetik tərcümə üçün o qədər də əlverişli olmamasıdır. Lakin Xanlar Həmid müxtəlif tərcümə mətnlərinə müracət etmiş və ümumi bir nəticəyə gəldikdən sonra bu mətni Azərbaycan dilinə tərcümə etmişdir. Nəticə göz qabağındadır. Tərcümənin dili asan, rəvan, aydın və hər kəs üçün oxunaqlıdır.

Tərcüməçi mətnə hansısa əlavələr etməmiş, tərcümə Azərbaycan ədəbiyyatı üçün yeni bir töhfədir. Bu sahənin öyrənilməsində mühüm rol oynaya bilər.

***Fəlsəfə elmləri doktoru,***
***professor Kazım Əzimov***

# Frahard - Bölmə 1
# ƏN YAXŞI TORPAQLAR

**1. Ahura Mazda**
**Spitama Zərdüştə söylədi:**
"Mən yaradanam,
Ey Spitama Zərdüşt.
(Hər) sevinc gətirən ərazini,
Hətta o, xoşbəxt olmasa belə.
Əgər mən yaratmasaydım,
Ey Spitama Zərdüşt,
(Hər) sevinc gətirən ərazini,
Hətta o, xoşbəxt olmasa belə.
Bütün cismani aləm
Ariana Vaejaha tələsəcəkdi.

**2. Mən, Ahura Mazda**
Ən yaxş yerlərdən və ərazilərdən
Arian Vaejahdə Vahvi Daitini[1]
(Yaxşı Qanunla) birinci yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox dağıdıcı olanı,
Sarı (kurən) ilanı və qışı mövcud etdi.
(Hansı ki onlari)
Devalar yaratdı.

**3. Orada on ay qışdır,**
İki ay yaydır.
Orada su soyuqdur,
yer soyuqdur.
Bitkilər soyuqdur.
Qışın diqqəti oradadır,
Qışın ürəyi oradadır.
Qış oraya ən çox fəlakət
Gətirməyə can atır.

**4. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Havanı[2],
Soqdların yaşayış
məskənini
İkinci yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox zərərli olanı,
Çəyirtkəni mövcud etdi.
Hansı ki o,
Heyvanlar üçün,
Bitkiklər üçün
Çox zərərlidir.

**5. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Maurunu[3],
Qüdrətli, dindar olanı
İkinci yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox zərərli olanı,
Qətlləri mövcud etdi.
Dağıntını mövcud etdi.

**6. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Bahdini[4],
Gözəl, qaldırılmış
Bayraqları olanı
Dördüncü yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox zərərli həşarətləri
Yuvaları mövcud etdi.

**7. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Nisanı[5]
Mauru və Bahdi arasında
Beşinci yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox zərərli olanı,
Pis düşüncəni mövcud etdi.

**8. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Haranı[6],
Yaşayış məskənləri
Tərk edilmiş olanı
Altıncı yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox dağıdıcı olanı,
Göz yaşını, fəryadı,
İniltini mövcud etdi.

**9. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Vaekeretini[7],
Kirpilərin yaşayış məskənini
Yeddinci yaratdım.
Ancaq buna qarşı şər ruh
Çox dağıdıcı olanı,
Keresaspanı
Aldadıb yoldan çıxaranı,
Pairiki Hantaitini
Mövcud etdi.

**10. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,

Ən yaxşı ərazilərdən
Çox geniş otlaqlı
Urvanı[8]
Səkkizinci yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Pis zülmü, əzabı
Mövcud etdi.

**11. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Hnenti[9],
Vehrkanların yaşayış
Məskəni olanı
Doqquzuncu yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Pis, ödənilməz hərəkətlə
Sadomyanı
(hemoseksualisti)
Mövcud etdi.

**12. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Ən gözəl olanı,
Harvaitini[10]
Onuncu yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Pis, ödənilməz hərəkətlə
Meyitlərin basdırılmasını
Mövcud etdi.

**13. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Ən parlaq olanı,
Hvarnonun bəxş etdiyini,
Haetumantı [11]
On birinci yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Pis cadugərliyi mövcud etdi.

**14. Onun aydın**
işarəsi odur.
Bununla o, yaxşı
tanınır.
Oradan hər hansı
Birisi gələ bilər.
Sehrbazlıq edər.
Ən güclü sehrbazlar orada,
Onlar qorxu yaradırlar,
Nişan alıb
Ürəkləri məhv edirlər.

**15. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Üç tayfalı olanı,
Rahanı[12]
On ikinci yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Həddindən çox
pis olanı,
Pis fikri mövcud etdi.

**16. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Qüdrətli olanı, saleh olanı,
Çahrunu[13]
On üçüncü yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı
Pis, ödənilməz
hərəkətlə,
Cəsədləri yandırmağı
Mövcud etdi.

**17. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Dördbucaqlı olanı,
Varenanı[14]
On dördüncü yaratdım.
Orada Aji Dahakı
öldürən
Traetaon doğulmuş.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Yersiz ayrimaları
Ölkədə ari olmayan
Tiranları mövcud etdi.

**18. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Hapta- Hendini [15],
(Yeddiçay arasını)
On beşinci yaratdım.
Ancaq buna qarşı

şər ruh
Çox dağıdıcı olanı,
Yersiz ayrilmaları,
Gərəksiz hərarəti
Mövcud etdi.

**19. Mən, Ahura Mazda**
Ən yaxşı yerlərdən,
Ən yaxşı ərazilərdən
Başçısız idarə olunanı
Rahanın[16] mənşəyində
yaratdım.
Ancaq buna qarşı
şər ruh
Çox dağıdıcı olanı,
Devaların yaratdığı
Qışı düzəltdi.
Ölkənən taoje
Hökmdarlarını mövcud etdi.

**20. Mahiyyəti və digər**
Sahələri və əraziləri
Gözəl,dərin, xeyir-dualı,
Möhtəşəm, parlaq.

**Yaxşı Həqiqət Ən Yaxşı Olandır,**
**Xoşbəxtlik var, Xoşbəxtlik o kəs üçün ki,**
**Ən Yaxşı Həqiqət üçün Həqiqətdir.**

## BİRİNCİ BÖLMƏYƏ

1. Bu bölmədə Ahura Mazda tərəfindən bu torpaqların hansı ardıcıllıqla yaradılması haqqında Spitama Zərdüştə məlumat verir. Ariyana Vaejahda-Ariya Ərazisində Vahvi Daitini birinci yaradan Ahura Mazda əhalinin sıxlığına görə digər məskənləri də yaratmalı olur. Vəhvi Daiti çox vaxt sular məcmusu kimi, böyük çay kimi də tərcümə olunur. Əslində Avesta dilində "Vəhylə Verilmiş" kimi tərcümə olunmalıdır.

2. İkinci olaraq soqdların yaşayış məskənini Havanı yaratdı, hal-hazırda bu ərazilər Əfqanıstan, Tacikistan və Orta Asiya torpaqlarıdır.

3. Üçüncü olaraq Mourunu yaratdı ki, bu ərazilər hal-hazırda Türkmənistanda və Şimal-Şərqi İranda yerləşir.

4. Dördüncü olaraq Bahdini yaratdı ki, bura hal-hazırda Bəlx adlanır, Əfqanıstan ərazısındədir.

5. Beşinci olaraq Nisanı Mouru və Bahdinin arasında yaratdı ki, hal-hazırda bu ərazilər daha çox Şimal-Şərqi İrandadır.

6. Altıncı olaraq Haranı yaratdı ki, indiki Himalay, Əlburz dağlarını əhatə edən ərazilər olduğu ehtimal olunur.

7. Yeddinci olaraq Vaekertini yaratdı ki, bu ərazilərin Qərbi İran, Şərqi Türkiyədə yerlədiyi ehtimal olunur.

8. Səkkizinci olaraq Urvanı yaratdı ki, hal-hazırda Güney Azərbaycanında Urmiya gölü ətrafındakı ərazilər ehtimal olunur.

9. Doqquzuncu olaraq Hnenti – vehrkanların yaşayış məskənlərini yaratdı. Bu ərazilər indiki Talış dağlarında və Əlburzdədir.

10. Onuncu olaraq Hatahvaitini yaratdı ki, burada dağlıq ərazilər nəzərdə tutulur.

11. On birinci olaraq Haetumantı yaratdı ki, bu ərazinin Cənub-Şərqi İranda yerləşdiyi ehtimal olunur.

12. On ikinci olaraq Raqanı yaratdı ki, indi bu adda iki ərazi məlumdur. Keçmiş adı Raha olan Rey şəhəri, Rey vilayətidir ki, İranda Tehran ərazisindədir və Suriyadakı Raqqa şəhəridir.

13. On üçüncü olaraq Çahrunu yaratdı ki, bu adda ərazilər çoxdur.

14. On dördüncü olaraq Varenanı yaratdı ki, bu yerdə doğulmuş Traetaon Aje Dahakı öldürdüyü üçün çox güman ki, bu ərazilər İranın Xəzər dənizinə bitişik əraziləridir.

15. On beşinci olaraq Hapta-Hendini yaratdı ki, hal-hazırda bu əraziləri Hindistana və Pakistana aid etmək mümkündür.

16. On altıncı ərazini Ranha çayının mənşəyində yaratdı ki, bu ərazilərə Volqa, Don, Amu Dərya, Fərat çaylarının mənşəyindəki əraziləri aid etmək olar.

# Frahard - Bölmə 2
## YİMA

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
“( Ey) Ahura Mazda,
(Ey) Müqəddəs Ruh[1],
Cismani canlıların
Yaradanı.
Ölümlü olanlardan
(insanlardan)
Məndən başqa
Birinci kimlə danışdın,
Sən, Ahura Mazda,
Kimə elan etdin
Ahura Mazda İnancını?”

**2. Dedi Ahura Mazda:**
“Ey saleh Zərdüşt,
Gözəl,yaxşı sürülərin
Sahibi Yimaya[2].
Ey Zərdüşt,
Səndən başqa insanlardan
Birinci onunla danışdım.
Ona Mən,
Ahura-Zərdüşt İnancını
Elan etdim.

**3. Ey Zərdüşt,**
Mən Ahura Mazda
Vivahvantın[3]oğluna,
Gözəl Yimaya dedim:
“Mənə görə
mənim dinimi
Təlim edən ol.

Mənim dinimin
yayımlayanı ol.”
Ey Zərdüşt,
amma, mənə
Belə cavab verdi
gözəl Yima:
“Təlim keçməmişəm mən.
Bu dinin öyrədəni
ola bilmərəm.
Onun yayımlayanı
ola bilmərəm.
Bununçün
yaranmamışam mən.”

**4. Ey Zərdüşt,**
Mən Ahura Mazda
Yimaya dedim:
“Sən mənim İnancımı
Öyrətməyə, yaymağa
Razı deyilsənsə
Onda mənim
canlı yaratdıqlqrımı
Bəslə, mühafizə et.
Razılaş qorumağa”.

**5. Ey Zərdüşt, gözəl Yima**
Dedi mənə:
“Mən bəsləyəcəyəm
Sənin yaratdıqlarını,
Mən çoxaldaram onları.
Mənim hakimiyyətimdə
Soyuq külək,(qızmar) istilik,
Xəstəlik,ölüm olmayacaq”.

**6. Mən, Ahura Mazda**
İki silah-qızıl buynuz,
Qızılla işlənmiş qamçı
Gətirdim ona.

**7. Yima iki hakimiyyət,**
İki ( səlahiyyət) aldı.

**8. Yimanin hakimiyyəti altında**
Keçdi üç yüz qış,
Yerdə yer qalmamış.
Doldu yer üzü
Xırda, iri heyvanlarla.
Doldu yer üzü
İtlərlə, quşlarla.
Doldu yer üzü
Qırmızı alovlu odlarla.
Yer tapmadı heyvanlar,
Yer tapmadı insanlar.

**9. Mən Yimaya dedim:**
"Gözəl Yima.
Vivahvantın oğlu!
Bu yer üzü
Xırda heyvanlarla,
İri heyvanlarla,
insanlarla,
İtlərlə,quşlarla,
Qırmızı alovlu odlarla
doldu.
Xırda heyvanlar,
İri heyvanlar,insanlar
Özlərinə yer tapa bilmir".

**10. Günorta vaxtı Yima**
Günəşin yolunda
Getdi işığa tərəf.
O qızıl buynuzla
Bu yer üzünü itələdi.
Ona qırmac ilə
vurub dedi:

“Mərhəmətli,
Müqəddəs Armaiti![4]
Ayrıl (böyü) və yol aç.
Qoy xırda heyvanlar,
Qoy iri heyvanlar,
Qoy insanlar yerləşsin!”

**11. Böyütdü**
Yer üzünü Yima,
Genişləndirdi bu
Yer üzünü Yima.
Əvvəlki böyüklüyünün
Üçdə biri qədər.
Ora hərəkət etdi
Xırda, iri heyvanlar,
insanlar,
Öz istəkləri ilə,
Öz arzuları ilə
Hansı ki
Bu onların arzusu idi.

**12. Hökmdar idi Yima,**
Keçdi altı yüz qış.
Yerdə yer qalmamış,
Doldu Yer üzü
Xırda, iri heyvanlarla.
Doldu yer üzü insanlarla.
Doldu yer üzü
İtlərlə, quşlarla.
Doldu yer üzü
Qırmızı alovlu odlarla.
Yer tapmadı heyvanlar.
Yer tapmadı insanlar.

**13. Mən Yimaya dedim:**
“Gözəl Yima,
Vivahvantın oğlu!

Bu yer üzü
Xırda heyvanlarla,
İri heyvanlarla,
insanlarla
İtlərlə,quşlarla,
Qırmızı alovlu odlarla
doldu.
Xırda heyvanlar,
İri heyvanlar, insanlar
Özlərinə yer tapa bilmir”.

**14. Günorta vaxtı Yima**
Günəşin yolunda
Getdi işığa tərəf.
O, qızıl buynuzla yeri
itələdi.
Ona qamçı ilə
vurub dedi:
“Mərhəmətli,
Müqəddəs Armaiti!
Ayrıl(böyü)və yol aç.
Qoy xırda heyvanlar,
Qoy iri heyvanlar,
Qoy insanlar yerləşsin!”

**15. Böyütdü bu**
Yer üzünü Yima.
Genişləndirdi bu
Yer üzünü Yima.
Əvvəlki böyüklüyünün
Üçdə biri qədər.
Ora hərəkət etdi
Xırda, iri heyvanlar,
Ora hərəkət etdi
insanlar.
Öz istəkləri ilə
Öz arzuları ilə.

Hansı ki
Bu onların arzusu idi.

**16. Hökmdar idi Yima,**
Keçdi doqquz yüz qış.
Yerdə yer qalmamış,
Doldu yer üzü
Xırda, iri heyvanlarla.
Doldu yer üzü
insanlarla.
Doldu yer üzü
İtlərlərlə, quşlarla.
Doldu yer üzü
Qırmızı alovlu odlarla.
Yer tapmadı heyvanlar.
Yer tapmadı insanlar.

**17. Mən Yimaya dedim:**
“Gözəl Yima,
Vivahvantın oğlu!
Bu Yer üzü
Xırda heyvanlarla,
İri heyvanlarla,
insanlarla,
İtlərlə, quşlarla,
Qırmızı alovlu odlarla
doldu.
Xırda heyvanlar,
İri heyvanlar, insanlar
Özlərinə yer tapa bilmir”.

**18. Günorta vaxtı Yima**
Günəşin yolunda
Getdi işığa tərəf.
O, qızıl buynuzla
Yer üzünü itələdi.
Ona qamçı ilə vurub dedi:

“Mərhəmətli,
Müqəddəs Armaiti!
Ayrıl (böyü) və yol aç.
Qoy xırda heyvanlar,
Qoy iri heyvanlar,
Qoy insanlar yerləşsin!”

**19. Böyütdü bu**
Yer üzünü Yima.
Genişləndirdi bu
Yer üzünü Yima.
Əvvəlki böyüklüyünün
Üçdə biri qədər.
Ora hərəkət etdi
Xırda, iri heyvanlar.
Ora hərəkət etdi insanlar.
Öz istəkləri ilə,
Öz arzuları ilə.
Hansı ki
Bu onların arzusu idi.

**20. Yaradan Ahura Mazda**
Bütün ruhani yazarlarla[5]
birlikdə
Şanlı Ariya Məkanında[6],
Xeyirli Datidə
Görüş çağırdı.
Yaxşı heyvanların sahibi
Parlaq Yima
Ən yaxşı insanlarla
birlikdə
Şanlı Ariya Məkanında,
Xeyirli Datidə Görüş çağırdı.

**21. Yaradan Ahura Mazda**
Həmin görüşə gəldi.
Ruhani yazatlarla

Birlikdə gəldi.
Şanlı Ariya Məkanına ,
Xeyirli Datiyə gəldi.
Yaxşı heyvanların sahibi
Parlaq Yima
Ən yaxşı insanlarla
Həmin görüşə gəldi.
Şanlı Ariya Məkanına
Xeyirli Datiyə gəldi.

**22. Ahura Mazda**
Dedi Yimaya:
“Vivahvantın oğlu,
Gözəl Yima!
Cismani dünyaya
Zalım qış gəlir.
Hansı ki şiddətli,
Öldürücü soyuq gəlir.
Çox saylı çovğunlar
gəlir.
Ən uca dağları
Qar örtəcəkdir.
Ərdvinin[7] dərinliyini
Qar örtəcəkdir.

**23. Ey Yima,**
Heyvanların üçdə biri
Xilas olacaq.
Hansı ki onlar
Qorxunc qayalarda,
Uca zirvələrdə,
Dərin vadilərdə,
Möhkəm evlərdə olacaqlar.

**24. Ey Yima,**
Bu qışa qədər ölkədə
Otlaqlar yetişəcək.

Sular onu yuyacaq.
Ey Yima,
Qar əriyəndən sonra
Cismani aləmdə
Qoyun dırnağının
İzini görsələr əgər,
Heyrətlənərlər.

**25. Amma sən,**
Dörd istiqamətin
hər birində
Uzunluqda qaçiş üçün
Var[8] tik.
Bu Vari sən,
Ərlər üçün dörd tərəfdən
Hər birində
Uzunluqda qaçış üçün,
Heyvanların həyatı üçün
tik.
Dörd tərəfin uzunluğuna
Qaçış üçün tik.

**26. Suyun yolunu**
Fermanin uzununa apar.
Yaşıl çəmənliklər düzəlt.
Tükənməz qida düzəlt.
Binalı,talvarlı,
Həyətyanı hasarlı
Evlər tik.

**27. Bu yer üzündə,**
(Hansi ki) mahiyyətən
Ən böyük, ən yaxşı,
Ən gözəl olan
Bütün kişilərin,
Bütün qadınların
Toxumlarını yığ.

Bu yer üzündə,
(Hansı ki) mahiyyətən
Ən böyük, ən yaxşı,
Ən gözəl olan
Bütün növ heyvanların
Toxumlarını yığ.

**28. Bu yer üzündə,**
(Hansı ki) mahiyyətən
Ən yüksəkdirlər,
Ən yaxşı  qoxuludurlar,
Bütün bitkilərin
Toxumlarini yiğ.
Bu yer üzündə ,
(Hansı ki)mahiyyətən
Ən dadlıdırlar,
Ən yaxşı qoxuludurlar,
Bütün meyvələrin
Toxumlarını yığ.
Bunların hamısını
Kişilərin Varda
Olacağı qədər
Cüt-cüt, tükənməz et.

**29. Orada donqar,**
 yekə qarınlı,
Şikəst, vəsvəsəli, kinli,
Yalançı, xəstə,
Əyri, çürük dişli,
Əti bükülmüş, cüzamlı,
Başqa izlərlə (şırımlarla)
Heş kim olmasın.
(Hansı ki) onlar
 Ahura Manın[9]
İşarələridir ki, insanların
Üzərinə qoyulmuşdur.

**30. Ölkənin ön tərəfində**
Doqquz keçid düzəldin.
Ortasında altı, arxasında
Üç keçid düzəldin.
Ön keçidlərə min,
Orta keçidlərə altı yüz,
Arxa keçidlərə üç yüz
Kişinin və qadının
Toxumunu Vara
Qızıl buynuzla keçir.
Bağla Varın qapısını,
Bağla pəncərəsini.
Öz-özünü içərisi
Işıqlandırar".

**31. Düşündü Yima:**
"Varı necə tikim mən,
Ahura Mazda deyəntək"
Dedi Ahura Mazda:
"Ey Vivahvantın oğlu,
Gözəl Yima!
Əz bu torpağı
dabanlarınla,
Qarışdır əllərinlə.
Necə ki insanlar
yaş torpağı
Yoğurub qəlibləşdirirlər."

**32. Yima Ahura Mazdanın**
Dediyi kimi etdi.
O, torpağı yoğurdu
dabanları ilə.
Qarışdırdı əlləri ilə.
Necə ki insanlar yaş torpağı
Yoğurub qəlibləşdirirlər.

**33. Yima**
Dörd istiqamətin
 hər birində,
Uzunluqda qaçış üçün
Var tikdi.
Xirda və iri heyvanların,
İnsanların,
İtlərin və quşlarin,
Qırmızı alovlu odların
Toxumunu yığdı bir yerə.
O, bu Varı ərlər üçün,
Heyvanların həyatı üçün,
Dörd istiqamətdən hər birində
Uzunluqda qaçış üçün tikdi.

**34. O, suyun yolunu**
Uzun fermaya apardı.
Yaşıl çəmənliklər düzəltdi.
Binalı, talvarlı,
Həyətyanı hasarlı
Evlər tikdi.

**35. O, bu yer üzündə**
(Hansı ki)mahiyyətən
Ən böyük, ən yaxşı,
Ən gözəl olan
Bütün kişilərin,
Bütün qadınların
Toxumlarını yığdı.
O, bu yer üzündə
(Hansı ki) mahiyyətən
Ən böyük, ən yaxşı,
Ən gözəl olan
Bütün növ heyvanların
Toxumlarını  yığdı.

**36. O, bu yer üzündə**
(Hansı ki) mahiyyətən
Ən yüksəkdirlər,
Ən xoş qoxuludurlar-
Bütün bitkilərin
Toxumlarını yığdı.
O, bu yer üzündə
(Hansı ki) mahiyyətən
Ən dadlıdırlar,
Ən yaxşı qoxuludurlar-
Bütün meyvələrin
Toxumlarını yığdı.
Bunların hamısını
Kişilərin Varda olacağı qədər
Cüt-cüt, tükənməz etdi.

**37. Orada donqar, yekə qarınlı,**
Şikəst, vəsvəsəli, kinli,
Yalançı, xəstə,
Əyri, çürük dişli,
Əti bükülmüş, cüzamlı,
Başqa izlərlə (şırımlarla)
Heç kim olmasın.
(Hansı ki) onlar
Anhra Manın
İşarələridir ki, insanların
Üzərinə qoyulmuşdur.

**38. Ölkənin ön tərəfindən**
Doqquz keçid düzəltdi.
Ortasından altı keçid,
Arxa tərəfindən
Üç keçid düzəltdi.
Ön keçidə min kişinin,
qadının,
Orta keçidə altı yüz,
Arxa keçidlə üç yüz

Kişinin, qadının
Toxumunu Vara
Qızıl buynuzla keçirtdi.
Varın qapısını bağladı.
Pəncərəsini bağladı.
İçərisi öz-özünü işıqlandırdı.

**39. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Orada hansı işıqlar var?
Ey saleh Ahura Mazda,
Bu Varı nə işıqlandırır?
Hansı ki Yima tikmişdir?

**40. Ahura Mazda**
cavab verdi:
"Öz-özünə yaradılmış,
Əl işi ilə yaradılmış
işıqlandırıcılar.
Doğan və batan
Ulduzlar, Ay və Günəş
Görünür bir dəfə.

**41. Gün bir il kimi görünür.**
İki insandan iki insan
Qırx ildən bir doğulur.
Cütlükdən,
Kişi və qadınlardan,
Heyvan növlərindən
doğulur.
Yimanın tikdiyi Varda
Bu insanlar,
Gözəl həyat yaşayırlar".

**42. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Kim o zaman

Mazda Dinini
Bu Vara gətirdi,
Hansı ki Yima tikmişdir?
Dedi Ahura Mazda:
“Karşipt quşu[10],
Ey Spitama Zərdüşt.”

**43. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Kim onlarda
Ağa və Ratdır?[11]
Dedi Ahura Mazda:
“Urvatat-nara
Və sən,- Zərdüşt[12].

**Yaxşı Həqiqət Ən Yaxşı olandır,**
**Xoşbəxtlik var, Xoşbəxtlik o kəs üçün ki,**
**Ən Yaxşı Həqiqətə görə Həqiqətdir.**

## İKİNCİ BÖLMƏYƏ

**1.** Müqəddəs Ruh deyilərkən Ahura Mazda nəzərdə tutulur. Ahura Mazda öz ruhu ilə bütün varlıqları yaratmışdır.

**2.** Yima min ildən yuxarı hökmdarlıq etmiş ariyalıların əfsanəvi hökmdarıdır, onun hakimiyyəti illərində insanlıq qızıl dövrünü yaşamışdır. Dünyanı` su basarkən Ahura Mazdanın təkidi ilə gəmilər düzəltmiş və insanları, heyvanları, bitkiləri bu gəmilərdə xilas etmişdi. Gəmilər Hara Bərəzaitiyə söykənib salamat qaldılar. Hara Bərəzaiti deyərkən Himalay, Əlburz dağları nəzərdə tutulur.

**3.** Vivahvant Yimanın atası idi, ilk dəfə haomanı o düzəltmişdir.

4. Müqəddəs Armaiti deyərkən Müqəddəs Möminlik anlaşılmalıdır. Dünyani idarə edən yeddi ruhdan biridir.

5. Yazatların sayı otuzdur ki, ayın günlərinə bərabərdir. Yazatlar yeddi Müqəddəs Ruha tabedir. Yazatlar fravaşiləri-mələkləri idarə edir. Yazatlar ruhani və cismani olmaqla iki yerə bölünür. Mitra ruhani, Günəş cismani yazatdır.

6. Ariya Məkanı deyərkən indi bir çox dövlətlərin yerləşdiyi ərazilər nəzərdə tutulur.

7. Ərdvi deyərkən bütün suların-dənizlərin, çayların, okeanların hamısı diqqətə gəlir.

8. Ahura Mazda Yimaya gələcək şaxtalara, uzun müddətli qışa, qara görə Varlar-bağlı yerlər tikməyi göstəriş verir.Bu Varlar insanları, heyvanları, bitkiləri qorumaq üçün idi.

9. ”Avesta”ya görə Vara ancaq sağlam insanlar buraxılırdı.

10. ”Avesta”ya görə ilk dəfə Mazda İnancını Vara Karşipt quşu Yimaya gətirmişdir.

11. ”Avesta”ya görə başçılar Rat adlanır. Rat qəbilənin, tayfanın, toplumun idarə olunmasında, Ahura Mazda İnancının qəbul edilməsində, yayılmasında önəmli rol oynayırdı.

12. Urvatat- nara Spitama Zərdüştün oğludur, həm də Ratdır.

# Frahard - Bölmə3

# YERİ TƏMİZ SAXLAMAQ

**1. Cismani canlıların yaradanı-**
Sən.Haqq Olan.
Bu Yer üzünün birinci
Ən xoşbəxt məkanı
haradadır?
Dedi Ahura Mazda:
"Bu Yer orada,
ey Spitama Zərdüşt,
Hara ki
Mömin olan ər ayaq basır,
Əlində odunla,
Əlində baresmanla,
Əlində südlə,
Əlində həvəngdəstlə,
Sülh və imanla,
Ruhlandırıcı sözlə
Genişotlaqlı Mitraya[1],
Yaxşıotlaqlı Ramanaya[2]
Dua edir".

**2. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu Yer üzünün ikincü
Ən xoşbəxt məkanı haradadır?
Dedi Ahura Mazda:
"Orada, harda ki mömin ər
Odu ilə, inəyi ilə,
Qadını ilə, nəsli ilə,
Xeyirli heyvanları ilə
ev tikir.

**3. Ancaq sonra bu evdə**
İnək bəslənir.
Həqiqət bəslənir.
Otlaq bəslənir.
İt bəslənir.arvad bəslənir.
Uşaq bəslənir,od bəslənir.
Hər hansı
Xeyirli həyat bəslənir".

**4. Cismsmani canlıların yaradanı-**
Sən, Haqq olan.
Bu Yer üzünün üçüncü
Ən xoşbəxt məkanı haradadır?
Dedi Ahura Mazda:
"Ey Spitama Zərdüşt,
Bu Yer orada, hansı ki o,
Ən çox göyərti,dənli bitkilər,
Məhsuldar bitkilər əkir.
Hansı ki susuzdur,suvarır.
Hansı ki su basmışdır,
Qurudur".

**5. Cismani canlıların**
Yaradanı, Sən Haqq Olan.
Bu Yer üzünün dördüncü
Ən xoşbəxt məkanı haradadır?
Dedi Ahura Mazda:
"Bu Yer orada, hansı ki
Xırda və iri heyvanlar
Ən çox doğur".

**6. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Bu Yer üzünün beşinci
Ən xoşbəxt məkanı haradadır?
Dedi Ahura Mazda:
"Bu Yer orada,

hansı ki ən çox
Xırda, iri buynuzlu
Heyvanlar peyin edir".

**7. Cismani canlıların yaradanı-**
Sən, Haqq olan.
Bu Yer üzündə birinci
Ən bədbəxt məkan haradadır?
Dedi Ahura Mazda:
"Ey Spitama Zərdüşt,
Bu Yer orada,
Arazura yalında,
Hansı ki sürünər devalar
Yalan yuvalarından".

**8. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Bu Yer üzündə ikinci
Ən bədbəxt məkan haradadır?
Dedi Ahura Mazda:
"Bu Yer orada,
Hansı ki ölmüş itlərin,
Ölmüş insanların
Qalıqları dəfn edilmişdir".

**9. Cismani canlıların yaradanı-**
Sən, Haqq Olan.
Bu Yer üzündə üçüncü
Ən bədbəxt məkan haradadır?
Dedi Ahura Mazda:
"Bu Yer orada,
Hansı ki
Ən şox daxmalar tikilmiş.
Hansı ki
Ölmüş insanları qoyurlar".

**10. Cismani canlıların yaradanı-**
Sən, Haqq Olan.
Bu Yer üzündə dördüncü
Ən bədbəxt məkan haradadır?
Dedi Ahura Mazda:
“Ey Spitama Zərdüşt,
Bu Yer orada,
Anhra Manın yaratdığı
Ən çox yuvalar olan”.

**11. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Bu Yer üzündə beşinci
Ən bədbəxt məkan haradadır?
Dedi Ahura Mazda:
“Ey Spitama Zərdüşt,
Bu Yer orada, hansı ki
Ər əməli salehdir.
Fəryadı qalxan arvadını,
Fəryadı qalxan uşağını
Quru, qumlu yolla
Əsir aparırlar”.

**12. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Bu Yer üzünü
Ən böyük məmnunluqla
Kim birinci təmin edir?
Dedi Ahura Mazda:
“O kəs, kim ki daha çox
Ölmüş itlərin, ölmüş insanların
Dəfn olunmuş qalıqlarını
Qazıb çıxarır”.

**13. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu Yer üzünü

Ən böyük məmnunluqla
Kim ikinci təmin edir?
Dedi Ahura Mazda:
"O kəs, kim ki daha çox
Ölmüş insanların
Qoyulması üçün tikilmiş
Daxmaları qoparır".

**14. Ölüləri qoy heç kim**
Daşımasın təkbaşına.
Əgər kimsə təkbaşına
Cəsəd daşıyarsa,
Nas(murdar kütlə) onunla
Burnundan, gözündən,
Dilindən, ağzından,
Arxasından dırnaqlarına
Qədər qarışacaq.
Nas atılacaq,
Bundan sonra o, əbədi
Murdar qalacaq".

**15. Cismani canlıları yaradanı-**
Sən Haqq olan.
Cəsədi daşıyan bu ərin
Qalacaq yeri haradadır?
Dedi Ahura Mazda:
"O, bu Yer üzündə ən susuz,
O, bu Yer üzündə ən otsuz,
Ən təmiz torpağı olan,
Ən quraq torpağı olan,
Bir yer olacaq.
Qoy bu yoldan
Xırda, iri heyvanlar,
Ahura Mazda odu da,
Qoy bu yoldan Həqiqət də,

Yiğilmış baresman da,
Əməli saleh ər də
Çox az keçsin".

**16. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Oddan nə qədər uzaq olsun?
Sudan nə qədər uzaq olsun?
Yığılmış baresmandan
Nə qədər uzaq olsun?
Mömin ərdən nə qədər
Uzaq olsun?

Dedi Ahura Mazda:
"Otuz addım oddan,
Otuz addım sudan,
Otuz addım
Yığılmış baresmandan,
Üç addım mömin ərdən
Uzaq olsun.
Qoy onda möminlər
Bu Yer üzündə
Onu alsın hasara.
Qoy bu möminlər
Onu yeməklə buraxsın.
Qoy bu möminlər
Onu paltarla buraxsın.

**19. Ən qaba, ən köhnəlmiş,**
Bu cür yeməyi yesin.
Bərbad və köhnə olan,
Bu cür paltar geyinsin.
Qurumuş toxuma çevrilənədək.

**20. O haçan ki bərbad, köhnə,**
Qurumuş toxumla qalacaq,
Ən güclü, ən möhkəm,

Ən bilikli mömin
Təyin edilər  ki, o zaman
 başini götürsün
Çiyinləri üstündən.
Müqəddəs Ruhun yaratdığı
Ən qarınqulu quşlar-
Qarğalar, qiflər qoy onun
Cəsədini atsınlar və desinlər:
“Bununla ona
Bütün pis fikirləri
Bütün pis sözləri,
Pis əməlləri bağışlanır”.

**21. Başqa pis əməllər**
Törədibsə o,
Bu cəza ilə qurtarır onlar.
Törətməyibsə
o, başqa pis əməl,
Onda bu ər əbədi bağışlanır”.

**22. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu Yer üzünü
Ən böyük məmnunluqla
Kim üçüncü təmin edir?
Dedi Ahura Mazda:
“O kəs, kim ki daha çox
Anhra Manın yaratdığı
Yuvaları qazır”

**23. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu Yer üzünü
Ən böyü məmnunluqla
Kim dördüncü təmin edir?
Dedi Ahura Mazda:
“O kəs, kim ki daha çox

Göyərti, dənli bitkilər əkir.
Hansı ki
Susuzdur suvarılır.
Su basmışdır qurudulur.

**24. O yer bədbəxtdir,**
Hansı ki əkinsiz uzanır.
Hansı ki
Əkinçilər əkməlidir.
Xeyirli məskunlaşanı
Arzulayan, ona tələsən
Mehriban qiz uzun müddət
Uşaqsız gəzməkdən
Yaxşı ər arzulayır”.

**25. Ey Spitama Zərdüşt,**
Kim bu torpağı becərir,
Sol əllə və sağ əllə,
Sağ əllə və sol əllə,
O, meyvələrini
O kəsə gətirir ki
O, sevimli sevgilisi ilə
Mehriban ər kimi
Uzanmış çarpayıda.
O qadın ona oğul
Və ya meyvə (döl) verir.

**26. Ey Spitama Zərdüşt,**
Kim bu Torpağı becərir
Sol əllə və sağ əllə,
Sağ əllə və sol əllə,
Ona deyir bu Torpaq:
“Ey ər!
Məni kim becərər,
Sol əllə və sağ əllə,
Sağ əllə və sol əllə.

**27. Həqiqətən indi mən**
Ölkələri qidalandıracağam.
Həqiqətən indi mən
Məhsulla gələcəyəm.
Qoy bütün yeməkləri yığsınlar.
Daha çox taxıl məhsulu
yığsınlar".

**28. Ey Spitama Zərdüşt,**
Kim becərməz bu Torpağı,
Sol əllə və sağ əllə,
Sağ əllə və sol əllə.
Ona deyər bu Torpaq:
"Ey ər!
Kim məni becərməz,
Sol əllə və sağ əllə
Sağ əllə və sol əllə.

**29. Həqiqətən indi sən,**
Yadların qarşısında duracaqsan.
Yemək dilənənlər arasında,
Həqiqətən sənin ağzın üçün,
Yemək qırıntıları gətiriləcək.
Kimin ki boldur yeməyi".

**30. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Mazdayasna İnancının
qidası nədir?
Dedi Ahura Mazda:
"Bu çalışqanlıqdır,
Dənli bitkilərin əkilməsi üçün,
Ey Spitama Zərdüşt.

**31. Kim dənli bitkilər əkir**
O, Həqiqət əkir.
O, Mazdayasna İnancını

yayır.
Elə yayır,bəsləyir
O, Mazda İnancını
Elə bil yüz qurulmuş kimi,
Min dəstəkçi kimi,
On min ibadət etmiş kimi.

**32. Taxıl göründü, tərlədi devalar.**
Cücərti göründü,öldü devalar.
Rəng göründü,fəryad etdi devalar.
Taxıl göründü,
Küləkləri göndərdi devalar.
Belə ki taxıl görünür
Hansı bir evdə,
Devaları öldürür.
Haçan taxıl çox olur
Elə bil
Onların boğazlarında
Əridilmiş dəmir bişir.

**33. Bu mantranı yadda saxlasın**
İndi qoy hamı.
Onlardan heç kim,
Kim ki yeməsə
Möminliyə gücü yoxdur.
Otlağa gücü yoxdur.
Nəsil artırmaq qüdrəti yoxdur.
Yeyərək yaşayır.
Hər canlı bədən
Ölür yeməyən".

**34. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu yer üzünü
Ən böyük məmnunluqla
Kim birinci təmin edir?
Dedi Ahura Mazda:

“Ey Spitama Zərdüşt,
O kəs, kim ki bu torpağı
Əkib-becərən mömin əri
Salehliklə mukafatlandırır.

**35. Ey Spitama Zərdüşt,**
O kəs, kim ki bu torpağı
Əkib- becərən mömin əri
Salehliklə Mukafatlandırmaz.
O, Müqəddəs Armaitinin
Zülmətinə, zəhərə,
Ən pis dünyaya,
Bütün kəskin
Uçurumlara düşür”.

**36. Cismani canlıların yaradani-**
Sən Haqq olan.
Kim bu Yer üzündə
Ölmüş iti, ölmüş əri basdırıb
Altı ay boyunca qazıb
Geri çıxarmasa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Qoy at qamçısı ilə
Beş yüz zərbə alsın,
Beş yüz-itaətə aparan”.

**37. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim bu Yer üzündə
Ölmüş iti, ölmüş əri
Basdırıb bir il boyunca
Qazıb geri çıxarmasa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:

“Qoy at qamçısı ilə
Min zərbə alsın,
Min- itaətə aparan”.

**38. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim bu Yer üzündə
Ölmüş iti, ölmüş əri basdırıb
İki il boyunca
Qazıb çıxarmasa,
Onun cəzası nədir?
Onun ödəməsi nədir?
Onun təmizlənməsi nədir?

**39. Dedi Ahura Mazda:**
“Onun üçün cəza yoxdur.
Onun üçün xilas yoxdur.
Onun üçün əbədi
Bu bağışlanmaz əməldən
Təmizlənmə yoxdur.

**40. Nə vaxt belə olur?-**
O, Mazdayasna İnancını
Etiraf edərsə əgər,
Oxuyarsa əgər,
O, Mazdayasna İnancını
Etiraf etməsə əgər,
Oxumasa əgər,
Bu günah silinmir.
Mazdayasna İnancını
Qəbul etsə əgər,
Sonradan bu yersiz
Əməlləri etməsə əgər,
Bu günah silinir”.

**41. Ey Spitama Zərdüşt,**
Çünki Mazdayasna
İnancı mömin ərdən
Qandalları çıxarır,
Yalanı çıxarır,
Mömin ərin qətlini
Aradan qaldırır.
Meyitlərin basdırılmasını
Aradan qaldırır.
Bağışlanmaz əməli
Aradan qaldırır.
Tamahkarlığı
Aradan qaldırır.
Bütün o əməlləri
Aradan qaldırır
Hansı ki o törədir.

**42. Ey Spitama Zərdüşt,**
Mazdayasna İnancı
Əməli saleh əri
Pis fikirlərdən,
Pis sözlərdən,
Pis əməllərdən
təmizləyir.
Necə ki əsən külək
Ərazini tüstüdən təmizləyir.
Ey Zərdüşt, bundan sonra
Yaxşı,xeyirxah əmələ
Mazdayasna Dini
Bağışlama verir.

**Yaxşi Həqiqət Ən Yaxşı olandır,**
**Xoşbəxtlik var, Xoşbəxtlik o kəs üçün ki,**
**Ən Yaxşı Həqiqətə görə Həqiqətdir**.

## ÜÇÜNCÜ BÖLMƏYƏ

1. Mitra müqavilə yazatı olmaqla ona onuncu “Yəşt” həsr edilmişdir. Günəşlə yanaşı göy üzündə hərəkət edir. Sonralar günəşlə eyniləşdirilmişdir. Hətta eramızın birinci, ikinci əsrlərində Roma legionlarının Günəş Tanrısına çevrilmişdir.

2. Raman sülh və əminamanlıq yazatı, heyvanların himayəçisi olmaqla daima Mitra ilə yanaşıdır.

Ahura Mazda Yer üzünün birinci ən xoşbəxt məkanını mömin ərin Mitraya və Ramana dua etdiyi məkanı adlandırır.

3. Arazura Yalı deyərkən Ahura Mazda tərəfindən elan edilən birinci ən bədbəxt məkan anlaşılır, hansı ki burada devalar yalan yuvalarından sürünər.

4. Mazdayasna İnancına görə bu dinin qidası çalışqanlıqdır, əkib becərməkdir, heyvan saxlamaqdır.

Kim dənli bitkilər əkirsə, o, Həqiqət əkir, ibadət etmiş kimidir.

5. Mantra dualar toplusudur. Gündəlik oxunur. Müxtəlif ayinlərdə ifa edilir. Mantralar əməli saleh əri pis fikirdən, pis sözdən, pis əməldən təmizləyir.

# Frahard - Bölmə 4

# HÜQUQLAR

**1. Kim ərə aldığı**
Borcu qaytarmırsa,
O, borc oğrusuna çevrilir.
Borc götürdüyü şeyi
Neçə gün, neçə gecə
Evində saxlamaqla.

**2. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ey Ahura Mazda,
Neçə müqavilən var?
Dedi Ahura Mazda:
"Altı, ey mömin Zərdüşt.
Şifahi sözlə-birincidir.
Əllərə zərbə-ikincidir.
Xırda heyvan başına
Qiymət-üçüncüdür.
İri heyvan başına
Qiymət-dördüncüdür.
Adam başına
Qiymət-beşincidir.
Sahədə qiymət-altıncıdır.
Hansı ki sahədə
Yaxşı böyümə ilə,
Məhsuldarlıqla,gəlirli,
Faydalı olmaqla.[1]

**3. Müqavilədir ilk söz,**
Bağlanır müqavilə,
Əlindəki qiymətə
Əl qiyməti ödənilir.
Razılaşma ilə başlanır sonra
Müqvilə qiyməti.
Xırda heyvanlar üçün

Xırda heyvanlarin qiyməti
Ödənilir razılaşma ilə.

**4. Sonra başlanır**
İri heyvanların
Müqavilə qiyməti.
Ödənilir razılaşma ilə
İri heyvanların
Müqavilə qiyməti.
Sonra başlanır
İnsanın müqavilə qiyməti.
Ödənilir razılaşma ilə.
İnsanın müqavilə qiyməti.
Sonra başlanir
Torpaq sahəsinin
Müqavilə qiyməti.
Torpaq sahəsinin
Müqvilə qiyməti
Ödənilir razılaşma ilə."

**5. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Şifahi müqaviləni pozan
Günah işlədir nə qədər?
Dedi Ahura Mazda:
"Üç yüz il ərləri-
Yaxın qohumlarını
Məsuliyyətli edir".

**6. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əllərə zərbə
Müqaviləsini pozan
Günah işlədir nə qədər?
Dedi Ahura Mazda:
"Altı yüz il ərləri-
Yaxın qohumlarını
Məsuliyyətli edir".

**7. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Xırda buynuzlu heyvanların
Müqavilə qiymətini pozan
Günah işlədir nə qədər?
Dedi Ahura Mazda :
"Yeddi yüz il ərləri-
Yaxın qohumlarını
Məsuliyyətli edir".

**8. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
İri buynuzlu heyvanların
Müqavilə qiymətini pozan
Günah işlədir nə qədər?
Dedi Ahura Mazda:
"Səkkiz yüz il ərləri-
Yaxın qohumlarını
Məsuliyyətli edir".

**9. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
İnsanın müqavilə
Qiymətini pozan
Günah işlədir nə qədər?
Dedi Ahura Mazda:
"Doqquz yüz il ərləri-
Yaxın qohumlarını
Məsuliyyətli edir".

**10. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Torpaq sahəsinin
Müqvilə qiymətini pozan
Günah işlədir nə qədər?
Dedi Ahura Mazda:

"Min il ərləri-
Yaxın qohumlarını
Məsuliyyətli edir".

**11. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim pozsa şifahi müqaviləni,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"At qamçısı ilə üç yüz zərbə,
Üç yüz-itaətə aparan".

**12. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim pozsa əllərə zərbə
 müqviləsini,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"At qamçısı ilə altı yüz zərbə.
Alti yüz-itaətə aparan".

**13. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim pozsa xırda
Heyvanların müqavilə
qiymətini,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"At qamçısı ilə yeddi yüz zərbə,
Yeddi yüz-itaətə aparan".

**14. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim pozsa iri heyvanların
Müqavilə qiymətini,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:

“At qamçısı ilə səkkiz yüz zərbə,
Səkkiz yüz-itaətə aparan”.

**15. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim pozsa insanın
Müqavilə qiymətini,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə doqquz yüz zərbə,
Doqquz yüz-itaətə aparan”.

**16. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim pozsa sahənin
Müqavilə qiymətini,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə min zərbə,
Min-itaətə aparan”.

**17. Haçan ər silah qaldırır**
Bu onun”qapması”dır(Ahərəpta).
Haçan onu yellədir
Bu onun “yellənməsi”dir(Avaoirişta).
Haçan günah niyyəti ilə yaralayırsa
Bu onun “sui-qəsdi”dir(Arədu)
Beş qəsddən sonra
Günahı bədənlə ödəyir”.

**18. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ərin qarşısında
(silahla) “qapma” edir
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə beş zərbə,

Beş -itaətə aparan.
İkinci dəfə
At qamçısı ilə on zərbə,
On-itaətə aparan.
Üçüncü dəfə
At qamçısı ilə on beş zərbə,
On beş-itaətə aparan

**19. Dördüncü dəfə**
At qamçısı ilə otuz zərbə,
Otuz-itaətə aparan.
Beşinci dəfə
At qamçısı ilə əlli zərbə,
Əlli-itaətə aparan.
Altıncı dəfə
At qamçısı ilə yetmiş zərbə,
Yetmiş-itaətə aparan.
Yeddinci dəfə
At qamçısı ilə doxsan zərbə,
Doxsan-itaətə aparan".

**20. Səkkizinci dəfə**
Keçmiş əməllərinə
Düzəliş etmədən
Bu əməli törədirsə
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Bu bədənlə ödənilən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan".

**21. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kimsə əgər ərin qarşısında
(Silahlı)" qapma" yaradırsa,
Buna düzəşliş etmirsə,
Onun cəzası nədir?

Dedi Ahura Mazda:
“Bu bədənlə ödənilən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.[2]

**22. Cismsni canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ərə qarşı (silah) yellədir,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə on zərbədir,
On-itaətə aparan.
İkinci dəfə-
At qamçısı ilə on beş zərbədir,
On beş-itaətə aparan.

**23. Üçüncü dəfə-**
At qamçısı ilə otuz zərbədir,
Otuz-itaətə aparan.
Dördüncü dəfə-
At qamçısı ilə əlli zərbədir,
Əlli-itaətə aparan.
Beşinci dəfə-
At qamşısı ilə yetmiş zərbədir,
Yetmiş-itaətə aparan.
Altıncı dəfə-
At qamçısı ilə doxsan zərbədir,
Doxsan- itaətə aparan”.

**24. Yeddinci dəfə**
Keçmiş əməllərinə
Düzəliş etmədən
Bu əməli törədirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**25. Cismsni canlıların yaradanı-**
Sən Haqq olan.
Kimsə əgər ərin qarşısında
Silah yellədir,
Buna düzəliş etmirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan".

**26. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ərə silahlı qəsd edirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"At qamçısı ilə on beş zərbədir,
On beş-itaətə aparan.

**27. İkinci dəfə-**
At qamçısı ilə otuz zərbədir,
Otuz-itaətə aparan.
Üçüncü dəfə-
At qamçısı ilə əlli zərbədir,
Əlli-itaətə aparan.
Dördüncü dəfə-
At qamçısı ilə yetmiş zərbədir,
Yetmiş-itaətə aparan
Beşinci dəfə-
At qamçısı ilə doxsan zərbədir,
Doxsan-itaətə aparan.

**28. Altıncı dəfə**
Keçmiş əməllərinə
Düzəliş etmədən
Bu əməli törədirsə,
Onun cəzası nədir?

Dedi Ahura Mazda:
“Bu bədənlə  ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**29. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərin qarşısında
Silahlı “sui-qəsd” yaradırsa,
Buna düzəliş etmirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**30. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ərə kəsilmiş yara vursa,
Onun cəzası nədir?

**31. Dedi Ahura Mazda:**
“At qamçısı ilə otuz zərbədir,
Otuz-itaətə aparan.
İkinci dəfə-
At qamçısı ilə əlli zərbədir,
Əlli-itaətə aparan.
Üçüncü dəfə-
At qamçısı ilə yetmiş zərbədir,
Yetmiş-itaətə aparan.
Dördüncü dəfə-
At qamçısı ilə doxsan zərbədir,
Doxsan-itaətə aparan.”

**32. Beşinci dəfə-**
Keçmiş əməllərinə
Düzəliş etmədən

Bu əməli törədərsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**33. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə
Kəsilmiş yara vursa,
Onun cəzası nədir?
Dedi Ahura Mazd:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”

**34. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə
Qanayan yara vursa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə əlli zərbədir,
Əlli-itaətə aparan.
İkinci dəfə-
At qamçısı ilə yetmiş zərbədir,
Yetmiş-itaətə aparan.
Üçüncü dəfə-
At qamçısı ilə doxsan zərbədər,
Doxsan-itaətə aparan”.

**35. Dördüncü dəfə-**
Keçmiş əməllərinə
Düzəliş etmədən
Bu əməli törədirsə,
Onun cəzası nədir?

Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz- itaətə aparan”.

**36. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə
Qanayan yara vursa,
Buna düzəliş etməsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**37. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə
Sınıq sümük yarası vursa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə yetmiş zərbədir,
Yetmiş-itaətə aparan.
İkinci dəfə-
At qamçısı ilə doxsan zərbədir,
Doxsan- itaətə aparan”.

**38. Üçüncü dəfə-**
Keçmiş əməllərinə
Düzəliş etmədən
Bu əməli törədirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**39. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə
Sınıq sümük yarası vursa,
Buna düzəliş etməsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz- itaətə aparan”

**40. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə zərbə vursa,
O, şüurunu itirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə doxsan zərbədir,
Doxsan- itaətə aparan”.

**41. İkinci dəfə-**
Keçmiş əməllərinə
Düzəliş etmədən
Bu əməli törədirsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz- itaətə aparan”.

**42. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər kimsə ərə zərbə vursa,
O şüurunu itirsə,
Buna düzəliş etməsə,
Onun cəzası nədir?

**43. Sonra onlar**
Həqiqət yolunda bir əməldə,
Həqiqət Mantrasında,[3]
Həqiqətin vəslində birləşəcəklər.

**44. Əgər eyni dinli kişilər-**
Qardaşlar və yoldaşlar
Bir araya gəlsələr,
Mal-dövlət istəsələr,
Qadın istəsələr,
Ağıl istəsələr,
Əgər mal-dövlət üçün
Bir araya gəlsələr,
Qoy onlara
Mal-dövət gətirsinlər,
Qadınlar üçün
Bir araya gəlsinlər,
Qoy evlənsinlər;

**45. Əgər(onlar)**
Bir araya gəlib ağıl diləsələr,
Qoy günün birinci yarısında,
Qoy günün sonunda,
Qoy gecənin birinci yarısında,
Qoy gecənin sonunda
Ağılda böyümək üçün
Aşa ilə bərabər yalana qarşı
Müqəddəs Mantra oxusunlar.[4]
(Şagird) gecə-gündüz
Zehninin böyüməsi üçün
Sədaqətlə(müəllim qarşısında)
Otursun, baş əysin,
Gündüzün və gecənən
Orta çağında dincəlsin.

**46. Ey Zərdüşt,**
Ərlər üçün hazırlanan

İsti mayedən əvvəl
İnəklər və paltarlar
Almaq faktını qoy heç kim
İnkar etməsin.

**47. Ey Spitama Zərdüşt,**
Mən evli adamın adını
Zahid kimi yaşayandan,kəndlidən
Yuxarıda qoyacağam.[5]
Hansı ki
Kənddən kənarda oğlu olandan,
Uşağı olmayandan
(Fərq etməz) varlı olsun,
Ya kasıb olsun.
İki ərdən biri tezliklə
Xeyirxah fikrə yiyələnir.
Kimi ətlə qarnını doldurur.
Doğrudan da o, kim bunu etmir-
O, ehtimalən ölüdür.
Amma o biri
Asperen dəyərində qiymətlidir.
Xırda heyvan dəyərində qiymətlidir.
İri heyvan dəyərində qiymətlədir.
İnsan dəyərində qiymətlidir.

**49. O Asta Vidota qalib gəlir.**
Məharətlə atılan oxa qalib gəlir.
Ən kiçik paltarda buludlu qışa
qalib gəlir.
Ən pis ölümlüyə-tirana
Başını kəsərək qalib gəlir.
Oruc tutan dinsiz
Aşemaoqoya qalib gəlir.[6]

**50. Bu birinci baş vermiş**
Hərəkətə görə
Təkrar olunan üçün yox,

Sonra bu əmələ görə
Onun ölməkdə olan bədəninə
Çoxlu ağrılar verdilər.
Necə ki bu cismani dünyada
Mis bıçaqla və yaxud
Başqa bir şeylə ətini kəsdilər.

**51. O vaxt orada bu əmələ görə**
Onun ölməkdə olan bədəninə
Çoxlu ağrılar verdilər.
Necə ki bu cismani dünyada
Mis mismarla və yaxud
Başqa bir şeylə ətini deşdilər.

**52. O vaxt orada, bu əmələ görə**
Onun ölməkdə olan bədəninə
Çoxlu ağrılar verdilər.
Necə ki bu cismani dünyada
Yüz adam dərinliyindəki
Uçuruma zorla və yaxud
Başqa bir şeylə atırlar.

**53. O vaxt orada, bu əmələ görə**
Onun ölməkdə olan bədəninə
Çoxlu ağrılar verdilər.
Necə ki bu cismani dünyada
Ona zorla paya apardılar.

**54. O vaxt orada bu əmələ görə**
Onun ölməkdə olan bədəninə
Çoxlu ağrılar verdilər.
Necə ki bu cismani dünyada
İsti, sarı, ifşa edən
Hiylə mayası ilə o,
Yalan dedi Mitraya,
Yalan və hiylə qatdı
Raşnanın sözlərinə.

**55. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim bu cismani dünyada
İsti,sarı, ifşa edən
Hiylə mayası ilə
Yalan dedi Mitraya.
Yalan və hiylə qatdı
Raşnanın sözlərinə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"At qamçısı ilə yeddi yüz zərbədir,
Yeddi yüz-itaətə aparan".

## DÖRDÜNCÜ BÖLMƏYƏ

1. Hüquqlar bölməsində insanlar arasında bağlanan müqavilələr mühüm yer tutur. İlk olaraq altı müqavilə müəyyənləşdirilmişdi. Bu müqavilələri pozanlara qarşı müəyyən cəzalar tətbiq olunurdu.

2. Bundan başqa bir şəxsin digər şəxsə qarşı silah qaldırmasına qarşı verilən cəzalar bu bölmədə yer alır.

3. Həqiqət Mantrasında Həqiqətə aid olan toplam dualardır ki, burada Həqiqət vəsf olunur, tərifl ənir, alqışlanır.

4. "Avesta" mətnlərində Aşa- Həqiqət həm də bir obraz kimi verilir. Aşa özü də insanlarla birgə yalana qarşı Mantra oxuyur.

5. "Avesta" qanunlarına görə evli adam hər cür subay adamdan üstündür.

6. Buradan məlum olur ki, zərdüşti möminlər üçün oruc tutmaq məcburi qayda idi.

# **Frahard - Bölmə 5**
# MURDARLIĞIN HEYVANLAR TƏRƏFİNDƏN YAYILMASI

**1. Ər dərələrin dərinliklərində ölləcək.**
Və quş dağların başından
Dərələrin dərinliklərinə
enəcək.
Ölmüş bir insanın cəsədini
öpəcək.
O quş vadilərin dibindən
Dağların başına uçacaq.
O bir ağaca uçacaq, sərt bir ağaca
Və ya yumşaq bir ağaca.
Onun üstünə qusar,
Onun üstünə sidik buraxar,
Onun üstünə zıllar.

**2. Ər dərələrin dibindən**
Dağların başına çıxacaq.
Oda odun tapmaq üçün
O quş olan ağaca yaxınlaşacaq.
O, onu kəsər, doğrayar,
Ondan od yandırar-
Od Ahura Mazdanın oğludur-
Onun cəzası nədir?

**3. Dedi Ahura Mazda:**
"İtin apardığı, quşun apardığı,
Qurdun apardığı,
Milçəyin apardığı leş
İnsan üçün günaha çevrilmir.

**4. İtin apardığı, quşun apardığı,**
Qurdun apardığı,küləyin apardığı
Milçəyin apardığı bu qalıqlar

İnsan üçün günaha çevrilir,
Tez bir zamanda
Mənim cismani dünyam
Titrəyən ruhu ilə,
Məhkum bədəni ilə
Onların çoxlu cəsədlərində
Kim ki bu yerdə ölür,
Həqiqətin məhv edicisi oldu.

**5. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ər taxıl zəmisinə su buraxır
O axına ikinci dəfə
Üçüncü dəfə, dördüncü dəfə
İt, tülkü və ya canavar
Leş aparacaq,
Onun cəzası nədir?

**6. Dedi Ahura Mazda:**
"İtin gətirdiyi, qurdun apardığı,
Küləyin apardığı,
Milçəyin apardığı leş
İnsan üçün günaha çevrilmir,

**7. İtin apardığı,**
Qurdun apardığı,
Küləyin apardığı,
Milçəyin apardığı leş
İnsan üçün günüha çevrilsəydi əgər
Tez bir zamanda
Mənim cismani dünyam
Titrəyən ruhu ilə,
Məhkum bədəni ilə
Onların çoxlu cəsədlərində
Kim ki bu yerdə ölür
Həqiqətin məhv edicisi oldu".

**ODDAN VƏ SUDAN ÖLÜM**

**8. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Su əri öldürür?
Dedi Ahura Mazda:
"Su əri öldürmür.
Asto Vidot onu bağlayır.
Vayu onu qolu bağlı aparır.
Su onu qaldırır.
Su onu endirir.
Su onu kənara atır.
Sonra onu quşlar öpür.
O, ora gedir, pay gəlir.

**9. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Od əri öldürür?
Dedi Ahura Mazda:
"Od əri öldürmür.
Asto Vidot onu bağlayır
Vayu onu qolu bağlı aparır.
Od bədəni və həyatı yandırır.
O, ora gedir, pay gəlir.

**QIŞDA DƏFN**

**10. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Yay gedir, qış gəlir.
Möminlər nə etməlidir?
Dedi Ahura Mazda:
"Hər evdə, hər kənddə
Qoy ölülər üçün üç ev tiksinlər".

**11. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Necə olmalıdır ölülər üçün
Olan bu evlər?

Dedi Ahura Mazda:
“Belə ki ayaq üstə duranın
Başının arxası,
Uzanan ayaqları
Uzanan əlləri döyülməsin.
Doğru ev belədir ölülər üçün.

**12. Sonra qoy hissiz bədəni**
İki gecəyə, üç gecəyə, bir aylığa,
Quşlar uçub gələnəcən,
Bitkilər böyüyənəcən,
Sular axanacan,
Külək yeri qurudanacan uzatsınlar

**13. Haçan quşlar uçub gələr,**
Otlar böyüyər, sular axar,
Bitkilər böyüyər,
Külək yeri qurudar,
O vaxt möminlər bu qalıqları
Günəşə qoysunlar.[1]

**14. Əgər möminlər bu qalıqları**
Günəşə qoymasalar, sən gərək
Cəza təyin edəsən.
Mömin öldürənin cəzasına
Bərabər bütün müddətə.
Qalıqlar çıxarılana qədər.
Daxma təmizlənənə qədər.
Əzalar çıxarılana qədər.
Quşlar onları öpənə qədər[2]

## TƏBİƏTDƏKİ SUYUN DÖVRANI

**15. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Sən Ahura Mazda
Küləklə, buludlarla
Vourukəş dənizindən
Suları sürürsən?[3]

**16. Sən Ahura Mazda**
Meyitə su daşıyırsan.
Sən Ahura Mazda
Daxmaya su daşıyırsan.
Sən Ahura Mazda
Leşə su daşıyırsan.
Sən Ahura Mazda
Sümüklərə su daşıyırsan.
Sən Ahura Mazdza
Hiss etmədən onları
Puitik dənizinəmi gətirirsən?[4]

**17. Dedi Ahura Mazda:**
"Bəli, Zərdüşt,
Sən necə də doğru dedin.
Ahura Mazdayam mən,
Vourukəş dənizindən
Külək və buludlarla
Su aparıram.

**18. Mən, Ahura Mazda**
Meyitə su daşıyıram.
Mən Ahura Mazda
Daxmaya su daşıyıram.
Mən Ahura Mazda
Leşə su daşıyıram.
Mən Ahura Mazda
Sümüklərə su daşıyıram
Mən Ahura Mazda
Hiss etdirmədən
Puitik dənizinə
Onları götürürəm.

**19. Yüksəlir onlar.**
Dənizin ürəyinə qarışır onlar.
Putika dənizindən
Vourukəş dənizinə
Yaxşı sular ağacına

Təmiz sular axır.
Mənim bitkilərim
Böyüyür orada.
Müxtəlif növlərdə
Yüz, min, on min.

**20. Sulayıram onları yağışla**
Mən Ahura Mazda.
Mömin insan üşün yemək
Fəzilətli inək üçün otlaq.
Mənim insanım çörək yesin.
Otlaqdan fəzilətli inək yesin..

**21. Bu yaxşıdır, bu gözəldir**
Sən necə də doğru dedin"
Belə sözlərlə Saleh Ahura Mazda
Mömin Zərdüştü sevindirdi.:
"Sən insanı doğulandan sonra
Təmizləyəcəksən-
Bu ən yaxşı faydadır (Yasna 48:6)
Bu təmizlənmə, ey Zərdüşt,
Mazda İnancıdır-
Kim ki öz ruhunu
Xeyirxah fikirlə, xeyirxah sözlə,
Xeyirxah əməllə təmizləyir".

**ANTİ- DEVA QANUNUN TƏRİFİ**

**22. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Böyüklük, xeyirxahlıq,
Gözəllik baxımından
Bütün başqa deyimlər arasında
Zərdüştiliyin devalara  qarşı qanunu
Daha əhəmiyyətli, daha yaxşı,
Daha gözəldirmi?

**23. Dedi Ahura Mazda:**
“Ey Zərdüşt,
Devalara Qarşı Qanun
Zərdüştiliyin digər
Deyimləri arasında
Böyüklüyünə görə
Yaxşılıq və gözəllik baxımından
Digər sularin qarşısında
Vourukəş dənizi kimidir.[5]

**24. Bəli, Zərdüşt,**
Bu devalara Qarşı Qanun
Zərdüştiliyin digər deyimləri
Arasında böyüklüyünə görə
Yaxşılıq, gözəllik baxımından
Böyük suyun daha çox kiçik
Suları yumasına bənzəyir.
Ey Zərdüşt,
Bu Devalara Qarşı Qanun
Zərdüştiliyin digər deyimləri
Arasında böyüklüyünə görə
Yaxşılıq və gözəllik baxımından
Böyük ağacın daha çox kiçik
Ağaclara kölgə salmasına bənzər.

**25. Bəli, Zərdüşt,**
Bu Devalara Qarşı Qanun
Zərdüştiliyin digər deyimləri
Arasında böyüklüyünə,
Yaxşılığına, gözəlliyinə görə
Mövcüd olanı əhatə edən
Yer üzünə bənzəyir.

**26. Alınmış dron[6]**
Və yaxud alınmamı dron
Verilmiş dron
Və yaxud verilməmiş dron

Bağışlanmış dron və yaxud
Bağışlanmamış drona görə
İtaət duasını oxumağa
Rat çağrılır.
Rat bu cəzanın üçdə birini
Bağışlaya bilər
Əgər o başqa pis əməllər
Törədibsə bu cəza ilə
Onlar silinir.
Əgər o, başqa pis əməllər
Törətməyibsə, onda bu ər
Əbədi olaraq bağışlanır".

**İNSAN VƏ İTİN ÖLÜMÜNDƏN MURDARLIQ**

**27Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bir yerdə, bir yataqda
Bir yorğanda olacaq.
İkisi olacaq, beş,əlli və ya
Yüz ər olacaq.
Bu ərlərdən biri ölər.
Bu ərlər arasında neçəsinə
Cəsəd druju murdar çürçmə ilə
İnfeksiya ilə toxunacaq?

**28. Dedi Ahura Mazda:**
"Ey Spitama Zərdüşt,
Əgər bu atravan olsa,
Bu cəsəd druju çökər,
On birinciyə toxunar,
Onuncunu murdar edər.
Ey Spitama Zərdüşt,
Əgər bu döyüşçü olsa,
Bu cəsəd druju çökər,
Onuncuya toxunar,

Doqquzuncunu murdar edər.
Ey Spitama Zərdüşt,
Əgər bu çoban-heyvandar olsa,
Bu cəsəd druju çökər,
Doqquzuncuya toxunar,
Səkkizincini murdar edər.

**29. Ey Spitama Zərdüşt,**
Əgər bu çoban iti olsa,
Bu cəsəd druju çökər,
Səkkizinciyə toxunar,
Yeddincini murdar edər.
Ey Spitama Zərdüşt,
Əgər bu keşikçi iti olsa,
Bu cəsəd druju çökər,
Yeddinciyə toxunar.
Altıncını murdar edər.

**30. Ey Spitama Zərzüşt,**
Əgər bu ov iti olsa,
Bu cəsəd druju çökər,
Altıncıya toxunar,
Beşincini murdar edər.
Əgər bu cavan it olsa,
Bu cəsəd druju çökər,
Beşinciyə toxunar,
,Dördüncünü murdar edər.

**31. Ey Spitama Zərdüşt,**
Əgər bu kirpi iti olsa,
Bu cəsəd druju çökər,
Dördüncüyə toxunar,
Üçüncünü murdar edər.
Ey Spitama Zərdüşt,
Əgər bu caji iti olsa,
Bu cəsəd druju çökər,
Üçüncüyə toxunar,
İkincini murdar edər.

**32. Ey Spitama Zərdüşt,**
Əgər bu aiviju iti olsa,
Bu cəsəd druju çökər,
İkinciyə toxunar,
Birincini murdar edər.
Ey Spitama Zərdüşt,
Əgər bu viju iti olsa,
Cəsəd druju çökər,
Birinciyə toxunar,
Birincini murdar edər".

**33. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu tülkü- it olsa,
Bu tülkü- it
Müqəddəs Ruhun yaratdıqlqrını
Nə qədər birbaşa murdarlayacaq,
Nə qədər dolayı murdarlayacaq?

**34. Dedi Ahura Mazda:**
"Tülkü- it nə birbaşa,
Nə də dolayısı ilə
Müqəddəs Ruhun yaratdığı
Heç bir şeyi murdar etməyəcək.
Ona zərbə vurub öldürənlərdən başqa.
Belə murdarlıq əbədi olacaq".

**35. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər aşemaoqa kimi
Yalançı, ikiayaqlı,alçaq olsa,
Müqəddəs Ruhun yaratdıqlqrını
Nə qədər birbaşa murdarlayacaq,
Nə qədər dolayı murdarlayacaq?

**36. Dedi Ahura Mazda:**
"Üç il əvvəl ölmüş,
Qurumuş qurbağa kimi.
Çünki diri, ikiayaqlı, hiyləgər,

Haqsız aşemaoqa kimi
Müqəddəs Ruhun yaratdıqlarını
Birbaşa murdarlayacaq,
Canlı olanı dolayı murdarlayacaq.

**37. O, canlı olan suyu zədələyir.**
Canlı odu zədələyir.
Bağlanmış inəyi aparır.
Diri mömin əri
Şüurunu ayıran zərbə ilə vurur,
Həyatdan məhrum edən
Zərbə ilə vurur, ancaq ölməmiş.

**38. Ey Spitama Zərdüşt,**
Çünki diri, ikayaqlı, hiyləgər,
Haqsız aşemaoqa kimi
Mömin ərdən yeməyi, paltarı,
Yatağı, qab-qacağı zorla alır
Ancaq ölməmiş.

**39. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ey İnanclı Ahura Mazda,
Bu dünyada evimizə
Cismani od, baresman,kasa,
Haoma dəstəyi, həvəngdəst gətirsək,
Bundan sonra bu evdə it və ya
Ər ölsə, möminlər nə etməlidir?

**40. Dedi Ahura Mazda:**
"Onlar qoy bu evlərdən odu,
Baresmanı, kasanı, haoma dəstəyini,
Həvəngdəsti götürsünlər.
Qoy mərhumu o kəs kimi
Necə ki əri doğru olan qanunla
Yem olmağa aparmaq üçün
götürülür.

**41.Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan möminlər bu evə,
Hansı ki burda ər ölmüşdü,
Odu gətirə bilərlər.

**42. Dedi Ahura Mazda:**
"Qoy möminlər qışda doqquz gecə,
Yayda bir ay gözləsinlər.
Bundan sonra dindarlar
Ərin öldüyü bu evə
Od gətirə bilərlər.

**43. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər möminlər bu evə,
Hansı ki ər ölmüşdür
Doqquz gecə qışda,
Bir ay ərzində od gərirsələr,
Cəzaları nədir?

**44. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz –itaətə aparan".

**ÖLÜ DOĞULMUŞ UŞAĞIN TƏMİZLƏNMƏSİ**

**45. Cismani canlıların yaradanı-**
Sən Haqq olan,
Bu möminlərin evində
Qadın bir ay, iki ay,üç ay, dörd ay,
Beş ay, altı ay, yeddi ay, səkkiz ay,
Doqquz ay, on ay hamilə olacaq.
O qadın cansız uşaq doğacaq.
Bu vaxt möminlər nə etsinlər?

**46. Dedi Ahura Mazda:**
“Qoy möminin evində
Ən təmiz, ən quru yerdə
Ona yer tapsınlar.
Qoy bu yolla xırda heyvanlar,
İri heyvanlar,
Ahura Mazda odu, baresman,
Mömin ər,
Aşada yığılmışlar az keçsin”.

**47. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Oddan nə qədər uzaq,
Sudan nə qədər uzaq,
Yığılan baresmandan
Nə qədər uzaq,
Mömin ərdən nə qədər uzaq olsun?

**48. Dedi Ahura Mazda:**
“Oddan otuz addım,
Sudan otuz addım,
Baresmandan otuz addım,
Mömin ərdən otuz addım uzaqdır.

**49. Qoy onda möminlər bu yeri**
Hasarla əhatəyə alsınlar.
Mazda İnanclıları ona
Yemək saxlasınlar.
Paltar saxlasınlar”.

**50. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu qadın hansı yeməyi
Birinci yeməlidir?

**51. Dedi Ahura Mazda:**
“Külü buğanın sidiyi ilə

Üç, altı, doqquz ölçüdə
Daxmanın içində onun
Bətninə, mədəsinə endirsinlər.

**52. Ancaq sonra ona**
Sıyıqlı və ya sıyıqsız
Qaynadılmış madyan,
İnək, qoyun, keçi südü,
Susuz qidalı ət, susuz pak çörək,
Susuz şərab versinlər".

**53. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Onlar nə qədər gözləməlidirlər?
Ət, çörək yeməklə, şərab içməklə
O, nə qədər qalmalıdır?

**54. Dedi Ahura Mazda:**
Üç gecə onlar gözləməlidirlər.
Üç gecə o qadın
Ət, çörək yeməklə, şərab içməklə
Orada qalmalıdır.
Üç gecədən sonra
Paltarını çıxararaq
Bədənini qomez ilə
Doqquz çuxur üzərində
Su ilə yusun.
Beləliklə təmizlənəcəkdir".

**55. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Onlar nə qədər gözləməlidirlər?
Üç gecədən sonra
Ayrı yerdə, ayrı yeməklə,
Ayrı paltarla
Başqa möminlərdən ayrı
O qadın nə qədər qalacaq?

**56. Dedi Ahura Mazda:**
“Doqquz gecə gözləməlidir,
Üç gecədən sonra
Doqquz gecə ayrı yerdə,
Ayrı yeməklə, ayrı paltarla
Başqa möminlərdən
Ayrı qalmalıdır.
Ancaq doqquz gecədən sonra
Qoy bədənini yusun,
Paltarını çıxarsın.
Qomez və su ilə

Doqquz çuxur üstündə qoy onlar,
Onu təmizləsinlər”.

**57. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Təmizləndikdən sonra
Ayrılan paltar zaotar, hvanan,
Atravahş, raətvişkar,
Sraoşavarəz, atravan, insan-
Döyüşçü, çoban, maldar üçün
təmizlənəcəkdir?

**58. Dedi Ahura Mazda:**
“Təmizləndikdən sonra
Ayrılan o paltar zaotar, hvanan,
Atravahş, raətvişkar,
Sraoşavarəz, atravan, insan-
Döyüşçü, çoban, maldar üçün
təmizlənəcəkdir.

**59. Əgər bu evdə mömin qadın**
Heyzlə olarsa, xəstə, yaralı,
İş qabiliyyəti olmayan,
Muradarlar üçün olan
Bu yerdə məskən salırsa

Onda qoy onlar onun yatağı,
Yastığı üçün paltarı
Öz əllərini qaldırıb
Dua edə biləcəyinə qədər
Bütün müddətə götürsünlər".

**60. Ahura Mazda**
Əldə edilmiş əmlakı
Nə asperin ölçüsündə,
Nə də toxucunun parça ölçüsündə
İsrafa buraxmadı.

**61. Əgər möminlər**
Mərhumun üzərinə
Parça qoysalar
Toxunduğu qədər
Diri saleh olmaz.
Mərhum Ən Yaxşı Dünyanı
qazanmayacaq.

**62. O, əməli salehlərin**
Dünyasına düşəcək.
Əgər saleh olmasa
O,Yalan (batil)Dünyasına,
Zülmətdən gələn
Tam qaranlığa düşəcək.
Belə bir var olma şansına,
Ey yalançılar, siz özünüzün
Əməlinizə görə,
Sizin özünüzün inancınıza görədir,
Ən pis dünyada nail olacaqsınız!

**Yaxşı Həqiqət Ən Yaxşı olandır,**
**Xoşbəxtlik var, Xoşbəxtlik o kəs üçün ki,**
**Ən Yaxşı Həqiqət üçün Həqiqətdir.**

## BEŞİNCİ BÖLMƏYƏ

1. Burada söhbət ölmüş insan qalıqlarından gedir. Məlumdur ki, “Avesta” qanunlarına görə ölmüş insanı dəfn etmək qəti qadağan idi. Bununla birlikdə cəsədlərin hər hansı bir yerə atılması və yaxud daxmalarda saxlanmasına görə də cəza növləri təyin olunurdu.

2. Bununla belə Zərdüşt dini inanclarına görə qış vaxtı yaza qədər ölmüş insanların cəsədlərinin xüsusi evlərdə saxlanılmasına icazə verilirdi. Yazda cəsədlər heyvanlar üçün əlçatmaz yerlərdə günəşə qoyulurdu ki, ancaq quru sümüklər qalandan sonra bu sümük qalıqları xüsusi qorunma yerlərinə aparılırdı.

3. Vourukəş dənizini çoxlu çayların, dənizlərin töküldüyü Hind okeanı olmaqla ümumdünya okeanlarına daha çox aid etmək olar. “Avesta”ya görə Vourukəş dənizi bütün digər dənizlərdən böyükdür və o dənizlərin sularını Vourukəş dənizi yuyur.

Ancaq “Hvarno” himnində deyilir:

...Və atıldı Franhrasyan
Turların ən möhkəmi
Vourukəş dənizinə.

Buradan göründüyü kimi bu daha çox Xəzər dənizi ilə üst-üstə düşür.

4. Puitik dənizi Vourukəş dənizinə tökülən kiçik dənizdir.

5. Devalara qarşı qanun zərdüştiliyin digər deyimləri arasında xüsusi yer tutur. Ahura Mazda bu qanunu böyüklüyünə görə digər suların qaşısında Vourukəş dənizi adlandırır.

6. Dron çörək növüdür, yumru olduğu üçün daha çox yer kürəsini özündə ehtiva edir.

# Frahard - Bölmə 6

## TORPAĞIN VƏ SUYUN QALIQLARLA MURDARLANMASININ QARŞISININ ALINMASI

**1. Nə vaxta qədər**
Yer istifadəsiz qalmalıdır,
hansı ki orada itlər və insanlar
ölmüşdür?
Dedi Ahura Mazda:
"Bir il ərzində istifadəsiz
qalmalıdır.
Hansı ki orada
İtlər və insanlar ölmüşdür.

**2. Mazda inanclıları**
Bir il ərzində itlərin və insanların
Öldükləri torpağı
Əkməsin,suvarmasın.
Başqa torpağı əksin, suvarsın.

**3. Əgər möminlər bir il ərzində**
İtlərin və insanların
Öldüyü bu yeri əksələr,
Bu yeri suvarsalar,
Meyitləri suyun, torpağın,
Bitkilərin qarşısında basdırmaqla
Günahkar olurlar.[1]

**4. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər Mazda möminləri bu yeri
Bir il ərzində əksələr, suvarsalar,
Hansı ki burada
İtlər və insanlar ölmüşdür-
Cəzaları nədir?

**5. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan".

**6. Cismai canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər möminlər
Bu məhsuldar torpağı
Becərmək istəsələr,
Əkmək istəsələr,
Suvarmaq istəsələr,
Bunu necə etsinlər?

**7. Dedi Ahura Mazda:**
"Bu möminlər bu  torpaqda
Sümük axtarmalıdırlar.
Saçı, murdarlığı,
Sidiyi,qanı axtarmalıdırlar".

**8. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər möminlər bu torpaqda
Sümük axtarmasalar,
Saçı, murdarlığı,
Sidiyi, qanı axtarmasalar,
Onların cəzası nədir?

**9. Dedi Ahura Mazdz:**
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan".

**10. Cismani canlıların yaradanı,**
Sən Haqq olan.
Kiçik barmağın ilk oynağı boyda
İtin və ya insanın

Sümüyünü kim atarsa,
Əgər o, yağa və ya yağlı
Bir şeyə bulaşmışsa,
Onun cəzası nədir?

**11. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan".

**12. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Orta barmağın ilk oynağı boyda
İtin və insanın
Sümüyünü kim atarsa
Əgər o, yağa və ya yağlı
Bir şeyə bulaşmışsa,
Onun cəzası nədir?

**13. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə əlli zərbədir,
Əlli- itaətə aparan".

**14. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Böyük barmağın ilk oynağı boyda
İtin və insanın
Sümüyünü kim atarsa,
Əgər o, yağa və ya yağlı
Bir şeyə bulaşmışsa,
Onun cəzası nədir?

**15. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə yetmiş zərbədir,
Yetmiş- itaətə aparan".

**16. Cismani canlıların yaradanı,**
Sən Haqq olan.
Barmaq və ya qabırğa boyda
İtin və insanın
Sümüyünü kim atarsa,
Əgər o, yağa və ya yağlı
Bir şeyə bulaşmışsa,
Onun cəzası nədir?

**17. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə doxsan zərbədir,
Doxsan-itaətə aparan".

**18. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
İki barmaq və ya iki qabırğa boyda
İtin və insanın
Sümüyünü kim atarsa,
Əgər o yağa və ya yağlı
Bir şeyə bulaşmışsa,
Onun cəzası nədir?

**19. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz - itaətə aparan".

**20. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Çiyin və ya bud boyda
İtin və ya insanın
Sümüyünü kim atarsa,
Əgər o, yağa və ya yağlı
Bir şeyə bulaşmışsa,
Onun cəzası nədir?

**21. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə dörd yüz zərbədir,
Dörd yüz – itaətə aparan".

**22. Cismani canlıların yaradanı-**
Sən Haqqq olan.
İnsan kəlləsi boyda
İtin və ya insanın
Sümüyünü kim atarsa,
Əgər o, yağlıdırsa,
Yağlı bir şeyə bulaşmışsa
Onun cəzası nədir?

**23. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə alti yüz zərbədir,
Altı yüz-itaətə aparan"

**24. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
İtin və ya insan
Bütün bədənini kim atarsa,
Əgər o yağlıdırsa,
Yağlı bir şeyə bulaşmışsa
Onun cəzası nədir?

**25. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə min zərbədir,
Min – itaətə aparan.

**26. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər Mazdayasna inanclıları
Yeriyərkən, qaçarkən,

Ata, arabaya minərkən,
Axar sularda cəsədlə qarşılaşsalar,
Bu möminlər nə etməlidirlər?

**27. Dedi Ahura Mazda:**
“Ey Zərdüşt,
Qoy ayaqqabısını çıxarsın,
Paltarını kənara atsın,
Başqaları gözlərkən , dizinə, belinə,
Kişinin boyuna qədər
Axına girsin,
Meyiti hər yerdən götürsün”.

**28. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu cəsədlər
Parçalanıb çürüyürsə,
Möminlər nə etməlidir?

**29. Dedi Ahura Mazda:**
“Əlləri ilə tutduqları qədər
Çıxıb quru yerə qoysunlar.
Sümüyün, saçın, murdarlığın,
Sidiyin, qanın yenidən suya
Axması günah deyil.

**30. Dedi Ahura Mazda:**
“Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Bu su tutarında cəsəd druju
Murdarlığı, parçalanmağı,
İnfeksiyanı nə qədər suya
qarışdırır?

**31. Dedi Ahura Mazda:**
“Dörd istiqamətin
Hər birində alti addım

Bu meyit çıxarılana qədər
Bu su murdardır.
Bu su içilməzdir.
Qoy onlar
Meyitləri sudan çıxarıb
Quru yerə qoysunlar.

**32. Bu suyun yarısını,**
Üçdə birini, dörddə birini,
Və ya beşdə birini,
Bacarsalar və ya
Bacara bilməsələr.
Boşaltsınlar.
Meyitlər seçildikdən sonra
Su boşaldılsın. Bu su
Heyvanların, insanların
Sərbəst içilməsi üçün
Əvvəlki kimi təmiz olur.

**33. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Quyuda və mənbədə
Cəsəd druju murdarlığı,
Parçalanmanı, İnfeksiyanı
Nə qədər suya qarışdırır?

**34-35Dedi Ahura Mazda:**
“Bu meyit sudan çıxarılana qədər
Bu su murdardır, içilməzdir.
Meyitləri sudan çıxarıb
Quru yerə qoysunlar.
Bu suyun yarısını,
Üçdə birini, dörddə birini,
Beşdə birini boşaltsınlar.
Bacarsalar,
Ya bacara bilməsələr
Meyitlər seçildikdən sonra

Su boşaldılsın və bu su
Heyvanların, insanların
Sərbəst içilməsi üçün
Əvvəlki kimi təmiz olur".

**36. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Nə qədər qara, nə qədər doluya
Cəsəd druju murdarlığı,
Parçalanmanı, infeksiyanı
qarışdırır?

**37. Dedi Ahura Mazda:**
"Hər birində dörd addım
Bu meyit çıxarılana qədər
Bu su murdardır.
Meyiti sudan çıxarsınlar,
Quru torpağa qoysunlar.

**38. Meyitlər çıxarılandan,**
Qar əriyəndən sonra bu su
Əvvəllər olduğu kimi təmizdir.
Heyvanlara, insanlara
Sərbəst içməyə yararlıdır".

**39. Cismani canlıların yaradanı-**
Sən Haqq olan,
Nə qədər axar suya cəsəd druju
Murdalığı, parçalanmanı,
Yoluxmanı qarışdırır?

**40. Dedi Ahura Mazda:**
"Üç addım aşağı, axın ilə,
Doqquz addım axına qarşı,
Altı addım axın boyunca
Bu su murdardır,
İçilmək üçün yararsızdır.

Qoy onlar meyitləri
Sudan çıxarıb quru yerə
qoysunlar.

**41. Meyitlər çıxarılsın,**
Üç dəfə yağış yağsın,
Sonra bu su pak olar.
Sərbəst içməyə,
Heyvanlara, insanlara
Əvvəlki kimi yararlı olar".

**42. Cismani canlıların yaradanı-**
Sən Haqq olan,
Ölmüş itin, insanın
Cəsədinin toxunduğu
Haoma sapları təmizlənəcəkmi?

**43. Dedi Ahura Mazda:**
"Ey Saleh Zərdüşt, təmizlənəcək.
Sıxılmış haomaya
Pislik yox, ölüm yox,
Cəsədlə toxunmaq yox.
Sıxılmamış haoma
Dörd barmaq qədər murdarlanır.
Qoy onları yerə qoysunlar.
Bir evin otağında
Bir il keçənə qədər.
Bir il keçəndən sonra
Onları sərbəst əvvəlki kimi
Mömin ər yeyə bilər".

**44. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Saleh ərin cəsədini
Hara aparmalıyıq?
Ey Ahura Mazda,
Onu hara qoymaq lazımdır?

**45. Dedi Ahura Mazda:**
“Ən yüksək yerdə,
 Ey Spitama Zərdüşt.
Hansı ki etibarlı şəkildə
Orada meyit yeyən quşların,
...
Olduğu məlumdur.

**46. Orada Mazda İnanclılar**
Cəsədi ayaqlarından, saçlarından
Dəmirə, daşa, torpağa
Bağlasınlar ki
Cəsəd yeyən ... və quşlar
Bu sümükləri suya və ya
Bitkilərin üstünə aparmasın”.

**47. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər onlar cəsədləri bağlamasalar
..., quşlar bu sümükləri
Suya, bitkilərin üzərinə
Aparsalar, cəzaları nədir?

**48. Dedi Ahura Mazda:**
“Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**49. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Mömin ərin sümüklərini
Hara aparaq?
Ey Ahura Mazda,
Onu hara aparaq?

**50. Dedi Ahura Mazda:**
“Qoy it, tülkü, canavar üçün
Əl çatmaz bir qab düzəltsinlər,
Onu yağış suyundan bağlasınlar.

**51. Mazda möminləri, bacarsalar**
Daşdan, əhəngdən, qumdan,
Bacarmasalar, qoy onu
Günəşin önündə işıqla örtülmüş
Yatağa, yastığa qoysunlar.

**Yaxşı Həqiqət Ən Yaxşı olandır.**
**Xoşbəxtlik var, Xoşbəxtlik o kəs üçün ki,**
**Ən Yaxşı Həqiqətə görə Həqiqətdir**.

## ALTINCI BÖLMƏYƏ

1. Göründüyü kimi ölmüş insan, heyvan cəsədləri ilə murdarlanmış yeri bir il ərzində əkmək olmazdı. Əkən kəsləri isə cəza gözləyirdi. Əkilən yer təmizlənməli idi.

2. Göründüyü kimi murdarlanmış suyun da təmizlənməsi, pak olması üçün müəyyən vaxt lazım idi.

# Frahard - Bölmə 7

# MEYİT DRUJUNUN MƏRHUMA HÜCUMUNUN VAXTI

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
“Ahura Mazda, Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
İnsanlar ölərkən
Nə vaxt cəsəd druju onlara
çökür”?

**2. Dedi Ahura Mazda:**
“Ey Spitama Zərdüşt,
Ölümdən dərhal sonra
Şüur bədəndən çıxan kimi
Cəsəd druju bükülmüş dizləri,
Yuxarı qaldırılmış arxası ilə
Daima ən iyrənc hrafstralar kimi
Vızıldayan milçək şəklində
Şimal tərəfdən daxil olur”.

**3. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər onu it öldürəcəksə,
Canavar öldürəcəksə,
Cadugər öldürəcəksə,
Düşmən öldürəcəksə,
Uçurum öldürəcəksə,
İnsan öldürəcəksə,
Zorakılıqla öldürüləcəksə,
İlgəklə öldürüləcəksə,
Nə qədər zamandan sonra
Cəsəd druju meyitə çökər?

**4. Dedi Ahura Mazda:**
"Növbəti gündə
Cəsəd druju çökər".

**İNSAN VƏ İTİN ÖLÜMÜNDƏN MURDARLIQ**

**5. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kişilər bir yerdə,
Bir yataqda, bir yorğanda,
olacaq.
Onlar iki, beş, əlli, yüz olacaq.
Bu ərlərdən biri öləcək.
Bu ərlər arasında neçəsi
Cəsəd drujundan murdarlanacaq,
Çürüyəcək, infeksiyadan təsirlənəcək?

**6. Dedi Ahura Mazda:**
"Ey Spitama Zərdüşt,
Əgər bu atravan olsa,
Bu cəsəd druju çökər,
On birinciyə toxunacaq,
Onuncunu murdarlayacaq.
Ey Spitama Zərdüşt,
Əgər bu döyüşçü olsa,
Bu cəsəd druju çökər,
Onuncuya toxunacaq,
Doqquzuncunu murdarlayacaq.
Ey Spitama Zərdüşt,
Əgər bu çoban-heyvandar olsa,
Bu cəsəd druju çökər,
Doqquzuncuya toxunar,
Səkkizincini murdarlayacaq.

**7. Ey Spitama Zərdüşt,**
Əgər bu çoban iti olsa,
Bu cəsəd druju çökər,

Səkkizinciyə toxunacaq,
Yeddincini murdarlayacaq.
Ey Spitama Zərdüşt,
Əgər bu gözətçi iti olsa,
Yeddinciyə toxunacaq,
Altıncını murdarlayacaq.

**8. Ey Spitama Zərdüşt,**
Əgər bu ov iti olsa,
Bu cəsəd druju çökər,
Altıncıya toxunacaq,
Beşincini murdarlayacaq.
Ey Spitama Zərdüşt,
Əgər bu cavan it olsa,
Bu cəsəd druju çökər,
Beşinciyə toxunacaq,
Dördüncünü murdarlayacaq".

## MURDAR PALTARLARIN TƏMİZLƏNMƏSİ

**9. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Hansı üst qapağa, hansı yastığa
Cəsəd druju murdarlıq,
Çürümə, infeksiya salır?

**10. Dedi Ahura Mazda:**
"Cəsəd druju üst qapağa,
Alt örtüyə murdarlıq,
Cürümə, infeksiya salır"

**11. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ey Ahura Mazda,
Ölmüş itin cəsədinə,
Ölmüş insanın cəsədinə
Toxunan paltar təmizlənəcəkmi?

**12. Dedi Ahura Mazda:**
“Təmizlənəcək, Spitama Zərdüşt”.
Nə şəkildə?
“Əgər onun üzərində
..., qan, kir, qusma varsa,
Qoy möminlər bu paltarı cırsınlar,
Yerə basdırsınlar.

**13. Əgər onun üzərində**
..., qan, kir, qusma yoxsa,
Qoy möminlər bu paltarları
Qomezlə yusunlar.

**14. Əgər bu dəri olsa, qoy qomezlə**
Üç dəfə yusunlar.
Üç dəfə torpağa bulaşdırsınlar.
Üç dəfə su ilə yusunlar,
Üç ay evin pəncərəsindən
havalandırsınlar.

**15. Əgər bu parçadırsa, qoy qomezlə**
Altı dəfə yusunlar.
Altı dəfə
torpağa bulaşdırsınlar.
Altı dəfə su ilə yusunlar.
Altı ay evin pəncərəsindən
havalandırsınlar.

**16. Su hansı ki Ərdvi adlandırırıq,**
Ey Spitama Zərdüşt,
Bu mənim suyumdur.
Kişilərin toxumunu təmizləyir.
Qadınların bətnini təmizləyir.
Qadınların südünü təmizləyir.

**17. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.

Təmizləndikdən sonra
Ayrılan paltar zaotar, havanan,
Atravahş, fraberetar, aberet,
Asnatar, raetvişkar, sraoşavarez,
Atravan, insan-döyüşçü, çoban,
Heyvandarlar üçün təmizlənəcəkmi?

**18. Dedi Ahura Mazda:**
“Təmizləndikdən sonra
Ayrılan paltarlar zaotar,havanan,
Atravahş, fraberetat, aberet,
Asnatar, raetvişkar, sraoşavarez,
Atravan, insan-döyüşçü, çoban,
Heyvandarlar üçün
təmizlənməyəcəkdir.

**19. Əgər bu evdə mömin qadın**
Heyzlə olarsa, xəstə olarsa,
Yaralı, iş qabiliyyəti olmayan,
Murdarlar üçün olan
Bu yerdə məskən salarsa,
Onda qoy onlar onun
Yatağı və yastığı üçün paltarı
O əllərini qaldırıb
Dua edə biləcəyinə qədər
Bütün müddətə götürsünlər.

**20. Ahura Mazda əldə etdiyi əmlakı**
Nə asperin ölçüsündə,
Nə toxucunun parça toxuduğu
Sap ölçüsündə israfa buraxmadı.

**21. Əgər Mazdayasna inanclıları**
Ölünün üstünə parça buraxsalar,
Toxucunun parçada toxuduğu qədər
Diri saleh olmaz,
Ölü Ən Yaxşı Dünyaya düşə bilməz.

**22. O salehlərin Dünyasına düşəcək,**
İslah olmasa
O, Yalan Dünyasına düşəcək.
Belə bir var olma şansına,
Ey yalançılar, sizin özünüzün
Əməllərinizə görə,
Sizin özünüzün inancınıza görə
Ən pis dünyada nail olacaqsınız".

**MEYİT YEYƏNLƏRDƏN GƏLƏN BƏLALAR**

**23. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ey saleh Ahura Mazda,
Ölmüş itin, ölmüş insanın
Cəsədini yeyən insanlar
təmizlənəcəkmi?

**24. Dedi Ahura Mazda:**
"Ey Zərdüşt,
Belə insanlar təmizlənməyəcək.
Belə insanlar öz evlərini
viran qoyur.
Öz ürəklərini dağıdırlar.
Belə insanlar öz göz bəbəklərini
qoparırlar.
Cəsəd druju onların ayaqları
Üzərinə çökür.
Onlar əbədi murdar qalırlar.

**25. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ey saleh Ahura Mazda,
Cəsədi, içalatı ilə birlikdə
Suya, oda atan,
Onları murdar edən insanlar
təmizlənəcəkmi?

**26. Dedi Ahura Mazda:**
“Təmizlənməyəcək,
Ey saleh Zərdüst.
Bu hiyləgər çöpçülərə görə
Ağcaqanadlar, çəyirtkələr çoxalır.
Bu hiyləgər çöpçülərə görə
Yemsiz quraqlıqlar çoxalır.

**27. Bu hiyləgər çöpçülərə görə**
Devaların yaratdığı,
Heyvanları məhv edən
Sərt, bədxah, qalın qarlı qışı
gücləndirir.

**ODUN VƏ YEMƏKLƏRİN TƏMİZLƏNMƏSİ**

**28. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Sən saleh Ahura Mazda
Ölmüş itin, ölmüş insanın
Cəsədinə toxunan odun
təmizlənəcəkmi?

**29. Dedi Ahura Mazda:**
“Təmizlənəcək, ey saleh Zərdüşt”.
Hansı şəkildə?
“Əgər meyiti yeyən ...,
Meyit yeyən quşlar gəmirsə,
Onlar qurudursa, bir qarış,
Yaşdırsa, dirsək uzunluğunda
Hər hansı bir torpaq
Parçasının üstünə qoysunlar,
Onlara su səpsinlər,
Belə onlar təmizlənəcəklər.

**30. Əgər meyiti meyit yeyən ...,**
Meyit yeyən quşlar gəmirməyibsə,

Qoy onları qurudursa,
Dirsək uzunluğunda,
Yaşdırsa, qol uzunluğunda
Bir torpaq parçasının
Üzərinə qoysunlar,
Onlara su səpsinlər,
Belə onlar təmizlənəcəklər.

**31. Qoy bu torpaq parçasına**
O qədər quru, o qədər yaş,
O qədər bərk, o qədər yumşaq
Odun qoysunlar,
Onlara su səpsinlər,
Belə onlar təmizlənəcəklər".

**32. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ey saleh Ahura Mazda,
Buğda və yem (heyvanlar üçün)
Hansı ki ölmüş itin və insanın
Cəsədinə toxunubsa, təmizlənəcəkmi?

**33. Dedi Ahura Mazda:**
"Təmizlənəcək, ey Spitama Zərdüşt".
Hansı şəkildə?
"Əgər cəsədi meyit yeyən ...,
Meyit yeyən quşlar gəmirməyibsə,
Qoy onları, qurudursa,
Dirsək uzunluğunda,
Yaşdırsa, qol uzunluğunda
Bir torpaq parçasının
Üzərinə qoysunlar.
Onlara su səpsinlər.
Onlar belə təmizlənəcəklər.

**34. Əgər cəsədi meyit yeyən ...,**
Meyit yeyən quşlar təmizləyibsə

Qoy onları
Qurudursa, qol uzunluğunda,
Yaşdırsa, qolun yellənəcəyi
 uzunluğunda
Bir torpaq parçasının
Üzərinə qoysunlar,
Onlara su səpsinlər,
Onlar belə təmizlənəcəklər.

**35. Qoy bu torpaq parçasına**
Bu qədər quru taxıl səpsinlər.
Bu qədər nəmli, bu qədər əkilmiş,
Bu qədər əkilməmiş,
Bu qədər biçilmiş,
Bu qədər biçilməmiş,
Bu qədər südlü, bu qədər südsüz,
Bu qədər sovuran,
Bu qədər sovurmayan,
Bu qədər üyüdülmüş,
Bu qədər qarışdırılmış,
Bu qədər(qarışdırılmamış),
Onlara su səpsinlər,
Onlar belə təmizlənəcəklər".

**ŞƏFA (VERMƏ)**

**36. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Mazdayasna inanclıları
Şəfa vermə ilə
Məşğul olmaq istəyirlərsə,
Öz sənətlərini ilk olaraq
Kimin üzərində sınasınlar.
Mazdayasna inanclılarının?
Devayasna inanclılarının?

**37. Dedi Ahura Mazda:**
“Qoy əvvəl öz sənətlərini
Mazdayasna inanclıların yox,
Devayasna inanclıların
Üzərində sınasınlar.
Əgər o birinci deva inanclını
Əməliyyat etsə, o ölsə,
O ikinci deva inanclını
Əməliyyat etsə, o ölsə,
Əgər o üçüncü deva inanclını
Əməliyyat etsə, o ölsə,
Onda o, şəfa verən kimi
Əbədi olaraq yararsızdır.

**38. Qoy bundan sonra o,**
Möminləri müalicə etməsin.
Əməliyyat etməsin.
Bıçaqla kəsməsin.
Ağır nəticə olaraq
Möminləri müalicə edərsə,
Əməliyyat edərsə,
Bıçaqla kəsərsə,
Bilərəkdən yara vurduğuna görə
Cəza alacaqdır.

**39. Əgər o, birinci deva inanclını**
Əməliyyat etsə, o sağalsa,
Əgər o, ikinci deva inanclını
Əməliyyat etsə, o sağalsa,
Əgər o, üşüncü deva inanclını
Əməliyyat etsə, o sağalsa,
Onda o, şəfa verən kimi
Əbədi olaraq yararlıdır.

**40. Qoy o,  möminləri sərbəst**
sağaltsın.
Sərbəst əməliyyat etsin.
Bıçaqla sərbəst sağaltsın.

**41. Qoy atravana xeyir-dua üçün**
Şəfa versin.
Ev sahibinə ən kiçik öküzünün
Qiymətinə şəfa versin.
Kəndin hakiminə orta öküzün
Qiymətinə şəfa versin.
Qəbilə başçısına bahalı öküzün
Qiymətinə şəfa versin.
Ölkə başçısına dörd öküzün
Qoşulduğu araba qiymətinə
Şəfa versin.

**42. Qoy ev sahibinin arvadına**
Bir eşşəyin qiymətinə
Şəfa versin.
Qoy kənd hakiminin arvadına
Bir düyənin qiymətinə
Şəfa versin.
Qoy qəbilə başçısının arvadına
Bir madyanın qiymətinə
Şəfa versin.
Qoy ölkə başçsının arvadına
Bir dəvə qiymətinə
Şəfa versin.

**43. Qoy bahalı öküz qiymətinə**
Oğlunu sağaltsın.
Qoy bahalı öküzü orta öküzün
Qiymətinə sağaltsın.
Qoy orta öküzü kiçik öküzün
Qiymətinə sağaltsın.
Qoy kiçik öküzü qoyunun
Qiymətinə sağaltsın.
Qoy qoyunu ət şorbasının
Qiymətinə sağaltsın.

**44. Ey Spitama Zərdüşt,**
Əgər çoxlu şəfa verən toplansa,
Bıçaqla şəfa verənlər,
Bitkilərlə şəfa verənlər,
Mantralarla şəfa verənlər,
Qoy onlar daha yaxşı
Müqəddəs Mantraya qoşulsunlar.
Çünki şəfa verənlərin
Ən çox şəfa verəni
Müqəddəs Mantra ilə
Şəfa verəndir.
Qoy o, saleh ərin bətnini sağaltsın".

**QALIQLARIN VƏ DAXMANIN ÇÜRÜMƏ VAXTI**

**45. Cismsni canlıların yaradanı-**
Sən Haqq olan.
Günəşin önündə işıqla örtülmüş
Yerə qoyulmuş ,
Ölmüş insanların qalıqları
Nə qədər müddətə torpağa çevrilir?

46**.** Dedi Ahura Mazda:
"Bir il ərzində günəşin önündə
İşıqla örtülmüş yerə qoyulmuş
İnsan qalıqları torpağa çevrilir".

**47. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Torpağa basdırılmış
Ölmüş insanların qalıqları
Nə qədər müddətə
Torpağa çevrilir?

**48. Dedi Ahura Mazda:**
"Əlli ildən sonra
Torpağa basdırılmış

İnsanların qalıqları
Torpağa çevrilir”.

**49. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Daxmaya qoyulmuş, ölmüş insanın
Cəsədinin qalıqları
Nə qədər müddətə
Torpağa çevrilir?

**50. Dedi Ahura Mazda:**
“Onlar toza qarışandan
Sonra bu olur.
Həvəsləndir, ey Spitama Zərdüşt,
Bu cismani dünyada hamını
Daxmaları dağıtmağa vadar edin.

**51. Kim öz bədəni böyüklüyündə**
Daxmanı dağıtsa
Onun fikirləri bağışlanır.
Onun sözləri bağışlanır.
Onun əməlləri bağışlanır.
Onun fikirləri islah olunur.
Onun sözləri islah olunur.
Onun əməlləri islah olunur.

**52. Bu adama görə iki ruh**
Müqavimət göstərməyəcək.
O, möcüzəvi şəkildə
Ən Yaxşı Dünyaya girəcək.
Ey Zərdüşt, ona ulduzlar,
Ay və günəş xeyir-dua verəcəkdir.
Mən, Yaradıcı Ahura Mazda
Ona xeyir-dua verirəm.
Xoşbəxtlik o ərə ki
Təhlükəli dünyadan
Rahat Dünyaya gəldi!”

**53. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Harada deva var?
Deva pərəstişkarları haradadır?
Devaların görüşü haradadır?
Devalar hara toplaşırlar,
Hansı ki əlli, yüzlərlə nəfəri
 öldürsünlər.
Minlərlə öldürsünlər.
On minlərlə öldürsünlər.
Saysız-hesabsız öldürsünlər.?

**54. Dedi Ahura Mazda:**
"Ey Spitama Zərdüşt,
Daxmalarda,
Hansı ki hazırlanmış,
Hansı ki bu yer üzündə qorunur,
Harada ki
Ölmüş insanlar yerləşdirilir,
Orada deva var,
Orada devaya pərəstiş edirlər.
Ora devaların görüşdüyü yerdir.
Devalar ora toplaşırlar.
Hansı ki əlli, yüzlərlə nəfəri
 öldürürlər.
Minlərlə öldürürlər.
On minlərlə öldürürlər.
Saysz-hesabsız öldürürlər.

**55. Ey Spitama Zərdüşt,**
Devalar daxmalarda yeyir
Onu boşaldırlar,
Necə ki bu cismani dünyada
Siz insanlar yaxşı məhsulun
Dadlı yeməklərini, dadlı ətini
yeyirsiz

Daxmanın qoxusu devalar üçün
İnsanların yemək qoxusu kimidir.

**56. Devaların sevinci o vaxta qədər,**
Oradan pislik gələnə qədər
Davam edəcək.

**57. Daxmalardan xəstəlik, ağrı,**
Qızdırma, vəba, hərarət, ağrılar
Saçın ağarması görünür

**58. Gün batandan sonra daxmalarda**
Ən pis insanlar peyda olur.

**59. Axmaqlar böyük ağıl axtarmırlar.**
Qadınlar ..., pəncələri,
Üç hörüklü hörükləri ilə
Bu xəstəlikləri üçdə bir artırır".

**ÖLÜ DOĞULMUŞ UŞAĞIN TƏMİZLƏNMƏSİ**

**60. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu möminin evində qadın bir ay,
İki ay, üç ay, dörd ay, beş ay,
Altı ay, yeddi ay, səkkiz ay,
Doqquz ay, on ay hamilə qalacaq.
Sonra bu qadın cansız uşaq doğacaq.
Bu vaxt möminlər nə etməlidir?

**61. Dedi Ahura Mazda:**
"Qoy möminin evində,
Ən təmiz , ən quru yerdə
Ona yer tapsınlar.
Qoy bu yolla xırda heyvanlar,
İri heyvanlar,
Ahura Mazda odu,  baresman,

Dindar ər,
Aşada yığılmışlar az keçsin”.

**62. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Oddan nə qədər uzaq,
Sudan nə qədər uzaq,
Baresmandan nə qədər uzaq,
Mömin ərdən nə qədər uzaq
olsun?

**63. Dedi Ahura Mazda:**
“Otuz addım oddan,
Otuz addım sudan,
Otuz addım baresmandan,
Otuz addım mömin ərdən
uzaq olsun.

**64. Sonra qoy möminlər bu yeri**
Hasarla əhatəyə alsınlar.
Sonra möminlər
Onu yeməklə saxlasınlar.
Paltarla saxlasınlar”.

**65. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu qadın hansı yeməyi
Birinci yeməlidir?

**66. Dedi Ahura Mazda:**
“Kül və buğanın sidiyini
Üç, altı, doqquz ölçüsündə
Qoy daxmada onun bətninə,
Mədəsinə endirsinlər.

**67. Ancaq sonra sıyıqlı,**
Sıyıqsız, qaynadılmış,

Madyan, inək, qoyun,
Keçi südü, susuz qidalı ət,
Susuz pak çörək, susuz şərab
Ona versinlər".

**68Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Onlar nə qədər gözləməlidirlər?
Ət, çörək, yeməklə,
Şərab içməklə
O, orada nə qədər qalmalıdır?

**69. Dedi Ahura Mazda:**
"Üç gecə onlar gözləməlidirlər.
Üç gecə ət, çörək yeməklə,
Şərab içməklə orada qalmalıdırlar.
Üç gecədən sonra paltarını çıxarıb
Doqquz çuxur üstündə
Bədənini qomezlə, su ilə yusun,
Beləliklə təmizlənəcəkdir".

**70. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər hərarət onun titrəyən
Bədəninə hücum etsə,
Onu iki pis dərd tutsa;
Aclıq və susuzluq,
Bu qadın su içə bilərmi?

**71. Dedi Ahura Mazda:**
"Qoy həyatını xilas etməyə
İmkan verəcək qədər içsin.
Əsas məqsəd budur.
Qoy bu qadın
Hər hansı bir bacarıqlı
Və biliklinin qarşısında
Bacarıqlı və inanclının

əlindən su içsin.
Siz möminlər
Günahının təmizlənməsini
Müəyyən edin.
Çağrılmış Rat,
Çağrılmış Dinləməni icra edən
Qoy günhının təmizlənməsini
Müəyyən etsin".

**72. O qadının bağışlanmasının**
Cəzası nədir?
Dedi Ahura Mazda:
Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz-itaətə aparan".

**QABLARIN TƏMİZLƏNMƏSİ QAYDASI**

**73. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Yemək qabı təmizlənəcəkmi?
Ey saleh Ahura Mazda,
Hansı ki o qaba ölmüş itin,
Ölmüş insanın cəsədi
toxunmuşdur?

**74. Dedi Ahura Mazda:**
"Təmizlənəcək, ey saleh Zərdüşt".
Hansı şəkildə?
"Əgər o,qızıldandırsa, qoy bir dəfə
Onu qomezlə yusunlar.
Bir dəfə torpağa sürtsünlər.
Bir dəfə su ilə yusunlar-
O, elə təmizlənəcək

**75. Əgər o, gümüşdəndirsə,**
Qoy onu iki dəfə qomezlə

yusunlar,
İki dəfə torpağa sürtsünlər.
İki dəfə su ilə yusunlar-
O, elə təmizlənəcək.
Əgər o misdəndirsə,
Qoy onu üç dəfə qomezlə
yusunlar,
Üç dəfə torpağa sürtsünlər.
Üç dəfə su ilə yusunlar-
O, elə təmizlənəcək.
Əgər o, dəmirdəndirsə,
Qoy onu dörd dəfə qomezlə
yusunlar,
Dörd dəfə torpağa sürtsünlər.
Dörd dəfə su ilə yusunlar-
Elə təmizlənəcək.
Əgər o, daşdandırsa,
Qoy onu altı dəfə qomezlə
yusunlar,
Altı dəfə torpağa sürtsünlər.
Altı dəfə su ilə yusunlar-
Elə təmizlənəcək.
Əgər o, gildəndirsə,
Əgər o, ağacdandırsa,
O, əbədi olaraq murdardır”.

## ÖLÜ YEMİŞ İNƏYİ TƏMİZLƏMƏK

**76. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
İnək təmizlənəcəkmi,
Ey saleh Ahura Mazda,
Hansı ki ölmüş itin,
İnsanın cəsədini yemişdir?

**77. Dedi Ahura Mazda:**
“Təmizlənəcək, ey saleh Zərdüşt.

Bir il ərzində ondan,
Mərasim ayinlərinin icrasında
Onun südündən,
Yağından, ətindən
İstifadə etməyin.
Ancaq bir il keçəndən sonra
Sərbəst şəkildə
Onun məhsullarından
İnsanlar istifadə etsin".

**HƏQİQƏTİN QARŞISINI KORLANMIŞ SU TÖKMƏKLƏ ALMAQ.**

**78. Kim o, ey Ahura Mazda,**
Hansı ki
Həqiqəti düşünür,
Həqiqəti istəyir,
Həqiqətə mane olur,
Druj əldə edir?

**79. Dedi Ahura Mazda:**
"O, ey saleh Zərdüşt,
Həqiqəti düşünür,
Həqiqəti arzulayır,
Həqiqətə mane olur,
Həqiqəti düşünərək
Druj əldə edir,
Kim ki tərkibində leş olan
Su gətirir,
Hansı ki tökmək üçün yararsızdır
Kim ki qaranlıq gecələrdə
Su gətirir,
Tökmək üçün yararsızdır".

## YEDDİNCİ BÖLMƏYƏ

1. Zərdüştilərin inancına görə cəsəd druju şər ruhun təmsilçisidir. İnsanın ölümündən dərhal sonra milçək şəklində cəsədin üzərinə çökür. Cəsədin su ilə yuyulub təmizlənməsi nəticəsində cəsəd druju cəsədi tərk edir.

2. Ölmüş itlərin və ölmüş insanların cəsədlərini yeyən insanlara Ahura Mazda heç vaxt bəraət vermir, bağışlamır.

3. Spitama Zərdüşt Ahura Mazdadan ölmüş itlərin və ölmüş insanların cəsədinə toxunan əşyaların təmizlənib təmizlənməyəcəyini soruşur. Mətndən göründüyü kimi bu əşyalar su ilə təmizlənir.

4. Mətndən göründüyü kimi Ahura Mazda Spitama Zərdüştə bildirir ki, şəfa verənlər öz sənətlərini birinci olaraq Devayasna inancina inananlar üzərində sınasınlar. Nəticə yaxşı olandan sonra Mazdayasna inanclıları müalicə etsinlər.

# Frahard - Bölmə 8

## YAS MƏRASİMİ

**1. Əgər taxta evdə,**
Əgər hörmə daxmada
Çubuqlardan it ölsə,
Adam ölsə,
Möminlər nə etsinlər?

**2. Dedi Ahura Mazda:**
“Qoy daxma axtarsınlar,
Qoy daxma tapsınlar.
Əgər onlar qərar versələr,
Ən yaxşısı cəsədi köçürsünlər.
Evi tərk etsinlər.
Bu evi urvas, vahu-qaona,
Vahu-kereti, hadanaepata ilə,
Başqa ətirli bitkilərlə
Dumanlandırsınlar.[1]

**3. Əgər qərar versələr ki,**
Evi köçürmək daha yaxşıdır,
Qoy evi köçürsünlər.
Mərhumu saxlasınlar,
Qoy bu evi urvas, vahu-qaona,
Vahu-kereti, hadanaepata ilə
Dumanlandırsınlar”.

**4. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər möminlərin evində
İt ölsə, insan ölsə,
Yağış, qar yağsa, tufan başlasa,
Qaranlıq başlasa,
Hansı ki

İnsanlar azar, heyvanlar azar,
Möminlər nə etməlidir?

**5-7. Dedi Ahura Mazda:**
"Hansı ki bu yer üzündə
Ən susuz, ən otsuz,
Ən təmiz, ən quraq olacaq.
Bu torpaqda, bu yoldan,
Xırda heyvanlar, iri heyvanlar,
Ahura Mazda odu, baresman,
Aşada yığılan, mömin ər
az keçsin.

Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Oddan nə qədər uzaq,
Sudan nə qədər uzaq,
Baresmandan nə qədər uzaq,
Mömin ərdən nə qədər uzaq
olsun?

Dedi Ahura Mazda:
"Oddan otuz addım,
Sudan otuz addım,
Baresmandan otuz addım,
Mömin ərdən üç addım uzaq
olsun".

**8. Sonra möminlər bu torpaqda**
Çuxur qazmalıdırlar.
Bərk yerdə yarım ayaq,
Yumşaq yerdə yarım adam boyu.
Bu yerə kül və ya peyin
gətirsinlər.
Yuxarıdan kərpic, daş,
Quru torpaq və ya qum qoysunlar.

**9. Sonra qoy hissiz bədəni**
İki gecəyə, üç gecəyə,
Bir ay müddətinə
Və ya o qədər ki
Quşlar gələnə qədər,
Bitkilər böyüyənə qədər,
Sular axana qədər,
Külək yeri qurudana qədər
 qoysunlar.

**10. Haçan quşlar uçub gələr,**
Bitkilər böyüyər, sular axar,
Külək yeri qurudar,
Onda möminlər
Qoy divarda deşik açsınlar.
İki kişi , bacarıqlı,yüngül,
Çevik, çılpaq ayaqlarla
Onu kərpicdən, daşdan,
Əhəngdən götürüb
Qoy onu yerə qoysunlar,
Harada ki etibarlı şəkildə
Meyit yeyən ...,
Meyit yeyən quşlar vardır.

**11. Qoy cəsəd daşıyanlar**
Meyitdən üç addım kənar
 otursunlar.
İnanclı Rat möminlərə deyəcək:
"Qoy möminlər meyit daşıyanların
Bədənini, saçlarını yuyacaq
Sidik toplasınlar".

**12. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kimin sidiyi olmalıdır,
Ey saleh Ahura Mazda.
Hansı ki

Meyit daşıyanların bədənini,
Saçlarını yusun:
Xırda heyvanlarınmı,
İri heyvanlarınmı,
Kişilərinmi, qadınlarınmı?

**13. Dedi Ahura Mazda:**
“Nigahda duracaq kişilərdən,
Qadınlardan başqa.
Xırda heyvanların, iri heyvanların
Sidiyi ilə meyit daşıyanların
Bədənini, saçlarını yusunlar”.

**14. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Yol boyunca hansı ki
Ölmüş itlərin, ölmüş insanların
Cəsədlərini gətirirlər,
Oradan xırda heyvanlar, iri heyvanlar,
Kişilər, qadınlar,
Ahura Mazdanın oğlu olan od ,
Baresman keçə bilərmi?

**15. Dedi Ahura Mazda:**
“Qoy bu yoldan xırda heyvan,
İri heyvan keçməsin.
Kişi keçməsin, qadın keçməsin.
Ahura Mazda odu keçməsin.
Baresman keçməsin.

**16. Qoy bu yolla üç dəfə**
Sarı dördgözlü, ağ sarıqulqalı
İtlər aparılsın.
Ey Spitama Zərdüşt,
Sari dördgözlü, ağ sarıqulaqlı
İtlər gətirməklə
Murdar cəsəd druju
Şimala doğru tələsər.

**17. Əgər qaçmasa,**
Ey Spitama Zərdüşt,
Sarı, dördgözlü,
Ağ sarıqulaqlı itlər
Qoy bu yoldan altı dəfə
keçsinlər.
Ey Spitama Zərdüşt,
Sarı dördgözlü,
Ağ sarıqulaqlı
İtlər gətirməklə murdar cəsəd druju
Şimala doğru tələsər.

**18. Əgər qaçmasa,**
Ey Spitama Zərdüşt,
Sarı dördgözlü,
Ağ qaraqulaqlı itlər
Qoy bu yoldan doqquz dəfə
keçsinlər.
Əgər qaçmasa,
Ey Spitama Zərdüşt,
Sarı dördgözlü, ağ qaraqulaqlı
İtlər gətirilməklə
murdad cəsəd druju
Şimala doğru tələsər.

**19. Əgər ey Spitama Zərdüşt,**
Sarı dördgözlü, ağ sarıqulaqlı
İtlərdən qaçmasa, qoy bu yoldan
Atravan keçsin.
Belə qalib sözlərlə elan etsin:
Varlığın layiqli Rəbbi kimi...

**20. Kim, ey Mazda...**
Kim maneəni qıracaq...

**21. Bizi düşməndən qoru,**
Ey Mazda.
Ey Müqəddəs Mömin Armaiti.
Deva yalanlarını yox edin!

Deva toxumunu yox edin!
Devanın yaratdıqlarını yox edin!
Uzaq yalandan!
Yalandan qurtulun!
Get, yalan!
Uzaq şimalda yox ol!
Sən Həqiqətin canlı yaratdıqlarını
Məhv edə bilməyəcəksən.[2]

**22. Qoy sonra möminlər**
Bu yoldan sərbəst şəkildə
Xırda heyvanları, iri heyvanları,
Kişiləri,qadınları,
Ahura Mazda oğlu odu,
Baresmanı keçirsinlər.
Sonra qoy bu evə sərbəst şəkildə
Qiymanı südlə, balla gətirsinlər.
Onda əvvəlki kimi pak, günahsız
olacaqlar".

**23. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ölülərə paltar buraxsa,
Toxunma olsun, dəri olsun,
İnsan ayaqqabısı olsun,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Bu bədənlə ödənən
At qamçısı ilə dörd yüz zərbədir,
Dörd yüz-itaətə aparan".[3]

**24. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ölülərə paltar buraxsa,
Toxunma olsun, dəri olsun,
Onunla budlarını örtəcəksə,
Onun cəzası nədir?

Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə min zərbədir,
Min-itaətə aparan”.

**25. Cismani canlıların yaradanı-**
Sən haqq olan.
Kim ölülərə paltar buraxsa,
Toxunma olsun, dəri olsun,
Bütün kişi geyimləri kimi olsun,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə min zərbədir,
Min-itaətə aparan”.

... ...

**26. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim öz istəyinə əks olaraq
Sadomaya
Təslim olsa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə səkkiz yüz zərbədir,
Səkkiz yüz-itaətə aparan”.[4]

**27. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim öz iradəsi ilə
Sadomaya
Tabe olsa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Ona cəza yoxdur.

Ona xilas yoxdur.
Onun üçün əbədi olaraq
Bu bağışlanmaz işdən
Təmizlənmə yoxdur".

**28-30. Nə vaxt bu belədir?**
Əgər o, Mazdayasna İnancını
Etiraf etsə və ya oxusa.
Amma əgər Mazdayasna İnancını
Etiraf etməsə, oxumasa,
Mazdayasna İnancını qəbul etməklə
Sonradan belə əməlləri etməməklə
Bu günüh aradan qalxır.

Çünki , ey Spitama Zərdüşt,
Mazda İnancı saleh ərdən
Zəncirləri götürür.
Yalanı götürür.
Möminlərin qətlini
Aradan qaldırır.
Meyitlərin basdırılmasını
Aradan qaldırır.
Bağışlanmaz əməlləri
Aradan qaldırır.
Tamahkarlığı aradan qaldırır.
Bütün o əməlləri aradan qaldırır,
Hansı ki o törədir.
Ey Spitama Zərdüşt,
Mazdayasna İnancı
Mömin əri pis düşüncədən,
Pis sözdən, pis əməldən
təmizləyir.
Necə ki güclü külək
Ərazini tüstüdən təmizləyir.
Ey Zərdüşt, Mazda İnancı
Yaxşı iş, xeyirxah əmələ görə
Bağışlanma verir

**31. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Deva kimdir?
Devaların pərəstişkarı kimdir?
Devaların sevgilisi kimdir?
Devaların qarşoku kimdir?
Devaların cariyəsi kimdir?
Kim özü deva kimidir?
Kim tamamilə devadır?
Kim ölümünə qədər devadır?
Kim ölümündən sonra
Deva ruhlu olur?

**32. Dedi Ahura Mazda:**
"Tənbəl hemoseksualist,
Hərəkətli hemoseksualist,
Ey Spitama Zərdüşt,
O, var olan devadır.
O, dəvaların pərəstişkarıdır.
O, devaların sevgilisidir.
O, devaların qarşokudur.
O, devaların cariyəsidir.
O, özü deva kimidir.
O, tamamilə devadır.
O, ölümünəcən devadır.
O, ölümündən sonra
Deva ruhlu olur-
.... ....

## MEYİT MURDARLIĞINDAN TƏMİZLƏNMƏ

**33. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Təmizlənəcəkmi o insanlar,
Ey saleh Ahura Mazda,
Hansı ki bir il əvvəl
Ölmüş qurumuş cəsədə əyilib?

**34. Dedi Ahura Mazda:**
“Təmizlənəcək, ey saleh Zərdüşt.
Quru quruya yapışmır.
Əgər quru quruya yapışsaydı
Tez bir zamanda
Mənim bütün cismani dünyam
Titrəyən canı ilə,
Məhkum olunmuş bədəni ilə,
(Cinayətkarı ilə),
Çoxlu cəsədləri ilə,
Kim ki bu yer üzündə ölür,
Həqiqətin məhvinə çevrilərdi”.

**35. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Təmizlənəcəkmi o insanlar,
Ey saleh Ahura Mazda.
Hansı ki itlərin, insanların
Cəsədini daşıyır?

**36. Dedi Ahura Mazda:**
“Onlar təmizlənəcək,
Ey saleh Zərdüşt”.
Hansı şəkildə?
“Əgər bu cəsədi cəsəd yeyən ...,
Cəsəd yeyən quşlar gəmirsə,
Qoy onlar öz bədənlərini
Qomezlə təmizləsinlər.
Su ilə təmizləsinlər-
Belə onlar təmizlənəcəklər.

**37. Əgər bu cəsədi**
Cəsəd yeyən ...,
Cəsəd yeyən quşlar qəmirməyibsə
Qoy möminlər
Yerdə üç çala qazsınlar,
Öz bədənlərini su ilə yox,

Qomezlə təmizləsinlər.
Qoy köpəkləri
Birincidən  uzaqlaşdırsınlar,
Ancaq tam uzaqlaşmasınlar.

**38. Onda qoy möminlər ikinci dəfə**
Yerdə üç çala qazsınlar.
Öz bədənlərini su ilə yox
Qomezlə təmizləsinlər.
Qoy köpəkləri
Birincidən uzaqlaşdırsınlar,
Ancaq tam uzaqlaşdırmasınlar.
Qoy kəllənin üstündəki
Son tük quruyana qədər
gözləsinlər.

**39. Onda qoy möminlər üçüncü dəfə**
Yerdə üç çala qazsınlar.
Öz bədənlərini su ilə yox
Qomezlə təmizləsinlər.

**40. Əvvəl onun əllərini yu.**
Əgər əllər yuyulmasa,
Onun bütün bədəni natəmiz
qalar.
Əgər əllər üç dəfə yuyulsa,
Sən yuyulmuş əllərinlə
Onun kəlləsinin tacına su tök”.[5]

**41. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular iki dəfə
Kəllənin tacına toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju onun qaşlarının
Arasına çökər”.

**42. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Onun qaşlarına toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Onun kəlləsinin arxasına çökər”.

**43. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular onun
Kəlləsinin arxasına toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura  Mazda:
“Cəsəd druju ağzına çökər”.

**44. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular ağzına toxunsa,
Cəsəd druju hara şökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sağ qulağına çökər.”

**45. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular sağ qulağına
toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sol qulaqğına çökər”

**46. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol qulağına toxunsa
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sağ ciyninə cökər”

**47. Cismanlı canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ ciyninə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sol çiyninə çökər"

**48. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol çiyninə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sağ qoltuğuna çökər"

**49. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ qoltuğuna toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sol qoltuğuna çökər"

**50. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol qoltuğuna toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sinəsinə çökər"

**51. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sinəsinə toxunsa,
Cəsəd druju hara çökər?

Dedi Ahura Mazda:
“Cəsəd druju  kürəyinə çəkər”

**52. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Kürəyinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sağ məməsinə çökər”

**53. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ məməsinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sol məməsinə çökər”

**54. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol məməsinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sağ böyrünə çökər”

**55. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ böyrünə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sol böyrünə çökər”

**56. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular

Sol böyrünə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sağındakı
yumru yerə çökər"

**57. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağdakı yumru yerə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju solundakı
yumru yerə çökər"

**58. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Solundakı yumru yerə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju ...
... çökər.
....

**59. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
.....
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sağ ombasına çökər"

**60. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ ombasına toxunsa,
Cəsəd druyu hara çökər?

Dedi Ahura Mazda:
“Cəsəd druju sol ombasına çökər”

**61. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol ombasına toxunsa,
Cəsd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sağ dizinə çökər”

**62. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ dizinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sol dizinə çökər”

**63. Cismani canlıların yaradan-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol dizinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sağ baldırına çökər”

**64. Cismani canlıların yaradani-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ baldırına toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
“Cəsəd druju sol baldırına çökər”

**65. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular

Sol baldırına toxunsa,
Cəsd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sağ ayaq biləyinə çökər"

**66. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ ayaq biləyinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sol ayaq biləyinə çökər"

**67. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol ayaq biləyinə toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sağ ayağına çökər"

**68. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sağ ayağına toxunsa,
Cəsəd druju hara çökər?
Dedi Ahura Mazda:
"Cəsəd druju sol ayağına çökər"

**69. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan yaxşı sular
Sol ayağına toxunsa,
Cəsəd druyu hara çökər?
Dedi Ahura Mazda:
"Milçək qanadı kimi
Dabanının altına sürünər"

**70. Onda qoy**
Barmaqlarını endirsin,
Dabanlarını qaldırsın,
Sağ dabanına su töksün,
Cəsəd druju sol dabanına çökər.
Sol dabanına su töksün,
Cəsəd druju milçək qanadı kimi
Ayaq barmaqlarının
Altına girəcək.

**71. Dabanlarını endirsin,**
Barmaqlarını qaldırsın,
Sağ barmağına su töksün.
Cəsəd druju sol barmağına çökər.
Sol barmağına su töksün.

**72. Cəsəd druju**
Ən iyrənc hrafstrlar kimi
Daim vızıldayan, dizləri bükülmüş,
Arxası qaldırılmış
Milçək şəklində şimala doğru
uçacaq.
Onda bu qalibiyyətli,
Şəfalı sözləri de:

**Layiqli Varlığın Rəbbi kimi...**
Kimi, ey Mazda, mənim kimi
Sən müdafiəçi təyin edəcəksən...
Həqiqətin canlı yaratdıqlarına!

**ODUN TƏMİZLƏNMƏSİ**

**73. Cismani canlıların yaradanı**
Sən Haqq olan.
Əgər möminlər piyada keçərkən,
Qaçıb keçərkən,
At üstə keçərkən,

Arabada keçərkən,
Cəsəd yandıran atəşə rast gəlsələr,
Hansı ki
Onda cəsəd yanır,
Cəsəd qovrulur,
Mazda möminləri
Buna görə nə etməlidir?

**74. Dedi Ahura Mazda:**
“Qoy bu cəsədi yandıranı
öldürsünlər.[6]
Qazanını söksünlər.
Tikilini söksünlər.

**75. Odun mənbəsindən götürün,**
Sonrasında odun yandırın:
Yanan ağacdan,
Bir qucaq bu ağacdan
Od üçün qoyulmuşu,
Ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.

**76. Onda qoy**
Birinci qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq) kənara
qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.

**77. Onda qoy**
İkinci qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.

Onda qoy
Üçüncü qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.
Onda qoy
Dördüncü qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.
Onda qoy
Beşinci qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.
Onda qoy
Altıncı qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.
Onda qoy
Yeddinci qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.
Onda qoy
Səkkizinci qucaq odunu

Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.
Atəşə qoyulmuşu ayırın, çıxarın,
Mümkün qədər tez səpələyin.

**78. Onda qoy**
Doqquzuncu qucaq odunu
Yerdə cəsəd yandıran oddan
Bir qarış(on iki barmaq)
Kənara qoysunlar.

**79. Əgər bir insan,**
Ey Spitama Zərdüşt,
Aşa ilə urvasna odununu,
Vahu-qaona, vahu-kereti,
Hadanaepati və ya
Hər hansı ətirli bitki gətirsə,

**80. Hansı bir tərəfə ki**
Külək odun ətrini aparmayır,
O tərəfə Ahura Mazda odu
Minlərlə qaranlıqdan törəmiş
Cadügərlər və pairikilərlə
Birlikdə yalançı ruhani
Devalar öldürməklə gəlir".

**81. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Cəsədi yandıran odu
Layiqli yerinə,
Atəşgaha kim aparsa,
Bədən və şüurun
Ayrılmsından sonra
Onun mukafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada

On min yanan odu
Layiqli yerinə daşımışdır."

**82. Cismani canlıların yaradanı-**
Sən Haqq olan,
Murdarlığı yandıran odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Min yanan odu
Layiqlı yerinə daşımışdır"

**83. Cismani canlıların yaradanı-**
Sən Haqq Olan.
Peyin yandıran odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Beş yüz yanan odu
Layiqli yerinə daşımışdır"

**84. Cismani canlıların yaradan-**
Sən Haqq olan.
Gil yandıran odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Dörd yüz yanan odu
Layiqli yerinə daşımışdır"

**85. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Şüşə üçün yandırılan odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Nə qədər onunla yanan
Şüşə parçaları çıxarılıbsa,
O qədər odu o,
Layiqli yerinə daşınmışdır".

**86. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Dilənçinin ocağından odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Nə qədər yanan
Ağac başlığı varsa,
O qədər odu daşımışdır"

**87. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Qızıl əridən odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Yüz yanan odu
Layiqli yerinə daşımışdır"

**88. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Gümüş əridən odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Doxsan yanan odu
Layiqli yerinə daşımışdır".

**89. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Mis əridən odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Səksən yanan odu
Layiqli yerinə daşımışdır"

**90. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Dəmir əridən odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sora
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Yetmiş yanan odu
Layiqli yerinə daşımışdır"

**91. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.

Lavaş üçün olan peçdən odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Altmış yanan odu
Layiqli yerinə daşımışdır"

**92. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Qazan altından odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil cismani dünyada
Əlli yanan odu
Layiqli yerinə daşımışdır"

**93. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Düşərgədəki ocaqdan odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
"Elə bil bu cismani dünyada
Qırx yanan odu
Layiqli yerinə daşımışdır".

**94. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Çoban odunu

Layiqli yerinə kim aparsa,
Bədən və  şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
“Elə bil bu cismani dünyada
Otuz yanan odu
Layiqli yerinə daşımışdır”

**95. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Şimşəyin odunu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mukafatı nə olacaq?
Dedi Ahura Mazda:
“Elə bil bu cismani dünyada
İyirmi yanan odu
Layiqli yerinə daşımışdır”

**96. Cismani canlıları yaradan-**
Sən Haqq olan,
Yaxın olan odu
Layiqli yerinə kim aparsa,
Bədən və şüurun
Ayrılmasından sonra
Onun mükafatı nə olacaq?
Dedi Ahura Mazda:
“Elə bil bu cismani dünyada
On yanan odu
Layiqli yerinə daşımışdır”

## TƏSADÜFƏN CƏSƏDİN TAPILMASI

**97. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Uzaq meşəlik ərazidə

Hansı ki cəsədə toxunmuş
İnsanlar təmizlənəcəkmi?

**98. Dedi Ahura Mazda:**
“Təmizlənəcək, ey saleh Zərdüşt”.
Hansı şəkildə?
“Əgər cəsədi ...
Meyit yeyən quşlar gəmirsələr,
Otuz dəfə yumaqla,
Otuz dəfə yuxarıdan tökməklə
Bədənlərini qomezlə təmizləsinlər.

**99. Əgər cəsədi ...**
Meyit yeyən quşlar gəmirməyibsə,
On beş dəfə yumaqla,
On beş dəfə yuxarıdan tökməklə
Bədənlərini qomezlə təmizləsinlər.

**100. Birinci xutoru keçsin,**
Qoy daha uzağa qaçsın.
Hansı ki cismani dünyadan
Kimsə ilə qarşılaşsın.
Sonra bu sözləri uca səslə desin:
“Burada mən mərhumun
Cəsədinə toxundum.
Onu fikrimdə axtarmadım.
Onu sözümdə axtarmadım.
Onu əməlimdə axtarmadım.
Xahiş edirəm məni təmizləyin”
Əgər birinci xutordan keçib
İnsanlara rast gəlsə,
Onlar onu təmizləməsələr,
Bu əməlin üçdə birinə
Şərik olarlar.

**101. İkinci xutoru keçsin**
Qoy daha uzağa qaçsın.
Hansı ki cismani dünyadan
Kimsə ilə qarşılaşsın.
İndi qoy o, bu sözləri
Uca səslə desin:
“Burada mən mərhumun
Cəsədinə toxundum,
Onu fikrimdə axtarmadım.
Onu sözümdə axtarmadım.
Onu əməlimdə axtarmadım.
Xahiş edirəm məni təmizləyin”.
Əgər ikinci xutordan keçib
İnsanlara rast gəlsə,
Onlar onu təmizləməsələr
Bu əməlin yarısına şərik olarlar.

**102. Üçüncü xutoru keçsin**
Qoy daha uzağa qaçsın.
Hansı ki cismani dünyadan
Kimsə ilə qarşılaşsın
Sonra qoy o, bu sözləri
Uca səslə desin:
“Burada mən mərhumun
Cəsədinə toxundum.
Onu fikrimdə axtarmadım.
Onu sözümdə axtarmadım.
Onu əməlimdə axtarmadım.
Xahiş edirəm məni təmizləyin.
Əgər üçüncü xutordan keçib
İnsanlara rast gəlsə,
Onlar onu təmizləməsələr,
Bu əməlin hamısına şərik
olarlar.

**103. Qoy uzağa qaçsın**
Hansı ki yolunda evlə, qəbilə ilə,

Ölkə ilə qarşılaşsın.
Sonra qoy bu sözləri
Uca səslə desin:
“Burada mən mərhumun
Cəsədinə toxundum.
Onu fikrimdə axtarmadım.
Onu sözümdə axtarmadım.
Onu əməlimdə axtarmadım.
Xahiş edirəm məni təmizləyin”.
Əgər onlar onu təmizləməsələr
Sonra qoy o, öz bədənini
Qomezlə təmizləsin,
Su ilə təmizləsin-
Və təmiz olacaqdır.

**104. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu yolda su olsa,
Suyu murdarladığına görə
Cəza tələb etsə,
Onun cəzası nədir?

**105. Dedi Ahura Mazda:**
“Bu bədənlə ödənən
At qamçısı ilə dörd yüz zərbədir,
Dörd yüz-itaətə aparan.

**106. Cismani canlıların yaradanı**
Sən Haqq olan.
Əgər bu yolda ağac olsa,
Onu murdarladığına görə
Cəza tələb etsə,
Onun cəzası nədir?

**107. Dedi Ahura Mazda:**
“Bu bədənlə ödənən
At qamçısı ilə dörd yüz zərbədir,

Dörd yüz-itaətə aparan”.
Ona belə cəza, ona belə ödəmə,
Əgər ödərsə o salehdir
Əgər ödəməsə,
O, Yalan Evində həqiqi qonaq
olacaqdır.

**Yaxşı Həqiqət Ən Yaxşı olandır,**
**Xoşbəxtlik var, Xoşbəxtlək o kəs üçün ki,**
**Ən Yaxşı Həqiqətə görə Həqiqətdir.**

## SƏKKİZİNCİ BÖLMƏYƏ

**1.** Bu bitkilər xoş ətirlidir. Cəsəd saxlanılan, pis qoxu basmış evin havasını dəyişdirmək üçün onlardan istifadə olunur.

**2.** Göründüyü kimi Spitama Zərdüşt Ahura Mazdanı, Müqəddəs Mömin Armaitini deva yalanlarını, deva toxumunu, yalanı yox etməyə çağırır.

**3.** Zərdüşti inancına görə ölülərin üzərinə hər hansı növ paltar buraxmaq olmazdı. Buna görə cəza təyin olunurdu.

**4.** Göründüyü kimi Ahura Mazda öz iradəsi ilə sadomaya tabe olana heç bir şans vermir, belə insanları bağışlamır.

**5.** Bundan aşağıdakı mətndə cəsədin yuyulub təmizlənməsi qaydaları verilmişdir.

**6.** Nadir olan faktlardan biridir ki, Ahura Mazda cəsəd yandıranı öldürün, – deyir. Çünki “Avesta”da cəza növlərinin doxsan doqquz faizində ölüm hökmü yoxdur.

# Frahard – Bölmə 9

## BARŞNUM DOQQUZ GECƏNİN (TƏMİZLƏNMƏSİ)

**1 . Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
“Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Müqəddəs Ruh,
Bu cismani dünyada
İnsanlar murdarlanmış bədənlərini
Təmizləmək istəsələr
Kimə müraciət etməlidirlər?”

**2. Dedi Ahura Mazda:**
“Ey Spitama Zərdüşt,
Saleh ərə, hansı ki doğru danışan,
Mantranı öyrənən, mömin olan,
Mazdayasnaya görə
Təmizləməyi çox bilən.
Qoy o, yer üzündə
Doqquz qulac uzunluğunda
Yerdə bitki əksin”.
Hansı ərazidə?

**3. “Hansı ki bu yer üzündə**
Ən susuz yer olacaq.
Ən otsuz, ən təmiz torpağı ilə.
Ən quraq torpağı ilə.
Qoy xırda heyvanlar,
İri heyvanlar,
Ahura Mazda odu, baresman,
Aşada toplaşanlar,
Mömin ər bu yoldan ən az keçsin.

**4. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Oddan nə qədər uzaq,
Sudan nə qədər uzaq,
Yığılan baresmandan
Nə qədər uzaq.
Mömin ərdən nə qədər
Uzaq olsun?

**5. Dedi Ahura Mazda:**
“Oddan otuz addım,
Sudan otuz addım,
Baresmandan otuz addım,
Mömin ərdən üç addım
Uzaq olsun”.

**6. Birinci çuxuru**
Yay başlayandan sonra
İki barmaq dərinliyində
Buzlu qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz.

**7. İkinci çuxuru**
Yay başlayandan sonra
İki barmaq dərinliyində
Buzlu qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz.

Üçüncü çuxuru
Yay başlayandan sonra
İki barmaq dərinliyində
Buzlu qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz.

Dördüncü çuxuru
Yay başlayandan sonra
İki barmaq dərinliyində

Buzlu qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz.

Beşinci çuxuru
Yay başlayandan sonra
İki barmaq dərinliyində
Buzlu qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz.

Altıncı çuxuru
Yay başlayandan sonra
İki barmaq dərinliyində
Buzlu qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz".

**8. -Biri digərindən**
-Nə qədər uzaq olmalıdır?
-Neçə addım?
-Üç ayaq.

**9. İkinci üç başqa çuxuru**
Yay başlayandan sonra
İki barmaq dərinliyində
Qış başlayandan sonra
Dörd barmaq dərinliyində qaz.
-Birincidən nə qədər uzaq?
-Üç addım.
-Necə üç addım?
-Hansı ki addımlarkən ölçülən.
-Doqquz ayaq.

**10. İstənilən Gücünlə**
(metalla)
İti şırım xətt çək.
-Çuxurlardan nə qədər uzaq
olsun?
-Üç addım.

-Necə üç addım?
-Hansı ki addımlarkən ölçülən.
-Doqquz ayaq.

**11. Sonra on iki şırım çəkin:**
Üçünü üç cuxur dairəsində,
Üçünü altı çuxur dairəsində
çəkin.
Üçünü doqquz cuxur dairəsində
çəkin.
Doqquz ayaq məsafəsinə
Üç daş və ya üç kirəmid,
Üç kötük və ya torpaq parçaları,
Möhkəm materialda gətirin.

**12. Sonra qoy murdalanmış**
Cuxurlara yaxın gəlsin.
Sən Zərdüşt,
Şırımdan kənarda dur.
Bu sözləri söylə:
İbadət, hansı ki
Təqva və süd paylama
Ayini iləd̈ir (Yasna 49:10)
Qoy buna cavab olaraq
Murdarlanmış desin:
İbadət, təqva və
Süd paylama ayini ilədir.

**13. Yalan ona yönəldilmiş**
Hər sözdən zəifləyəcək.
Hansı ki
Şər ruhu öldürəcək,
Qanlı nizə ilə.
Aeşmanı öldürəcək,
Mazan devalarını öldürəcək,
Bütün devaları öldürəcək.

**14. Sonra qomez üçün**
Mis və ya qurğuşun
 çömçə götür.
Əgər qurğuşun olsa,
Qomezi tökmök üçün, ey Zərdüşt,
Doqquz düyünlü çubuğun
Ucuna bir qurğuşun çömçəsi bağla.

**15. Əvvəl onun,**
Cəsədin əllərini yu.
Çünki əlləri yuyulmazsa
Bütün bədəni murdar olar.
Ama əlləri üç dəfə yuyulsa
Əvvəl sən
Yuyulmş əllərinlə
Onun kəlləsinin tacına qomez tök,
Və o cəsəd druju
Onun qaşlarının arasına çökər.

**16. Qabaq tərəfdən onun qaşlarına**
 **qomez tök,**
Cəsəd druju kəlləsinin arxasina
 çökər.
Kəlləsinə tök,
Cəsəd druju onun ağzına çökər.
Onun ağzına qomez tök,
Cəsəd druju onun
Sağ qulağına çökər.

**17. Onun sağ qulağına tök,**
Cəsəd druju onun
Sol qulağına çökər.
Onun sol qulağına tök,
Cəsəd druju onun
Onun sağ çiynina çökər.
Onun sağ çiyninə tök.
Cəsəd druju onun
Sol çiyninə çökər.

Onun sol çiynınə tök,
Cəsəd druju onun
Sağ qoltuğuna çökər.

**18. Onun sağ qoltuğuna tök,**
Cəsəd druju onun
Sol qoltuğuna çökər.
Onun sol qoltuğuna tök,
Cəsəd druju onun
Sinəsinə çökər.
Onun sinəsinə tök,
Cəsəd druju onun
Kürəyinə çökər.

**19. Onun kürəyinə tök,**
Cəsəd druju onun
Sağ məməsinə çökər.
Onun sağ məməsinə tök,
Cəsəd druju onun
Sol məməsinə çökər.
Onun sol məməsinə tök,
Cəsəd druju onun
Sağ yanına çökər.

**20. Onun sağ yanına tök,**
Cəsəd druju onun
Sol yanına çökər.
Onun sol yanına tök,
Cəsəd druju onun
Sağ ombasına çökər.
Onun sağ ombasına tök,
Cəsəd druju onun
Sol ombasına çökər.

**21. Onun sol ombasına tök,**
Cəsəd druju onun
... ...
... ...

Əgər o, kişi olsa, əvvəl arxasına,
Sonra önünə tök,
Əgər qadın olsa, əvvəl önünə,
Sonra arxasına tök,
Cəsəd druju sağ buduna çökər.

**22. Onun sağ buduna tök,**
Cəsəd druju onun
Sol buduna çökər.
Onun sol buduna tök,
Cəsəd druju onun
Sağ dizinə çökər.
Onun sağ dizinə tök,
Cəsəd druji onun
Sol dizinə çökər.

**23. Onun sol dizinə tök,**
Cəsəd druju onun
Sağ baldırına çökər.
Onun sağ baldırına  tök,
Cəsəd druju onun
Sol baldırına çökər.
Onun sol baldırına tök,
Cəsəd druju onun
Sağ ayaq biləyinə çökər.
Onun sağ ayaq biləyinə tök
Cəsəd druju onun
Sol ayaq biləyinə çökər.

**24. Onun sol ayaq bilətinə tök,**
Cəsəd druju onun
Sağ ayağına çökər,
Onun sağ ayağına tök,
Cəsəd druju onun
Sol ayaqına çökər.
Onun sol ayağına tök,
Cəsəd druju

Milçək qanadı kimi
Onun sağ dabanının altına
girəcək.

**25. Sonra qoy**
Barmaqlarını endirsin.
Sağ dabanına qomez tök,
Cəsəd druju onun
Sol dabanının altına çökər.
Onun sol dabanına tök,
Cəsəd yalanı
Milçək qanadı kimi
Ayaq barmaqlarının
Altına girəcək.

**26. Sonra qoy**
Dabanını aşağı endirsin.
Barmaqlarını qaldırsın.
Sağ  barmağına tök,
Cəsəd druju
Ən iyrənc hravstra kimi
Daim vızıldayan,
Bükülmüş dizləri,
Qaldırılmış arxası ilə
Milçək şəklində
Şimala doğru uçacaq.

**27. Sonra bu qalibiyyətli,**
Şəfalı sözləri deyin:
**Varlığın layiqli Rəbbi kimi...**
Kimi ,ey Mazda, mənim kimi,
Sən müdafiəçi  təyin edəcəksən...
Həqiqətən canlı yaratdıqlqarına!

**28. Birinci  çuxurda ər**
Cəsəd murdarlığından azad olur.
Onda bu qalibiyyətli,

Şəfalı sözləri deyin:
**Varlığın layiqli Rəbbi kimi...**
Kimi, ey Mazda, mənim kimi,
Sən müdafiəçi təyin edəcəksən...
Həqiqətin  canli yaratdıqlarına!

İkinci çuxurda ər
Cəsəd murdarlığından azad olur.
Sonra deyin...
Üçüncü çuxurda ər
Cəsəd murdarlığından azad olur.
Sonra deyin...
Dördüncü çuxurda ər
Cəsəd murdarlığından azad olur.
Sonra deyin...
Beşinci çuxurda ər
Cəsəd murdarlığından azad olur.
Sonra deyin...
Altıncı çuxurda ər
Cəsəd murdarlığından azad olur.
Sonra deyin...

**29. Sonra qoy murdarlanmış**
Dörd barmaq məsafədə,
Digər çuxurlardan aralı,
Çuxurun kənarında otursun.
Qoy orada bir ovuc topağın
Tökülməsinə məruz qalsın.

**30. Qoy on beş dəfə onu**
Bütünlüklə torpaqla örtsünlər.
Başındakı son tük
Quruyana qədər gözləsinlər.

**31. Haçan ki**
Bədəninin tozu qurusa
Qoy murdar olan insan

Başqa çuxurlara getsin.
Birinci çuxurda qoy
O, bədənini bir dəfə
Su ilə təmizləsin.
İkinci çuxurda qoy
O, bədənini iki dəfə
Su ilə təmizləsin.
Üçüncü çuxurda qoy
O,bədənini üç dəfə
Su ilə təmizləsin.

**32. Sonra qoy urvasna,**
Vohu-qaona, vohu-kereti,
Hadanaepati və ya
Hər hansı bir xeyirli bitkinin
Ətri ilə ətirlənsin.
Sonra qoy paltar geysin.
Sonra qoy murdarlanmış ər
evə getsin.

**33. Qoy o, evin hissəsində,**
Sakit yerdə möminlərdən
Ayrı otursun.
O, özbaşına oda, suya,
Torpağa, inəyə, bitkiyə,
Mömin kişiyə, mömin qadına
Üç gecə keçməyincə
yaxınlaşmasın.
Üç gecədən sonra
Qoy öz bədənini,
Paltarını təmizləmək üçün
Qomez və ya su ilə yusun.

**34. Qoy o,**
Evin hüdudları daxilində
Digər dindarlardan ayrı,
Sakit bir yerdə otursun.

O, altı gecə keçməyincə
Özbaşına oda, suya,
Torpağa, inəyə, bitkiyə,
Mömin kişiyə, mömin qadına
Altı gecə keçməyincə
yaxınlaşmasın.
Altı gecədən sonra
Qoy bədənini
Paltarını təmizləmək üçün
Qomez və ya su ilə yusun.

**35. Qoy o,**
Evin hüdudları daxilində
Digər dindarlardan ayrı
Sakit bir yerdə otursun.
Doqquz gecə keçməyincə
Özbaşına oda, suya,
Torpağa, inəyə, bitkiyə,
Mömin kişiyə, mömin qadına
Doqquz gecə keçməyincə
yaxınlaşmsın.
Doqquz gecədən sonra
Qoy bədənini, paltarını
Təmizləmək üçün
Qomez və ya su ilə yusun.

**36. Bundan sonra qoy**
Oda, suya, torpağa,inəyə, bitkiyə
Mömin kişiyə, mömin qadına
Sərbəst şəkildə yaxınlaşsın.

**37. Atravanı etdiyi xeyir-dua**
Müqabilində təmizləyin.
Ölkənin hökmdarını
Qiymətli bir dəvə
Müqabilində təmizləyin.
Qəbilə başçısını

Qiymətli bir ayğır
Müqabilində təmizləyin.
Kənd hakimini
Qiymətli bir öküz
Müqabilində təmizləyin.
Evin başçısını
Qiymətli bir inək
Müqabilində təmizləyin.

**38. Ev sahibinin arvadını**
Bir şoxum vuran öküz
Müqabilində təmizləyin.
Qulluqçuları, xidmətçiləri
Qaralama öküz
Müqabilində təmizləyin.
Kiçik uşağı cavan quzu
Müqabilində təmizləyin.

**39. Möminlər bacarsalar**
Qoy xırda heyvanları,
İri heyvanları
Bu ərə gətirsinlər.
Əgər bacarmasalar,
Xırda heyvanları,
İri heyvanları
Gətirə bilməsələr,
Qoy bu ərə
Başqa bir şey gətirsinlər.
Qoy bu ər , hansı ki
Təmizləmə aparır,
Onların evlərindən
Qəzəbli halda deyil,
Razı halda getsin.

**40. Əgər bu ər, hansı ki**
Təmizlənmə aparır,
Onların evlərini,

Qəzəbli, narazı halda
Tərk edərsə, bu cəsəd druju
Yenidən onları,
Ey Spitama Zərdüşt,
Burundan, gözdən,
Dildən, ağızdan,
... ...
Arxadan murdarlayacaqdır.

**41. Cəsəd druju onların**
Dirnaqlqarına çökəcək.
Sonra onlar əbədi olaraq
Təmizlənməmiş qalacaqlar.
Kim ki murdarlanmışdır.
Ona öz iradəsinə zidd olaraq
Günəş işıq saçır.
Öz iradəsinə zidd olaraq
Ay işıq saçır.

**42. Axı, ey Spitama Zərdüşt,**
O ər razı salır, hansı ki
Təmizliyi edir.
Murdarlanmışı cəsəd murdarlığından
Azad edir.
Odu razı salır, suyu razı salır,
Torpağı razı salır.
İnəyi razı salır, bitkini razı salır.
Mömin əri razı salır.
Mömin qadını razı salır.

**43. Soruşdu Zərdüşt:**
"Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Bu ərin hansı mükaqfatı olacaq?
Şüurun, bədənin
Ayrılmasından sonra,
Hansı ki bu murdarlıq
Cəsəd murdarlığındandır."

**44. Dedi Ahura Mazda:**
“Bəli, ona belə bir mükafat
Növbəti dünyada-
Ən Yaxşı Dünyanın qalasında
görünəcək.

**45. Soruşdu Zərdüşt:**
“Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Mən bu drujun
Qarşısını necə alım,
Hansı ki ölüdən diriyə çökür.
Mən bu cəsəd murdarlığının
Qarşısını necə alım.
Hansı ki ölüdən
Dirini murdarlayır.

**46. Dedi Ahura Mazda:**
“Qatlardan bu sözləri söylə,
Hansı ki iki dəfə oxunur (Bişamruta).
Qatalardan bu sözləri söylə,
Hansı ki üç dəfə oxunur (Trişamruta).
Qatlardan bu sözləri söylə,
Hansı ki dörd dəfə oxunur (Çatruşamruta).
Və cəsəd murdarlığı,
Hansı ki atılmış ox kimi,
Keçənilki gecə kimi,
Köhnə örtük kimi
İtib gedəcək.

**47. Cismani canlıların yaradanı-**
**Sən Haqq olan.**
Əgər Mazdayasna İnancına görə
Cahil təmizlik üçün suyu tökərsə,
Bu drujun qarşısı necə alınsın,
Hansı ki ölüdən diriyə çökür?
Bu cəsəd murdarlığının

Qarşısı necə alınsın,
Hansı ki ölüdən dirini murdarlayır?

**48. Dedi Ahura Mazda:**
"Cəsəd druju,
Ey Spitama Zərdüşt,
Əvvəlkidən daha çox güclənir.
O, əvvəlki kimi xəstəlik,
Ölüm, bədbəxtlik gətirir"

**49. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Qoy möminlər onu
Qandalla bağlasınlar.
Əvvəl əllərini bağlasınlar.
Paltarlarını götürsünlər.
Qoy çiyinlərindən
Başını götürsünlər.
Müqəddəs Ruhun yaratdığı
Ən qarınqulu quşlara,
Qarğalara, hiflərə
Qoy onun cəsədini atsınlar.
Və desinlər:
Bununla ona axmaq fikirləri.
Axmaq sözləri,
Axmaq əməlləri bağışlanır".

**50. Əgər o,**
Başqa pis əməllər törədibsə,
Onlar ona
Bu cəzalarla ödənilir.
Ancaq o, başqa
Pis əməllər törətməyibsə
Onda bu ər əbədi olaraq
Bağışlanmışdır.

**51. Kim , ey Ahura Mazda,**
Firavanlığı almağa cəhd edir,
Böyüməni götürmək,
Xəstəlik gətirmək,
Ölüm qətirmək istəyir?

**52. Dedi Ahura Mazda:**
“Bu , mömin Zərdüşt,
Haqsız aşemaoqadır,
Hansı ki
Bu cismani dünyada
Qomez tökür.
Mazda İnancına görə
Təmizləməyi bacarmayandır.

**53. Ey Spitama Zərdüşt,**
Sonra bu yeri, ərazini,
Südün, yağın sərbəst buraxılması,
Yetkinlik, şəfa, firəvanlıq,
Böyümə, artma, çörək,
Otlaqların böyüməsi
tərk edəcəkdir”.

**54. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Bu yerə, bu əraziyə südün, yağın
Sərbəst buraxılmasını,
Yetkinliyi, şəfanı,
Firaəvanlığı, böyüməni,çörəyi,
Otlaqarın böyüməsini
Necə qaytarmaq olar?

**55. Dedi Ahura Mazda:**
“O vaxta qədər,
Ey Spitama Zərdüşt,
Bu yerə, bu əraziyə südün, yağın

Sərbəst buraxılması,
Yetkinlik, şəfa, firəvanlıq,
Böyümə, artma, çörək,
Otlaqların böyüməsi
 qayıtmayacaq.

**56. O vaxta qədər**
Ədalətsiz aşemaoqa
Bir zərbə ilə öldürülməyincə,
Bacarıqlı ruhlar ilə su samurları
İbadət edənə qədər,
Üç gün ərzində,
Üç gecə ərzində
Od yandırılmayacaq.
Baresman uzadılmayacaq.
Haoma hazırlanmayacaq.

**57. Bundan sonra bu yerə,**
Bu əraziyə
Südün sərbəst buraxılması,
Yağın sərbəst buraxılması,
Yetkinlik, şəfa, firəvanlıq,
Böyümə, artma, çörək,
Otlaqların böyüməsi qayıdacaq.

# Frahard-Bölmə 10

# QATLARIN SÖZLƏRİ İLƏ TƏMİZLƏNMƏ

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
Ahura Mazda, Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Mən bu drujun qarşısını necə alım,
Hansı ki ölüdən diriyə sıçrayır?
Mən bu cəsəd murdarlığının
Qarşısını necə alım,
Hansı ki ölüdən diriyə sıçrayır

**2. Dedi Ahura Mazda:**
“Qatlardan bu sözləri deyin,
Hansı ki iki dəfə oxunur(Bişamruta).
Qatlardan bu sözləri deyin,
Hansı ki üç dəfə oxunur (Trişamruta).
Qatlardan bu sözləri deyin,
Hansı ki dörd dəfə oxunur (Çatruşamruta).
Qatlardan bu sözləri deyin,
Hansı ki iki dəfə,
Üç dəfə, dörd dəfə oxunur”.

**3. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Qatlarda hansı sözlər
İki dəfə oxunur (Bişamruta adlanır)?
Dedi Ahura Mazda:
“Belə sözlər Qatlarda
İki dəfə oxunur.
Onları iki dəfə oxu:

**4. Ahya-yasa...( Yasna 28:10**
Humatanam... (Yasna 35:2)

Aşhiya-aat-saire...(Yasna 35:8)
Yata-tu-i...(Yasna 39:4)
Humaim-tva-ijim (Yasna 41:3)
Tvoi-staotarasça...(Yasna 41:5)
Uşta-axmai...(Yasna 43:1)
Spenta-mainyu...(Yasna 47:1)
Vohu-hşatrem...(Yasna 51:1)
Vahişta-iştiş...(Yasna 53:1)

**5. Bişamrutanın sözlərindən sonra,**
Bu qalibiyyətli, şəfa verən
Sözləri söyləyin:
"Mən şər ruhu
Evdən, kənddən, qəbilədən,
Ölkədən, öz bədənimdən,
Ölü kişidən, ölü qadından,
Evin sahibindən,
Kəndin ağasından,
Qəbilənin başçısından,
Ölkənin hökmdarından,
Hər mömin varlıqdan
uzaqlaşdırırdım.

**6. Mən cəsəd murdarlığını,**
Birbaşa murdarlığı,
Dolayı murdarlığı
Evdən, kənddən, qəbilədən,
Ölkədən, öz bədənimdən,
Ölü kişidən, ölü qadından,
Evin sahibindən,
Kəndin ağasından,
Qəbilənin başçısından,
Ölkənin hökmdarından,
Hər mömin varlıqdan
uzaqlaşdırıram".

**7. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Qatlarda hansı sözlər üç dəfə
oxunur.
(Hansı ki Trişamruta adlanır)
Dedi Ahura Mazda:
“Belə sözlər Qatlarda üç dəfə
oxunur.
Onları üç dəfə oxu:

**8. Aşem-vohu...**
Ye-sevişto...(Yasna 31:11)
Huhşatrotemai...(Yasna 35:5)
Dujbarenaiş...(Yasna53:9)

**9. Trişamrutanın sözlərindən sonra**
Bu qalibiyyətli,
Şəfalı sözləri söyləyin:
Mən İndranı uzaqlaşdırıram,
Mən Sauranı uzaqlaşdırıram,
Mən Nanhaiti-devanı
Evdən, kənddən, qəbilədən,
Ölkədən uzaqlaşdırıram.

**10. Mən Tauranı uzaqlaşdırıram,**
Mən Zairini evdən, kənddən,
Qəbilədən, ölkədən uzaqlaşdırıram”.

**11. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Qatlarda hansı sözlər
Dörd dəfə oxunur
(Hansı ki Çatruşamruta adlanır)?
Dedi AhuraMazda:
“Belə sözlər Qatlarda
Dörd dəfə oxunur.
Onları dörd dəfə oxu:

**12. Yata-ahu-varno...(Ahuna Vairya)**
Mazda-at-moi...(Yasna 34:15)
A-irrema-işo...(Yasna 541)

**13. Çatruşamrutanı oxuyandan sonra**
Bu qalibiyyətli,
Şəfalı sözləri söyləyin:
2Mən Aeşmanı, qanlı nizəni
uzaqlaşdırıram,
Mən Akataşu-devanı
Evdən, kənddən, qəbilədən,
Ölkədən uzaqlaşdırıram.

**14. Mən Varna devalarını**
uzaqlaşdırıram,
Mən vihr-devanı evdən, kənddən,
Qəbilədən, ölkədən uzaqlaşdırıram.

**15. Bu sözlər Qatlardandır,**
İki dəfə oxunur.
Bu sözlər Qatlardandır,
Üç dəfə oxunur.
Bu sözlər Qatlardandır,
Dörd dəfə oxunur.

**16. Bu sözlər-**
Şər ruha qarşı silahdır.
Bu sözlər-
Qanlı nizə olan Aeşmaya qarşı
silahdır.
Bu sözlər-
Mazan devalarına qarşı silahdır.
Bu sözlər-
Bütün devalara qarşı silahdır.

**17. Bu sözlər-**
Druja qarşı silahdır,

O, cəsəd murdarlığına qarşı
Silahdır,
Hansı ki ölüdən diriyə sıçrayır.
Bu sözlər -
O druja qarşı silahdır,
O cəsəd murdarlığına qarşı
silahdır,
Hansı ki
Ölüdən diri murdarlanır.

**18. Sən, ey Zərdüşt,**
Doqquz çuxur düzəlt,
Harada ki nəmlik, bitki azdır,
Harada ki heyvanlara yem azdır,
Harada ki insanlara yem azdır,
Doğuşdan sonra sən insanları
təmizləyərsən-
Bu ən yaxşı yaxşıdır(Yasna 48:6),
Bu təmizləmə, ey Zərdüşt,
Var olan
Mazdayasna İnancıdır (,o kəsə)
Kim ki öz nəfsini
Xeyirxah fikirlə, xeyirxah sözlə,
Xeyirxah əməllə təmizləyir.

**19. Saleh imanı təmizləyin!**
Çünki bu canlı dünyada hər kəs
Özünü pak inancı ilə təmizləməlidir,
Kim ki öz nəfsini
Xeyirxah fikirlə, xeyirxah sözlə,
Xeyirxah əməllə təmizləməlidir.

**20Varlığın layiqli Rəbbi kimi...**
Kimi, ey Mazda , mənim kimi ,
Sən müdafəçi təyin edəcəksən...
Həqiqətin canlı yaratdıqlarına!

# Frahard-Bölmə 11

## DÜNYANIN MÜXTƏLİF ŞEYLƏRİNİN TƏMİZLƏNMƏSİ ZAMANI OXUNAN DUALAR

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
“Ahura Mazda, ey Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Mən evi necə təmizləyim,
Odu necə, suyu necə, torpağı necə,
İnəyi necə, bitkiləri necə,
Mömin əri necə, mömin qadını necə,
Ulduzları necə, ayı necə,
Günəşi necə, sonsuz parlaqlığı necə,
Aşanın toxumundan gələn
Mazdanın yaratdığı
Bütün yaxşı şeyləri
Necə təmizləyim”?

**2. Dedi Ahura Mazda:**
“Təmizləyici sözləri söylə, ey Zərdüşt,
Bundan sonra evlər təmiz olacaq,
Od təmiz olacaq, su təmiz olacaq,
Torpaq təmiz olacaq,
Bitkilər təmiz olacaq,
Mömin ər təmiz olacaq,
Mömin qadın təmiz olacaq,
Ulduzlar təmiz olacaq,
Ay təmiz olacaq,
Günəş təmiz olacaq,
Sonsuz parlaqlıq təmiz olacaq,
Aşanın toxumlarından gələn
Mazdanın yaratdığı
Bütün yaxşı şeylər təmiz olacaq.

**3. Sonra bu sözləri deyin,**
Hansı ki ən qalibiyyətli,
Ən şəfa verəndir:
Ahuna Vairyanı beş dəfə oxuyun.
**Necə Varlığın layiqli Rəbbi kimi...**
Sonra Ahuna Vairya bədəni
qoruyacaq.

**Necə Varlığın layiqli Rəbbi kimi,**
Rat da Aşa ilə razılıqdadır,
(Rat) xeyirxah fikrə təslimdir.
Əməllər Mazdadadır.
Ancaq hakimiyyət- Ahuradır,
Kim yoxsullar üzərində
Çoban qoyulacaq.

Kimi, ey Mazda, mənim kimi,
Sən müdafiəçi təyin edəcəksən,
Haçan yalançı mənə
Pislik etmək niyyətində olanda.
Sənin Odundan ,
Sənin fikrindən başqa
Aşa kimin əməlləri ilə
qidalanıb, ey Ahura.
Bu bacarığı mənim
İnancımın xatirinə bəyan et.

Varlıqların təlimini
Qorumaq üçün
Maneələri kim qıracaq,
Ey Varlığın Şəfaçısı,
Mənə Rat verəcəyini açıq söz ver.
Ona Xeyirxah Fikirlə
Sraoşa-Qulaq asan gələcək,
Ey Mazda, o kəsə və hər kəsə,
Kimi ki sən dilərsən.

Bizi düşməndən qoruyun,
(Ey) Mazda və Armaiti-
Müqəddəs Möminlik.
Yox ol deva yalanı!
Yox ol deva toxumu!
Yox ol devanın yaratdığı!
Yox ol devanın törətdiyi!
Yalan, yox ol!
Yalan, yox ol, rədd ol!
Yalan, get rədd ol!
Uzaq şimalda yox ol!
Sən Aşanın canlı yaratdıqlarını
Məhv edə bilməzsən!

**4. Bu evi təmizləyirəm,**
Bu sözləri deyirəm:
Ən böyük toxucu
Daim mənə qarşı çıxır (Yasna 49:1)
(Şər ruhun hücumu davam etdikcə
Məni böyük müdafiə əhatə edəcək)

Bu odu mən təmizləyirəm,
Bu sözləri mən deyirəm:
Bu Od icması ilə
Əvvəlcə sənə yaxınlaşırıq,
Ey Mazda Ahura (Yasna 36:1)

**5. Bu suyu mən təmizləyirəm,**
Bu sözləri mən deyirəm:
Və biz sulara ehtiram göstəririk:
Parıldayan, həyat verən, axan. (Yasna 38:3)

**6. Bu inəyi mən təmizləyirəm,**
Bu sözləri mən deyirəm:
Hədiyyələri verərkən
Ən yaxşı əməllərlə
Biz həvəsləndiririk (Yasna 35:4)

Bu bitkini mən təmizləyirəm,
Bu sözləri mən deyirəm:
Onun üçün Aşa ilə birlikdə
Mazda bitkilərini yetişdirdim (Yasna 48:6)

**7. Bu  saleh kişini mən təmizləyirəm,**
Bu saleh qadını mən təmizləyirəm,
Bu sözləri mən deyirəm:
Bəli Airyaman tezliklə
Zərdüştün kişilərinə,
Zərdüştün qadınlarına,
Xeyirxah Fikrə
Tərəfdar olmağa gələcək,
Onun sayəsində Din
Layiqli mükafatını qazanacaq.
Mən Aşanın mükafatına görə
Dua edirəm,
Hansı ki Ahura Mazda
Göndərməyə layiq gördü.(Yasna 54:1)

**8. Sonra bu sözləri deyin:**
Hansı ki ən qalibiyyətli,
Ən şəfa verən olacaq:
Ahuna Vairyanı səkkiz dəfə oxuyun.
**Necə Varlığın layiqli Rəbbi kimi..**
Sonra Ahuna Vairya
Bədəni qoruyacaq.
Kimi, ey Mazda , mənim kimi,
Sən müdafiəçi təyin edəcəksən...
Aşanın canlı yaratdıqlarına!

**9. Mən qəzəbin qarşısını alıram.**
Mən cəsəd murdarlığının
Qarşısını alıram.
Mən birbaşa murdarlığın
Qarşısını alıram.

Mən dolayı murdarlığın
Qarşısını alıram.
Mən qanlı yaranın
Qarşısını alıram.
Mən vurulmuş qanlı yaranın
Qarşısını alıram.
Mən coşqunluğun
Qarşısını alıram.
Mən coşqunluq yaradanın
Qarşısını alıram.
Mən sehrbazlığın
Qarşısını alıram.
Mən sehrbazlıq yaradanın
Qarşısını alıram.
Mən yorucu tənbəlliyin
Qarşısını alıram.
Mən uzunayaqlı tənbəlliyin
Qarşısını alıram.
Mən muidinin
Qarşısını alıram.
Mən kapastinin
Qarşısını alıram.
Mən pairikinin
Qarşısını alıram.
Hansı ki oda, suya, torpağa,
Bitkiyə hücum edirlər.
Mən infeksiyanın
Qarşısını alıram.
Hansı ki oda, suya, torpağa,
Bitkiyə hücum edirlər.

**10. Mən sənin qarşını alıram,**
Pis əməlli şər ruh,
Evdən, oddan, sudan,
Torpaqdan, inəkdən, bitkidən,
Mömin kişidən, mömin qadından,
Ulduzlardan, aydan, günəşdən,

Sonsuz parlaqlıqdan,
Aşanın toxumundan
Mazdanın yaratdığı
Bütün yaxşı şeylərdən.

**11. Sonra bu sözləri deyin,**
Hansı ki ən qalibiliyyətli,
Ən şəfa verən olar:
Ahuna Vairyanı
Dörd dəfə oxuyun.
**Necə Varlığın layiqli Rəbbi kimi...**
Sonra Ahuna Vairya
Bədəni qoruyacaq

Kimi, ey Mazda, mənim kimi,
Sən müdafiəçi təyin edəcəksən...
Həqiqətin canlı yaratdıqlarına!

**12. Qəzəbin qarşısı alındı.**
Cəsəd murdarlığının
Qarşısı alındı.
Birbaşa murdarlığın
Qarşısı alındı.
Dolayı murdarlığın
Qarşısı alındı.
Qanlı murdarlığın
Qarşısı alındı.
Vurulan qanlı yaranın
Qarşısı alındı.
Coşqunluğun qarşısı alindı.
Coşqunluq yaradanın
Qarşısı alındı.
Sehrbazlığın qarsısı alındı.
Sehrbazlıq yaradanın
Qarşısı alındı.
Yorucu tənbəlliyin
Qarşısı alındı.

Uzunayaqlı tənbəlliyin
Qarşısı alındı.
Muidinin qarşısı alındı.
Kapastinin qarşısı alındı.
Pairikinin qarşısı alındı.
Hansı ki oda, suya, torpağa,
İnəyə, bitkiyə hücum edirlər.
İnfeksiyanın qarşısı alındı.
Hansı ki oda, suya,torpağa,
İnəyə, bitkiyə hücum edir.

**13. Sənin qarşın alınıb,**
Pis əməlli şər ruh.
Sən uzaqsan,
Evdən, oddan, sudan,
Torpaqdan, inəkdən, bitkidən
Mömin kişidən, mömin qadından,
Ulduzlardan, aydan, günəşdən,
Sonsuz parlaqlıqdan,
Mazdanın yaratdığı
Aşanın toxumundan olan
Bütün yaxşı şeylərdən.

**14. Sonra bu sözləri deyin,**
Hansı ki ən qalibiyyətli,
Ən şəfa verəndir:
Mazda-at-moini
Dörd dəfə oxuyun.
Ey Mazda,
Mənə ən yaxşı sözü.
Əməli deyin.
Bu Xeyirxah Fikirlə
Aşaya tərif tələb edin.
Sənin Hakimiyyətinlə,
Ey Ahura, sən
(öz) iradənə uyğun olaraq
Dəyişdirilmiş dünya
Yaradacaqsan.(Yasna 34:5)

**15-16. Mən qəzəbin**
Qarşısını alıram.
Mən cəsəd murdarlığının
Qarşısını alıram.
Mən birbaşa murdarlığın
Qarşısını alıram.
Mən dolayı murdarlığın
Qarşısını alıram.
Mən qanlı yaranın
Qarşısını alıram.
Mən vurulmuş qanlı yaranın
Qarşısını alıram.
Mən coşqunluğun
Qarşısını alıram.
Mən coşqunluq yaradanın
Qarşısını alıram.
Mən sehrbazlığın
Qarşısını alıram.
Mən sehrbazlıq yaradanın
Qarşısını alıram.
Mən yorucu tənbəlliyin
Qarşısını alıram.
Mən uzunayaqlı tənbəlliyin
Qarşısını alıram.
Mən muidinin
Qarşısını alıram.
Mən kapastinin
Qarşısını alıram.
Mən pairikinin
Qarşısını alıram.
Hansı ki oda, suya, torpağa,
İnəyə, bitkiyə hücum edir.
Mən infeksiyanın
Qarşısını alıram.
Hansı ki oda, suya, torpağa,
İnəyə, bitkiyə hücum edir.

Mən sənin qarşını alıram,
Pis əməlli şər ruh,
Evdən, oddan, sudan,
Torpaqdan, inəkdən, bitkidən,
Mömin kişidən, mömin qadından,
Ulduzlardan, aydan, günəşdən,
Sonsuz parlaqlıqdan,
Aşanın toxumundan
Mazdanın yaratdığı
Bütün yaxşı şeylərdən.

**17. Sonra bu sözləri deyin,**
Hansı ki ən qalibiliyyətli,
Ən şəfa verən olar:
Ahuna Vairyanı
Üç dəfə oxuyun.
**Necə Varlığın layiqli Rəbbi kimi...**
Sonra Ahuna Vairya
Bədəni qoruyacaq.
Kimi, ey Mazda, mənim kimi,
Sən  müdafiəçi təyin edəcəksən...
Həqiqətin canlı yaratdıqlarına!

# Frahard-Bölmə 12

## YAS

**1. Əgər ata ölsə, əgər ana ölsə,**
Oğul ataya görə,
Qız anaya görə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
“Otuz gün mömin üçün,
Altmış gün günahkar üçün”.

**2. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
“Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin.
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,
Bitkilər gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri girə biləcəklər,
Ey Spitama Zərdüşt”.

**3-4. Əgər oğul olsa,**
Əgər qız olsa,
Ata oğula görə,
Ana qıza görə,

Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"Otuz gün mömin üşün,
Altmış gün günahkar üçün".
Cismani canlıların yaradanı-
Sən Haqq olan,
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın.
Yaxşı sularla
İçki içməni icra edin.
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,
Bitkilər gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola biləcəklər,
Ey Spitama Zərdüşt".

**5-6. Əgər qardaş ölsə,**
Əgər bacı ölsə,
Bacı qardaşa görə,
Qardaş bacıya görə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"Otuz gün möminlər üçün,
Altmış gün günahkarlar üçün".

Cismani canlıların yardanı-
Sən Haqq olan,
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçməni icra edin.
Bundan sonra
Evlər təmiz olacaq.
Su gətirə bilərsiz,
Bitki gətirə bilərsiz.
Ölməz Müqəddəslər
İçəri daxil ola biləcəklər".

**7-8. Əgər evin sahibi ölsə,**
Əgər evin sahibəsi ölsə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün,
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"Altı ay mömin üçün,
On iki ay günahkar üçün,
(həmçinin) uşağa görə
Gənc qadın üçün".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,

Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin,
Bundan sonra
Evlər təmiz olacaq.
Su gətirə bilərsiz.
Bitki gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola bilərlər,
Ey Spitama Zərdüşt"

**9-10. Əgər baba ölsə,**
Əgər nənə ölsə,
Nəvə (oğlan) babaya görə,
Nəvə (qız) nənəyə görə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün ,
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"İyirmi beş gün mömin üçün,
Əlli gün günahkar üçün".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin,
Bundan sonra

Evlər təmiz olacaq.
Su gətirə bilərsiz.
Bitki gətirə bilərsiz.
Ölməz Müqədəslər
İçəri daxil ola biləcəklər,
Ey Spitama Zərdüşt”.

**11-12. Əgər nəvə ölsə (oğlan),**
Əgər nəvə ölsə (qız),
Baba nəvəyə (oğlana) görə,
Nənə nəvəyə (qıza) görə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün,
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
“İyirmi beş gün mömin üçün,
Əlli gün günahkar üçün”
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
“Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
Su içməni icra edin,
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,
Bitki gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola biləcəklər,
Ey Spitama Zərdüşt”.

**13-14. Əgər əmi ölsə,**
Əgər bibi ölsə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün,
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"İyirmi gün mömin üçün,
Qırx gün günahkar üçün".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin,
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,
Bitki gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola bilərlər,
Ey Spitama Zərdüşt".

**15-16. Əgər əmi oğlu ölsə,**
Əgər əmi qızı ölsə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün,
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"On beş gün mömin üçün,
Otuz gün günahkar üçün"

Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin,
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,
Bitki gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola bilərlər,
Ey Spitama Zərdüşt".

**17-18. Əgər qardaş oğlu ölsə,**
Əgər qardaş qızı ölsə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün,
Matəmdə qalsın?
Dedi  Ahura Mazda:
"On gün mömin üçün,
İyirmi gün günahkar üçün".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Evi yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,

Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin,
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,
Bitki gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola bilər,
Ey Spitama Zərdüşt"

**19-20. Əgər böyük qardaş oğlu ölsə,**
Əgər böyük qardaş qızı ölsə,
Nə qədər mömin üçün,
Nə qədər günahkar üçün,
Matəmdə qalsın?
Dedi Ahura Mazda:
"Beş gün mömin üçün,
Beş gün günahkar üçün".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Evi necə təmizləyə bilərəm?
Onu yenidən necə
Təmiz edə bilərəm?
Dedi Ahura Mazda:
"Bədəni üç dəfə yuyun,
Paltarı üç dəfə yuyun,
Qatları üç dəfə oxuyun,
Oda ehtiram etməni edin,
Baresmanı uzadın,
Yaxşı sularla
İçki içməni icra edin.
Bundan sonra
Evlər təmiz olacaq,
Su gətirə bilərsiz,

Bitki gətirə bilərsiz,
Ölməz Müqəddəslər
İçəri daxil ola bilərlər,
Ey Spitama Zərdüşt".

**21. Əgər başqa dində,**
Başqa təlimdə olan,
Qohumlardan kimsə ölsə,
Nə qədər Müqəddəs Ruhun
Yaratdıqlarından olsa belə,
Birbaşa murdardır?
Dolayı murdardır?

**22-24. Dedi Ahura Mazda:**
"Üç il əvvəl ölmüş,
Qurumuş qurbağa kimi.
Çünki diridir, ey Spitama Zərdüşt,
İkiayaqlı hiyləgər,
Elə, necə haqsız aeşma
Müqəddəs Ruhun yaratdıqlarını
Birbaşa murdarlayır.
Dirini dolayı murdarlayır.
Diri suyu vurur,
Diri odu üfürür,
Bağlanmış diri inəyi aparır,
Diri mömin əri,
Şüuru ayıran,
Həyatdan məhrum edən
Bir zərbə ilə vurur,
Amma o ölməmiş.
Çünki o diridir, ey Spitama Zərdüşt,
Yalancı, ikiayaqlı əclaf,
Elə, necə ki haqsız aeşmaoqa
Dindar ərdən yeməyi,
Paltarı, odunu, yatağı,
Qab-qacağı aparır,
Amma o ölməmiş".

# Frahard-Bölmə 13

# İT

**1. Müqəddəs Ruhun**
Yaratdıqları olan
Bu yaradılışlardan hansı
Sübhdən günəş çıxana qədər.
Şər ruhun (yaratdıqlarını)
Min qat öldürmək üçün çıxır?

**2. Dedi Ahura Mazda:**
"İti ağızlı tikanlı it.
Hansı ki küfr edən insanların
Kirpi adlandırdıqları
Hürüb səs çıxaran Vanqhaparadır.
Müqəddəs Ruhun
Yaratdıqlarından olan
Bu yaradılış
Sübhdən günəş çıxana qədər
Şər ruhun (yaratdıqlarını).

**3. Kim ey Spitama Zərdüşt,**
Tikanlı ağızlı iti-
Vanqhaparanı öldürsə,
Hansı ki küfr edən insan
Onu kirpi adlandırır.
Doqquz nəsil üçün
O, ruhu məhv edəcək,
O, Çinvəd körpüsündən
Keçə bilməz,
Əgər sağlığında (günahını)
İtaət etməklə islah etməsə.

**4. Cismani canlıların yaradanı-**
Sən Haqq olan
İti ağızlı Vanqhaparanı,

Tikanlı iti kim öldürsə,
Hansı ki küfr edən insan
Onu kirpi adlandırır,
Onu cəzası nədir?
Dedi Ahura Mazda:
“At qamçısı ilə min zərbə,
Min – itaətə aparan”.

**5. Şər ruhun**
 Yaratdıqlarından olan
Bu yaradılışlardan hansı
Sübhdən gün çıxana qədər
Müqəddəs Ruhun yaratddıqlqrını
Min qat öldürməyə çıxır?

**6. Dedi Ahura Mazda:**
“Zairimyako (tısbağa) adlı deva.
Ey Spitama Zərdüşt,
Hansı ki küfr edən insanlar
Onu Zairmyaka adlandırır,
Şər ruhun yaratdıqlarından olan
Bu yaradılış
Sübhdən gün çıxana qədər
Müqəddəs Ruhun (yaratdıqlarını)
Min qat öldürmək üçün çıxır.

**7. Kim öldürər,**
Ey Spitama Zərdüşt,
Deva Zairimanquru,
Hansı  ki küfr edən insanlar
Onu Zairimyaka adlandırır.
O, fikrində tövbə edir,
O, sözündə tövbə edir,
O, əməlində tövbə edir,
O, fikrində düzəliş edir,
O, sözündə düzəliş edir,
O, əməlində düzəliş edir.

**8. Kim bu itlərdən-**
Çoban itini, keşik şəkəni,
Ov edəni, təlim keçəni öldürsə,
Onun ruhu gələcək həyatda
Uçub gedər,
Bərkdən qışqırmaqla,
Ulamaqla, necə ki
Hündür dağlıq meşədə
Gəzən canavar ulayır.

**9. Qışqırıqla ulamaqla**
O biri dünyada
Ölümündən sonra onu
Heç bir ruh dəstəkləməz,
Körpü qoruyan iki it də
Ölümündən sonra qışqırıqla,
Ulamaqla (onun ruhunu)
Müdafiə etməz.

**10. Kim çoban itinə zərbə vursa,**
Onun qulağını kəssə,
Onun ayağını kəssə,
Oğru və canavar gizlicə
Sürüdən heyvan
Apardığına görə
O, on dəfə (bu ziyanı) ödəməlidir.
İtlərə bilərəkdən
Vurdğu yaranın
(ziyanını ödəməlidir)

**11. Kim gözətçi itə zədə vursa,**
Onun qulqğını kəssə,
Onun ayağını kəssə,
Oğru və canavar gizlicə
Kənddən (nə isə)
Apardığına görə

O, on dəfə bu ziyanı ödəməlidir.
İtlərə bilərəkdən vurduğu
Yaranın ziyanını ödəməlidir".

**12. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim çoban itinə  zərbə vurub
Şüurunu ayirsa,
Həyatdan məhrum etsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Qoy səkkiz yüz zərbə alsın,
Səkkiz yüz – itaətə aparan".

**13. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim gözətçi itinə zərbə vursa,
Şüurunu ayırsa,
Həyatdan məhrum etsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Qoy yeddi yüz zərbə alsın,
Yeddi yüz-itaətə aparan".

**14. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ov itinə zərbə vursa,
Şüurunu ayırsa,
Həyatdan məhrum etsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Qoy altı yüz zərbə alsın,
Altı yüz-itaətə aparan".

**15. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim cavan itə zərbə vursa,

Şüurunu ayırsa,
Həyatdan məhrum etsə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Qoy beş yüz zərbə alsın,
Beş yüz-itaətə aparan.

**16. Həm də cajaya üçün,**
Mən görürəm ki kirpi üçün,
İti dişli zəli üçün,
Sərbəst ov edən tülkü üçün,
Su samurundan başqa
Müqəddəs Ruhun yaratdığı
İt cinsindən olanların
Hamısı üçün”.

**17. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Çoban itinin yeri haradadır?
Dedi Ahura Mazda:
“Heyvanlara yaxın,
Oğrunu, canavarı izləyərək
Qoy gəzsin”.

**18. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Gözətçi itinin yeri hardadır?
Dedi Ahura Mazda:
“Qoy o, oğrunu, canavarı
İzləyərək xutor (ferma) ilə
Kənd arasındakı məsafədə gəzsin”.

**19. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Ov itinin yeri haradadır?
Dedi Ahura Mazda:
“O,  bu bacarıqların heç birinə

Sahib deyil,
(Hrafstranı məhv edərək)
Özünə yem axtarır”.

**20. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim çoban itinə
Xarab yemək versə,
Belə bir əməllə nə qədər
Günah edir?
Dedi Ahura Mazda:
“Belə ki o günah işlədir,
Sanki bu cismani dünyada
Birinci evin ev sahibinə
Xarab yemək verir”.

**21. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim gözətçi itinə
Xarab yemək versə,
Belə bir əməllə nə qədər
Günah edir?
Dedi Ahura Mazda:
“Belə ki o, günah işlədir,
Sanki bu cismini dünyada
Orta evin ev sahibinə
Xarab yemək verir”.

**22. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ov itinə
Xarab yemək versə,
Belə bir əməllə nə qədər
Günah edir?
Dedi Ahura Mazda:
“Belə ki o, günah işlədir,
Sanki atravan

Xüsusiyyətinə malik
Bir evə gəlmiş mömin ərə
Xarab yemək verir”.

**23. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim cavan itə
Xarab yemək versə
Belə bir əməllə
Nə qədər günah edir?
Dedi Ahura Mazda:
“Belə ki o, günah işlədir
Sanki bu cismani dünyada
Bacarıq əldə edən işçi uşağa
Vəzifəsini yerinə yetirirərkən
Xarab yemək verir”.

**24. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim çoban itinə
Xarab yemək versə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə
İki yüz zərbədir,
İki yüz-itaətə aparan”.

**25. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim gözətçi itinə
Xarab yemək versə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə
Doxsan zərbədir,
Doxsan – itaətə aparan”.

**26. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ov itinə
Xarab yemək versə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
Bu bədənlə ödənən
At qamçısı ilə
Yetmiş zərbədir,
Yetmiş – itaətə aparan".

**27. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim cavan itə
Xarab yemək versə,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Bu bədənlə ödənən
At qamçısı ilə
Altmış zərbədir,
Altmış-itaətə aparan.

**28. Çünki bu cismani dünyada**
Ey Spitama Zərdüşt,
Müqəddəs Ruhun yaratdıqlqrından
O itlər ən tez qocalır,
Hansı ki yeyənlərə yaxın
Yeməksiz dayanan baxan
Və əhatə edilməyənlərdir.
Buna görə də onlara
İtlərin əsl yeməyi olan
Süd, yağ, ət gətirilməlidir".

**29. Cismani canlıların yaradan**
Sən Haqq olan.
Əgər möminin evində
Ağılsız, dilsiz itdirsə,
O mömin itlə nə etməlidir?

**30. Dedi Ahura Mazda:**
Qoy onun boynuna
Oyma taxta parçası geyindirsinlər,
Sonra onun ağzını bağlasınlar
(bir parça ilə)
Kərpic böyüklüyündə,
Bərk ağacdan,

**31. Qoy onlar onu**
bağlasınlar,
Əgər bağlamasalar,
Dilsiz, ağılsız it
Heyvanı, insanı yaralasa,
Qoy onlar şüurlu şəkildə
Səbəb olduqları yaraya görə
Cəza çəksinlər.

**32. Birinci dəfə**
Heyvana hücum edərsə,
Birinci dəfə
İnsanı yaralarsa,
Qoy onun sağ qulağını
kəssinlər.
İkinci dəfə
Heyvana hücum edərsə,
İkinci dəfə
İnsanı yaralarsa,
Qoy onun sol qulağını
kəssinlər.

**33. Üçüncü dəfə**
Heyvana hücum edərsə,
Üçüncü dəfə
İnsan yaralarsa,
Qoy onun sağ ayağını
kəssinlər.

Dördüncü dəfə
Heyvana hücum edərsə,
Dördüncü dəfə
İnsan yaralarsa,
Qoy onun sol ayağını
kəssinlər.

**34. Beşinci dəfə**
Heyvana hücum edərsə,
Beşinci dəfə
İnsan yaralarsa,
Qoy onun quyruğunu
kəssinlər.
Ooy onlar onu bağlasınlar.
Əgər onu bağlamasalar,
Dilsiz, ağılsız it
Heyvan yaralarsa,
İnsan yaralarsa,
Qoy onlar şüurlu şəkildə
Səbəb olduqları
Yaraya görə cəza çəksinlər".

**35. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Möminlərin evində
Ağılsız, qoxu bilməyi
İtirmiş it olarsa,
Möminlər bununla nə etsin?
Dedi Ahura Mazda:
"Qoy yetkin mömin adam kimi
Onu müalicə etməyə çalışsınlar".

**36. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər axtardığımız tapılmazsa
Möminlər bununla nə etsin?

**37. Dedi Ahura Mazda:**
“Qoy onun boynuna
Oyma taxta parçası
geyindirsinlər.
Sonra onun ağzını bağlasınlar.
(bir parça ilə)
Kərpic böyüklüyündə,
Bərk ağacdan,
İkisi də yumşaqdan.
Qoy onlar onu bağlasınlar.
Əgər (bağlamasalar)
İt çalaya, quyuya,uçuruma,
Dərəyə və ya
Gəmi hərəkət edən çaya
Düşəcək, əziyyət (çəkəcək).

**38 . Əgər o.**
Bundan əziyyət çəksə,
Bunun üçün məsul olanlar
Bədənləri ilə cavab verməli
olacaqlar.

**39. Ey Zərdüşt, Mən Ahura Mazda**
İti yaratdım,
Öz paltarı ilə, öz ayaqqabısı ilə,
Sayıq, iti dişli,
Ərin təklifi ilə,
Canlıları qorumaq üçün.
Belə ki Mən Ahura Mazda
İti böyük bədən gücü ilə
Aşanın ağıl qalası etdim.

**40. Onun səsindən kim oyansa,**
Ey Spitama Zərdüşt,
Heç bir oğru, heç bir canavar
Kənddən gizli şəkildə
Heç nə apara bilməz.

Canavarlar öldürüldü,
Canavarlar parçalandı,
Canavarlar geri qovuldu,
Canavarlar tüpürcəklə sıçradı”.

**41. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
İki canavardan hansı
Öldürülməyə daha layiqdir,
Ey Haqq olan Ahura Mazda:
İt nə vaxt canavar doğur,
Canavar nə vaxt it doğur?
Dedi Ahura Mazda:
“Bu iki canavardan
Daha çox ölümə
O layiqdir ki,
Ey Spitama Zərdüşt,
İtin canavardan doğması,
Nəinki itdən canavarın (doğması).

**42. Çünki çoban itlərindən,**
Gözətçi itlərdən,
Ov itlərindən,
Təlim görən itlərdən
Doğulan son itlər qatildir.
Canlılara hücum edən,
Daha ölümcül,təhlükəli olur.
Digər itlərdən daha çox
Canlıları öldürürlər.

**43. Çünki sonuncu canavarlar qatildir,**
Canlılara hücum edən
Daha ölümcül təhlükəli olur.
Digər canavarlardan
Daha çox canlıları öldürür.

**44. İtin səkkiz xarakter**
Xüsusiyyəti vardır:
Onun atravan (kahin)
Xarakteri var,
Onun döyüşçü xarakteri var,
Onun çoban xarakteri var,
Onun qulluqçu xarakteri var,
Onun oğru xarakteri var,
Onun heyvan xarakteri var,
Onun fahişə xarakteri var,
Onun uşaq xarakteri var.

**45. Yemək yeyir, atravan kimi;**
Asanlıqla razılğa gəlir,
Atravan kimi;
Səbrlidir, atravan kimi;
Kiçik təklif istəyir,
Atravan kimi;
Bu onun xarakteridir,
Atravanda olantək;
İrəlidə gedir,
Bir döyüşçü kimi;
Fəzilətli inək üçün döyüşür,
Bir döyüşçü kimi;
Evin qabağındadır,
Bir döyüşçü kimi;
Evin arxasındadır,
Bir döyüşçü kimi-
Bu onun döyüşçü xarakteridir.

**46. Həssasdır, az yatır,**
Çoban kimi;
Evin qabağındadır,
Çoban kimi;
Evin arxasındadır,
Çoban kimi-
Bu onun çoban xarakteridir,

Sızlıldayır , qulluqçu kimi;
İncidir, qulluqçu kimi;
(...) qulluqçu kimi-
Bu onun qulluqçu xarakteridir.

**47. Qaranlığı sevir, oğru kimi;**
Gecələr ov edir, oğru kimi;
Fərq qoymadan yeyir, oğru kimi;
Etibarsızdır, oğru kimi-
Bu onun oğru xarakteridir.
Qaranlığı sevir, heyvan kimi;
Gecələr ov edir, heyvan kimi;
Fərq qoymadan yeyir, heyvan kimi;
Etibarsızdır, heyvan kimi-
Bu onun heyvan xarakteridir.

**48. Sızıldayır, ... kimi;**
İncidir yaxından, ... kimi;
(...)  kimi –
Bu onun ...  xarakteridir.
Yuxuludur, uşaq kimi;
Ağlayanddır, uşaq kimi;
Dilini çıxarır, uşaq kimi;
Hər yerdə qabaqda qaçır,
Uşaq kimi –
Bu onun uşaq xarakteridir.

**49. İkisi nə vaxt evə yaxınlaşsa:**
Çoban iti, gözətçi iti,
Maneçilik edilməməlidir.
Ahuranın yaratdığı,
Tikdiyi ev yerdə dayanmazdı,
Çoban iti, gözətçi iti olmasaydı".

**50. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Haçan it ölür,

Zədələnmiş beyni ilə,
Qurumuş toxumu ilə,
Onun şüuru hara gedir?

**51. Dedi Ahura Mazda:**
"O, suların mənbəyinə uçur,
Ey Spitama Zərdüşt,
Orada onlar
Su samurlarına çevrilirlər:
Min dişi su samuruna,
Min erkək su samuruna,
Dişi, erkək su samurunu öldürən
Yemsiz quraqlığa səbəb olur.

**52. Sonra bu yerləri, bu ərazini,**
Ey Spitama Zərdüşt,
Süd vermə, yağ vermə,
Yetkinlik, şəfa, firəvanlıq,
Böyümə, çörək,
Otlaqların böyüməsi
tərk edəcək"

**53. Cisamani canlıların yaradanı-**
Sən Haqq olan.
Necə bu yerə, bu əraziyə
Süd verməni, yağ verməni,
Yetkinliyi, şəfanı, firəvanlığı,
Böyüməni, çörəyi,
Otların böyüməsini
Qaytarmaq olar?

**54. Dedi Ahura Mazda:**
"O vaxta qədər,
Ey Spitama Zərdüşt,
Bu yerə, bu əraziyə
Süd vermə, yağ vermə,
Yetkinlik, şəfa, firəvanlıq,

Böyümə, çörək,
Otların böyüməsi (gəlməyəcək),

**55. O vaxta qədər,**
Su samurunun qatili
Bir zərbə ilə
Öldürülməyənə qədər,
Bu su samurunun ruhuna
Ehtiram göstərilməyənə qədər,
Üç gün ərzində,
Üç gecə müddətində
Od yandırılmayacaq,
Baresman uzadılmayacaq,
Haoma hazırlanmayacaq.

**56. Bundan sonra**
Bu yerə, bu əraziyə
Süd verimi, yağ verimi,
Yetkinlik, şəfa, firəvanlıq,
Böyümə, çörək,
Otlaqların böyüməsi qayıdacaq".

# Frahard-Bölmə 14

## YAXŞILIQ VƏ XEYİR-XAHLIQ SU SAMURU ÖLDÜRMƏYİN GÜNAHINI TƏMİZLƏYƏNDİR

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
Ahura Mazda,
Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Kim su samurunu öldürsə,
Dişisini, hansı ki min dişi iti var,
Erkəyini, hansı ki min erkək iti var,
Zərbə ilə şüurunu ayırsa,
Həyatdan məhrum etsə,
Onun cəzası nədir?

**2. Dedi Ahura Mazda:**
"Bu bədənlə ödənən
At qamçısı ilə on min zərbədir,
On min-itaətə aparan.
Bərk, yaxşı qurudulmuş,
Seçilmiş on min dəstə odunu
Qoy Ahura Mazda Oduna
gətirsin,
Yaxşı Aşaya görə-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.

**3. On min odun,**
Yumşaq urvasna,
Və ya vohu-haon,
Və ya vohu-keret,
Və ya Hadanaepat
Qoy gətirsin
Ahura Mazda Oduna.
Yaxşı Aşaya görə-

Ruhunun günahının
Təmizlənməsi başa çatar.

**4. On min səcdə baresmanını**
Qoy toplasın,
On min içki, haoma ilə, südlə,
Təmizlənmiş, süzülmüş,
Məharətlə təmizlənmiş,
Məharətlə süzülmüş
Hadnaepata adlı bitki ilə,
Yaxşı sularla qarışdırılmış
Yaxşı Aşaya görə-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.

**5. Qoy qarnı üstündə sürünən**
On min ilanı öldürsün.
Qoy on min it-pişik
İlanları öldürsün.
Qoy on min tısbağa öldürsün.
Qoy on min şişmiş
Qurbağanı öldürsün.
Qoy on min sualtı
Qurbağanı öldürsün.
Qoy taxılı daşıyan
On min qarışqanı öldürsün.
Qoy on min zərərili,
Zəhərli qarışqanı öldürsün.

**6. Qoy on min qurdu**
Həddindən artıq
Böyümədə öldürsün.
Qoy on min qəzəbli
Milçəyi öldürsün.
Murdarları basdırmaq üçün
Qoy on min çuxur
qazsınlar.

Qoy Yaxşı Aşaya görə-
İki dəfə yeddi mənsubiyyəti
Od üçün yaxşı ərlər gətirsin-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.

**7. Oda mənsub olanları,**
Süpürgə, kömür üçün maşa,
Aşağıya doğru genişlənən,
Yuxarıya doğru daralan
Uclu balta, iti dişli mişar versin.
Qoy mömin ərlərə-
Ruhunun qidasının
Təmizlənməsini başa çatdırsın.
Bununla da möminlər
Odun yığacaq.

**8. Qoy atravanın bütün alətlərini**
Mömin ərlərə gətirsinlər.
Yaxşı Aşaya görə-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.
Atravanın bu alətləri
Arasında qamçı,
Paitidana (ağız sarğısı),
Hrafsthrahna
(sürünənlərin qatili),
Sraoşa çarana
(ibadətə aparan),
Kasa, qarışdırma qabı,
Həvəngdəst,
Düzgün hazırlanmış haoma
üçün kasa və baresman.

**9. Qoy döyüşçünün**
Bütün alətlərini
Mömin ərlərə gətirsinlər.

Yaxşı Aşaya görə-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.
Döyüşçünün bu alətləri arasında
Birinci- nizə, ikinci- qılınc,
Üçüncü- çubuq, dördüncü- kaman,
Beşinci -yəhər tirməli,
Metal ucluqlu, otuz oxla,
Altıncı- əl ipi ilə sapand,
Otuz daşı ilə,
Yeddinci- qabıq,
Səkkizinci- zəncir poçtu,
Doqquzuncu- gözlük,
Onuncu- dəbilqə,
On birinci- kəmər,
On ikinci-qalxan.

**10. Qoy çobanın bütün alətlərini**
Mömin ərlərə gətirsinlər.
Yaxşı Aşaya görə-
Ruhun günahının
Təmizlənməsi başa çatar.
Çobanın bu alətləri arasında
Kotan boyunduruqla,
Öküz qamçısı,daş həvəngdəst,
Dəyirmi dəyirman daşı".

**11. Qazma və emal sahəsi-**
Gümüş ölçüsü, qızıl ölçüsü.
Cismani canlıların yardanı-
Sən Haqq olan.
Nə qədər gümüş?
Dedi Ahura Mazda:
"Bİr ayğır qiymətində".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Nə qədər qızıl?

Dedi Ahura Mazda:
“Bir dəvə qiymətində”.

**12. Qoy Yaxşı Aşaya görə**
Mömin ərləri axan suların
Arxasında hidayət etsin-
Ruhunun günahının
Təmizlənməsi başa çatar”.
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Necə axın?
Dedi Ahura Mazda:
İt dərinliyində,
İt genişliyində,

**13 . Qoy Yaxşı Aşaya görə**
Mömin ərlərə əkin sahəsi versin-
Ruhunun günahının
Təmizlənməsi başa çatar”
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Nə qədər torpaq?
Dedi Ahura Mazda:
“Bu axının iki hissəyə bölünüb
Suvara biləcəyi qədər.

**14. Qoy Yaxşı Aşaya görə**
Mömin ərlərə
Heyvanlar üçün
Doqquz otaqlı ev tiksin-
Ruhunun günahının
Təmizlənməsi başa çatar”
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Necə ev?
Dedi Ahura Mazda:
“Qabaqda on iki dəhlizlə,

Ortada doqquz dəhlizlə,
Sonunda altı dəhlizlə,
Qoy Yaxşı Aşaya görə
Mömin ərlərə
Yastıqlı yumşaq
Yataqlar sərsinlər-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.

**15. Qoy mömin ərlərə**
(arvad olaraq)
Naməlum bakirə
Qız versinlər-
Ruhunun günahının
Təmizlənməsi başa çatar".
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Necə qız?
Dedi Ahura Mazda:
"(Onun) bacısı və ya
Qızı adlandırılan,
Qulağında sırğa olan,
On beş yaşına
Çatdıqdan sonra
Mömin ərlərə
Qoy ərə getsin

**16. Qoy Yaxşı Aşa**
Mömin ərlərə
İki dəfə yeddi baş
Xırda heyvanlar versin-
Ruhunun günahının
Təmizlənməsi başa çatar.
Yeddi olmaqla
İki dəfə bala versin.
İki dəfə yeddi olmaqla

Qoy gəmiçilik üçün olan
Çaylardan keçsinlər.

**17. Doqquz bərbad tövlədən**
İkisini təmir etsin.
Doqquz itdən ikisini
Bitdən, birədən,
Bütün parazitlərdən,
Hansı ki itlərdə olur,
təmizləsin.
Doqquz mömin ərdən
İkisini qoy ətlə, çörəklə,
Kumısla, şərabla yedirsin.

**18. Ona belə cəza,**
Ona belə qurtulma.
Əgər (günahlardan)
Xilas olsa,
O, əməli salehdir,
Əgər xilas olmasa,
O, Yalan Evinin (cəhənnəmin)
Həqiqi qonağı olacaq".

**Yaxşı Həqiqət Ən Yaxşı olandır.**

# Frahard-Bölmə15

# BEŞ GÜNAH

**1. Edilən əməllərin**
Mahiyyəti nə qədərdir,
Hansı ki
Bu cismani dünyada
Tövbə etmədən,
İslah etmədən (insanlar)
Bədənləri ilə
Cavab verməli olurlar?

**2. Dedi Ahura Mazda:**
"Beş, ey mömin Zərdüşt.
Bu əməllərin birincisini
İnsanlar törədir,
Hansı ki mömin ərə
Başqa inancı öyrədir,
Başqa təlimi öyrədirlər,
Aşağı çağırışla,
Şüurlu ağılla öyrədirlər,
Buna cavabdehliyi
Bədənləri ilə ödəməli olurlar.

**3. Bu əməllərin ikincisini**
İnsanlar törədir,
Hansı ki
Çoban itinə, gözətçi itinə
Bərk sümüklər və ya
Qaynar güvec verirlər.

**4. Əgər bu sümüklər**
Dişlərə ilişsə, boğazda qalsa,
Bu isti yemək
Ağzını, dilini yandırsa
(it) bundan sonra əziyyət çəksə,

Buna cavabdehliyi
Bədənləri ilə ödəməli olurlar.

**5. Bu əməllərin üçüncüsünü**
İnsanlar törədir.
Haçan ki iti balaları ilə
öldürürlər,
Və ya qovurlar,
Onlara qışqırırlar,
Və ya (onları) tuturlar.

**6. Əgər bu it çuxura,**
Quyuya, uçuruma, axına,
Gəmiçilik üçün olan
Çaya düşərsə,
Bundan əziyyət çəkərsə,
Əgər bundan
O əziyyət çəkərsə,
Bunu cavabdehlər
Öz bədənləri ilə
Ödəməli olacaqlar.

**7. Bu əməllərin dördüncüsünü**
İnsanlar törədir.
Hansı ki heyzli, ifrazatlı,
Qanlı qadına
Toxum buraxdıqda,
Bunu cavabdehlər
Öz bədənləri ilə
Ödəməli olacaqlar.

**8. Bu əməllərin beşincisini**
İnsanlar törədir.
Hansı ki südlü, südsüz olsun,
Hamilə qadına
Toxum buraxdıqda
O, bundan əziyyət çəkir,

Əgər o bundan əziyyət çəkirsə,
Bunu cavabdehlər
Öz bədənləri ilə
Ödəməli olacaqlar.

**QANUNSUZ HAMİLƏLİK**

**9. Əgər kişi**
Qızın yanına gəlsə,
Başçı tərəfindən himayə olunan,
Və ya himayə olunmayan,
Yuxarı sinifdən olsun,
Ya olmasın,
O, hamilə qalsa,
Qoy bu qız
İnsanların qarşısında
Su və bitkilərin ifrazatından
Biabırçılıq yaratmasın.

**10. Əgər bu qız ayıbdan**
İnsanların qarşısında
Su və bitkilər vasitəsi ilə
İfrazatlara səbəb olarsa,
Bu əmələ görə
Məsuliyyət daşıyacaqdır.

**11. Əgər kişi**
Qızın yanına gəlsə,
Başçı tərəfindən
Himayə olunsun,
Ya olunmasın,
Yuxarı təbəqədən
Olsun ya olmasın,
O, hamilə qalacaq,
Qoy bu qız ayıbdan
İnsanların qarşısında
(öz) dölünü öldürməsin.

**12. Əgər bu qız ayıbdan**
İnsanların qarşısında
Öz dölünə zərər versə
Günah ataya düşər,
Zərəri ata vurar,
Qəsdən öldürməyə görə
Cəzanı ata çəkər.

**13. Əgər kişi**
Qızın yanına gəlsə,
Başçı tərəfindən
Himayə olunan,
Və ya olunmayan,
Yuxarı təbəqədən
Olsun, ya olmasın,
O, hamilə qalacaq,
"Uşağı bu kişi əmələ gətirdi",
Əgər bu kişi ona desə:
"Yaşlı qadının yanına get,
Xahiş et , qoy o, düşük etsin",

**14. Bundan sonra bu qız**
Yaşlı qadından
Düşük etməyi xahiş edər,
Yaşlı qadın bitkilərdən
Banqa, şaeta, qnana,
Və ya hər hansı
İksir gətirəcək
Və uşağı məhv edəcək,
Bundan sonra qız,
Hansı ki
Uşağı məhv edib,
Bu əməli kişi, qız,
Yaşlı qadın etmişdir.

**15. Əgər kişi**
Qızın yanına gəlsə,
Başçı tərəfindən

Himayə olunan,
Və ya olunmayan,
Yuxarı təbəqədən
Olsun ya olmasın,
O, hamilə qalacaq,
O, (kişi) onu
Uşaq doğana qədər
 saxlamalıdır.

**16. Əgər o,**
Onu himayə etməsə,
Uşaq lazımi müdafəsiz qalsa
Əziyyət çəksə,
Qəsdən ölümə
Səbəb olduğu üçün
O,(kişi) cəzalandırılacaq".

**17. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər o,
İcma qarşısına çıxarılsa
Onun qayğısını kim
Özünə götürməlidir?

**18. Dedi Ahura Mazda:**
"(Kişi), hansı ki
Qızın yanına gələcək,
Başçı tərəfindən
Himayə olunan,
Və ya olunmayan,
Yuxrı təbəqədən
Olsun, ya olmasən,
O, hamilə qalacaq,
O (kişi) onu
Uşaq doğana qədər
 Saxlamalıdır.

Əgər o, onun qayğısını
Öz üzərinə götürməsə,
Hamı hamilə qadınları
Himayə etməlidir:
Necə ki ikiayaqlıları,
Eləcə də dördayaqlıları,
İkiayaqlı qızları,
Dördayaqlı itləri.

**HAMİLƏ İTƏ QULLUQ**

**20. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər (hamilə it)
İcmanən qarşısına çıxarılsa,
Onun qayğısını kim
Özünə götürməlidir?

**21. Dedi Ahura Mazda:**
"Kimin evi yaxın olsa,
Balaları doğulana qədər
Ona qulluq etməli,
bəsləməlidir"

**22. Əgər onun qayğısına qalmasa,**
Balalar lazımi mühafizənin
Olmamasından əziyyət çəksə,
O, bilərəkdən ölümə
Səbəb olduğu üçün
cəzalandırılacaq".

**23. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu it
Dəvə tövləsinə düşsə,
Möminlərdən kim ona
Qulluq etməyi
Üzərinə götürməlidir?

**24-25. Dedi Ahura Mazda:**
“Kim bu dəvə tövləsini tikib,
O, kimə məxsusdursa,
Ona qulluq edib
Bəsləməlidirlər,
Balaları doğulana qədər.
Əgər o,
Ona qulluq etməyi
Öz üzərinə götürməsə,
Lazımi mühfizənin
Olmamasından
Balalar əziyyət çəksə,
Bilərəkdən ölümə
Səbəb olduğu üçün
O cəzalandırılacaq”.

**26. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu it tövləyə düşsə,
Möminlərdən kim
Ona qulluq etməyi
Üzərinə götürməlidir?

**27-28. Dedi Ahura Mazda:**
“Kim bu tövləni tikib,
Kimə o məxsusdursa,
Ona qulluq edib bəsləməlidir,
Balalar doğana qədər.
Əgər o,
Ona qulluq etməyi
Üzərinə götürməsə,
Lazımi mühafizənin
Olmamasından
Balalar əziyyət çəksə,
Bilərəkdən ölümə
Səbəb olduğu üçün
O cəzalandırlacaq”.

**29. Cismani canlıların yatadanı-**
Sən Haqq olan.
Əgər bu it
İnək tövləsinə düşsə,
Möminlərdən kim
Ona qulluq etməyi
Üzərinə götürməlidir?

**30-31. Dedi Ahura Mazda:**
“Kim bu inək tövləsini tikib,
Kimə o məxsusdursa,
Balaları doğana qədər,
Ona qulluq edib bəsləməlidir,
Balaları doğana qədər.
Əgər o,
Ona qulluq etməyi
Üzərinə götürməsə
Lazımi mühfizənin
Olmamasından
Balalar əziyyət çəksə,
Bilərəkdən ölümə
Səbəb olduğu üçün
O cəzalandırılacaq”.

**32. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu it
Qoyun tövləsinə düşsə,
Möminlərdən kim
Ona qulluq etməyi
Üzərinə götürməlidir?

**33-34. Dedi Ahura Mazda:**
Kim bu qoyun tövləsini tikibsə,
Kimə o məxsusdursa,
Balaları doğana qədər,
Ona qulluq edib bəsləməlidir.

Əgər o,
Ona qulluq etməyi
Üzərinə götürməsə,
Lazımi mühafizənin
Olmamasından
Balalar əziyyət çəksə,
Bilərəkdən ölümə
Səbəb olduğu üçün
O cəzalandırılcaq".

**35. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu it divara dirənsə,
Möminlərdən kim
Ona qulluq etməyi
Üzərinə götürməlidir?

**36-37. Dedi Ahura Mazda:**
"Kim bu divarı tikibsə,
O, kimə məxsusdursa,
Balaları doğana qədər
Ona qulluq edib bəsləməlidir.
Əgər ona qulluq etməyi
Üzərinə götürməsə,
Lazımi mühafizənin
Olmamasından
Balalar əziyyət çəksə,
Bilərəkdən ölümə
Səbəb olduğu üçün
O cəzalandırılacaq".

**38. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu it səngərdə qalsa,
Möminlərdən kim
Ona qulluq etməyi
Üzərinə götürməlidir?

**39. Dedi Ahura Mazda:**
"Kim bu səngəri qazıbsa,
O, kimə məxsusdursa,
Balaları doğana qədər,
Ona qulluq edib bəsləməlidir.

**40. Əgər o,**
Ona qulluq etməyi
Üzərinə götürməsə,
Lazımi mühafizənin
Olmamasından
Balalar əziyyət çəksə,
Bilərəkdən ölümə
Səbəb olduğu üçün
O cəzalandırılacaq".

**41. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Əgər bu it
Otlağın ortasına düşsə,
Möminlərdən kim
Ona qulluq etməyi
Üzərinə götürməlidi?

**42. Dedi Ahura Mazda:**
"Kim bu otlağı düzəldibsə,
O kimə məxsusdursa,
Balalar doğana qədər,
Ona qulluq edib bəsləməlidir.

**43. Onlar onu xəlvəti yerə,**
Döşəməyə gətirməlidir,
Balalar özləri fərq edənə,
Yemək qəbul edənə qədər,
Hamısı bəslənməlidir".

**44. Cismani sanlıların yaradanı-**
Sən Haqq olan.
Nə vaxt itlər anlayan olur?
Və öz-özünə qidalanır?

**45. Dedi Ahura Mazda:**
“Nə vaxt balalar
Yeddi dəfə olmaqla
Evin ətrafında
Gündə iki dəfə
Qaça bilsələr,
Sonra onları
Yayda və qışda
Kəndə buraxmaq olar.
Altı aylıq it,
Yeddi illik uşaq kimidir,
Ahura Mazda Odu
Uşağın(qayğısına qalır),
Necə ki qadının
(Qayğısına qalır)”.

**46. Cismani canlıların yaradan-**
Sən Haqq olan.
Əgər möminlər,
Yaşayış yurdlarının
Canlı müdafiəsinə
Sahib olmaq istəyirlərsə,
Bu möminlər nə etməlidir?

**47. Dedi Ahura Mazda:**
“Qoy bu möminlər yerdə,
Qoyun tövləsinin ortasında
Çuxur qazsınlar,
Bərk yerdə yarım ayaq,
Yumşaq yerdə,
Adamın yarısı boyda.

**48. Əvvəlcə qoy iti uşaqlardan,**
Ahura Mazda Odundan
(Kənarda) bağlasınlar,
Hansı ki hər hansı uşağı
qoruyur,
Onun yanına
Digər it gələnə qədər,
Sonra o birisini,
Və digərini bir-birindən
Ayrı bağlasınlar ki,
Bir-birilərinə zərər
verməsinlər.

**49. Dişi, hansı ki onu**
Üç (it) örtmüşdür,
Balalara hamilə qalır,
Südlə dolur,
Və örtülmüş ( üç) itlə
O, lazımlı balanı gətirər”.

**50. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim üç itlə örtülmüş,
Hansı ki hamilədir,
Südü vardır,
Hansı ki (üç) itlə örtülməlidir,
Bala verən iti öldürsə,
Onun cəzası nədir?

**51. Dedi Ahura Mazda:**
“Bu bədənlə ödənən
At qamçısı ilə
Yeddi yüz zərbədir,
Yeddi yüz-itaətə aparan”.

# Frahard-Bölmə 16

# MENTRUASİYA OLAN QADIN

**1. Cismani canlıların yaradani-**
Sən Haqq olan.
Əgər möminlərin evində
Heyzli, ifrazatlı,
Qanlı qadın varsa,
Bu möminlər nə etməlidir?

**2. Dedi Ahura Mazda:**
"Qoy bu möminlər
Koldan, ağacdan olan
Odunları yoldan götürsünlər.
Bu yerə quru toz səpsinlər.
Qoy evdən yarısını,
Üçdə birini, dörddə birini
Beşdə birini ayırsınlar.
Harada ki qadın odu görməsin,
Harada ki qadın yanan atəşə
baxmasın"

**3. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Oddan hansı məsafədə,
Sudan hansı məsafədə,
Baresmandan
Hansı məsafədə,
Mömin ərdən hansı
məsafədədir?

Dedi Ahura Mazda:
"Oddan on beş addım,
Sudan on beş addım,
Baresmandan on beş addım,
Mömin ərdən üç addım olsun"

**5. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim ki heyzli, ifrazatlı,
Qanlı qadına yemək gətirsə
Hansı məsafədə durmalıdır?

**6. Dedi Ahura Mazda:**
“Kim ki heyzli, ifrazatlı,
Qanlı qadına yemək gətirsə,
Ondan üç addım
Aralı durmalıdır”
Hansı qabda yeməyi
gətirməlidir?
O, hansı qabda pivə
gətirməlidir?
“Mis, qurğuşun və ya
Hər hansı metal (qabda)”.

**7. Nə qədər yemək gətirməlidir?**
Nə qədər pivə gətirməlidir?
“Əgər qadın zəifləməyibsə
İki danar bərk yemək,
İki danar sulu yemək olsun.
Əgər ona uşaq toxunsa,
Əvvəlcə onun əllərini,
Sonra uşağın bütün bədənini
Yumaq lazımdır.

**8. Əgər qadın üç gecə**
Keçəndən sonra qan görsə,
O, dördüncü gecə keçənə qədər
Sakit bir yerdə oturmalıdır.
Əgər qadın dörd gecə
Keçəndən sonra qan görsə,
Beşinci gecə keçənə qədər
Sakit bir yerdə oturmalıdır.

**9. Əgər qadın beş gecə**
Keçəndən sonra qan görsə,
Altıncı gecə keçənə qədər
Sakit bir yerdə oturmalıdır.
Əgər qadın altı gecə
Keçəndən sonra qan görsə,
O, yeddinci gecə keçənə qədər
Sakit bir yerdə oturmalıdır.

**10. Əgər qadın yeddi gecə**
Keçəndən sonra qan görsə
Səkkizinci gecə keçənə qədər
Sakit bir yerdə oturmalıdır.
Əgər qadın səkkiz gecə
Keçəndən sonra qan görsə,
Doqquzuncu gecə keçənə qədər,
Sakit bir yerdə oturmalıdır.

**11. Əgər qadın doqquz gecə**
Keçəndən sonra  qan görsə,
Bu bədbəxtliyi devalar gətirər,
Devalara ehtiram
Və tərif (oxumaq üçün).

**12. Onda qoy bu möminlər**
Yerdə üç çuxur qazsınlar.
Onu iki çuxurun üstündə
Qomezlə yusunlar.
Birinin üstündə
Su ilə yusunlar.
Onlar hrafstraları-
Qarışqaları, yayda buğda
Daşıyanları və ya iki yüz
Pis ruhlu hrafstranı
Qış olanda öldürməlidirlər".

**13. Əgər mömin qadının**
Heyzli, axıntılı, qanlı ifrazının
Qarşısını alsa,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
"Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz- itaətə aparan"

**14. Cismani canlıların yaradanı-**
Sən Haqq olan.
Kim şəhvət əməli ilə heyzli,
Axıntılı, qanlı qadına toxunsa,
Axıntı qana dönsə,
Qan axıntıya dönsə,
Onun cəzası nədir?

**15. Dedi Ahura Mazda:**
Birinci dəfə onun yanına gələr,
Birinci dəfə onun üstünə oturar,
Bu bədənlə ödənən
At qamçısı ilə iki yüz zərbədir,
İki yüz- itaətə aparan".
İkinci dəfə onun yanına gələr,
İkinci dəfə onun üstünə oturar,
Bu bədənlə ödənən
At qamçısı ilə beş yüz zərbədir,
Beş yüz- itaətə aparan"
Üçüncü dəfə onun yanına gələr,
Üçüncü dəfə onun üstünə oturar,
Bu bədənlə ödənən
At qamçısı ilə yeddi yüz zərbədir,
Yeddi yüz- itaətə aparan".

**16. Dördüncü dəfə onun yanına gələr,**
Dördüncü dəfə onun üstünə oturar,
Əgər paltarının altına sürünsə,

Əgər murdarlanmış budlara girsə,
Amma toxum buraxmasa ,
Onun cəzası nədir?
Dedi Ahura Mazda:
“Bu bədənlə ödənən
At qamçısı ilə
doqquz yüz zərbədir,
Doqquz yüz- itaətə aparan”

**17. O kəs, kim ki heyzli,**
İfraztlı, qanlı qadına
toxum buraxır,
Yaxşı əməl törətmir,
Necə ki kimsə bıçaqla vurulmuş
Oğlunun meyitini yağda qızardır.

**18. Bütün yalançılar,**
Təbəssüm edən drujlar
Təlimlərə əməl etmirlər.
Bütün təlimlərə
Əməl etməyənlər
Tam itaətsizlik edir.
Bütün tam itaətsizliklər
Haqsızdır.
Bütün haqsızlıqlar bədənlə ödənir”.

# Frahard-Bölmə 17

# SAÇ VƏ DIRNAQ-LARLA RƏFTAR QAYDALARI

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
Ahura Mazda, Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Hansı insan devalara
itaət edərək,
Ən çox məhv etməni
Və ölümü törədir?

**2. Dedi Ahura Mazda:**
"O kəs ey mömin Zərdüşt,
Kim ki bu cismani dünyada
Saçını darayır.
Dırnağını kəsdirir.
Sonra onları çuxurlara,
Yuvalara atır.

**3. Və yerin bu yarıqlarında**
Devalar peyda olur,
Və yeri bu yarıqlarında
Sürünənlər peyda olur.
Hansı ki insanlar
Onları bit adlandırır,
Hansı ki anbarlarda taxılı,
Sandıqda paltarı yeyirlər.

**4. Ancaq haçan, ey Zərdüşt,**
Bu cismani dünyada
Saçını qırxanda,
Dırnaqlarını kəsəndə,
Sonra onları mömin ərdən
On addım, oddan

iyirmi addım,
Sudan otuz addım,
Uzadılmış baresmandan
Əlli addım (kənara) apar.

**5. Orada bərk yerdə on barmaq,**
Yumşaq yerdə on iki barmaq
Dərinliyində çuxur qaz.
Onları (ora) burax və Zərdüştün
Bu qalibiyyətli sözlərini de:
“ Və onun üçün Aşa ilə Mazda
Bitkilər yetişdirdi.”(Yasna 48: 6)

**6. İstənilən Güclə (dəmir bıçaqla)**
Ətrafında üç dəfə, altı dəfə,
Doqquz dəfə şırım çək.
Ahuna Varyanı üç, altı, və ya
Doqquz dəfə oxu.

**7. Dırnaqlar üçün**
Evin xaricində çuxur qazın.
Hansi ki kiçik barmağın
ilk oynağı kimi.
Onları ora burax
Və Zərdüştün bu qalibiyyətli
Sözlərini de:
Aşa ilə, Xeyirxah Fikirlə,
Hansı ki mən
Zahidlər arasında
Məşhur oldum.(Yasna-33:7)

**8. İstənilən Güclə (dəmir bıçaqla),**
Ətrafında üç dəfə, altı dəfə,
Doqquz dəfə şırım çək.
Ahuna Varyanı Üç, altı və ya
Doqquz dəfə oxu.

**9. ”Sənə, ey Aşo-zuşta**
(“əziz Aşa”-bayquş),
Bu dırnaqları mən bəyan
edirəm.
Bu dırnaqlara mən
Həsr edirəm.
Sənin ucundan bu dırnaqlar,
Ey Aşo-zuşta quşu,
Nizəyə, bıçağa, yaya,
Qartal lələklərindən
Olan oxlara,
Mazan devalarına
Atılan oxlara çevriləcək”.

**10. Əgər bu dırnaqları**
Elan etməsən,
Onda onlar
Nizəyə, bıçağa, yaya,
Qartal lələklərindən
Olan oxlara,
Mazan devalarına
Atılan oxlara çevriləcək”

**11. Bütün yalançılar,**
Drujlarla bədəndə
Təlimlərə riayət etmir.
Bütün təlimlərə
Əməl etməyənlər
Tam itaətsizlik edir.
Bütün itaətsizliklər
Tam haqsızdır.
Bütün haqsızlıqlar
Bədənlə ödənilir”

**Ən Yaxşı Həqiqət Ən Yaxşı olandır.**

# Frahard-Bölmə 18

# YALANÇI KAHİNLƏR VƏ HƏQİQİ KAHİNLƏR

**1. Belə dedi Ahura Mazda:**
“Ey Spitama Zərdüşt,
Çoxlu insanlar
Paitidananı (ağız sarğısını)
Yalnış taxırlar.
Kəmərsiz, yalançı dinlə
Özlərini atravan adlandırırlar.
Ey Spitama Zərdüşt,
Onlara atravan deməyin-
Belə dedi Ahura Mazda.

**2. Hravstrahna**
(Sürünənləri öldürən)
Yalnış geyinir,
Kəmərsiz yalançı dinlə
Özünü atravan adlandırır.
Ey Spitama Zərdüşt,
Onlara atravan deməyin.

**3. Bitki yalnış geyinir,**
Kəmərsiz yalançı dinlə
Özünü  atravan adlandırır.
Ey Spitama Zərdüşt,
Onlara atravan deməyin-
Belə dedi Ahura Mazda.

**4. Əclaf bəla geyinir,**
Kəmərsiz yalnış dinlə
Özünü atravan adlandırır.
Ey Spitama Zərdüşt,
Onlara atravan deməyin-
Belə dedi Ahura Mazda.

**5. Bütün gecəni ehtiram etmədən,**
Tərənnüm etmədən,
Oxumadan, ifa etmədən,
Öyrənmədən, öyrətmədən
Yataraq (Çinvad Körpüsündə)
Ruhları sayaraq qazanmaq üçün
Yalandan özlərini
Atravan alandırırlar,
Ey Spitama Zərdüşt,
Onlara atravan deməyin-
Belə dedi Ahura Mazda.

**6. Ey Spitama Zərdüşt,**
O kəsə atravan deyin
Kim ki bütün gecəni
Davamlı olaraq
Ağıl haqqında soruşur,
Qandallardan azad olur,
Boş yer yaradır,
Çinvad Körpüsündən
Keçməklə firəvanlıq gətirən
(Yeni) həyata çatan,
Aşaya çatan
Ən Yaxşı Dünyada
Ən yaxşısına nail olur.

**7. Məndən dürüst soruş,**
Müqəddəs Yaradandan,
Hər şeyi biləndən,
Ən cavablı sualı.
Belə sən daha çox
Yaxşılıq əldə edəcəksən.
Sən daha çox müqəddəs
olacaqsan,
Əgər məndən soruşsan".

**8. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
Ahura Mazda, Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən haqq olan.
Dağıdıcı təhlükə nədir?

**9. Dedi Ahura Mazda:**
“Ey Spitama Zərdüşt,
Haçan pis iman öyrədəndə,
O kəs ki üç yaz
Kəmər bağlamayanda,
Qatlar oxunmayanda,
Yaxşı sulara
Ehtiram göstərilməyəndə.

**10. Və o kəs ki**
Bu qandallanmış adamı
Azadlığa buraxır,
Yaxşı hərəkət etmir,
(Bu) onun başını
Kəsməkdən pisdir.

**11. Bir pis, imansız aşemaoqa**
Üçün xeyir- dua
Ağızlardan çıxmayacaq,
İkisi-ağızlardan çıxmayacaq,
Üçü-heç nə,
Dördü-özləri özlərini
lənətləyəcək.

**12. Kim bir pis,**
İmansız aşemaoqoya
Sıxılmış haoma versə,
Müqəddəs saydığı
Myazda versə,
Elə bil min atlını

Möminlərin kəndinə aparıb,
Kişiləri öldürüb,
Heyvanları
Zindana qovmaqdan
Daha pis əməldir”.

### PARODARŞ QUŞU İTAƏTKARLIĞIN İCRAÇISI

**13. Məndən dürüst soruş,**
Müqəddəs Yaradandan,
Hər şeyi biləndən.
Ən cavablı sualı,
Beləliklə daha çox
Yaxşılıq əldə edəcəksən.
Beləliklə sən,
Daha müqəddəs olarsan,
Əgər məndən soruşsan”

**14. Soruşdu Zərdüşt**
Ahura Mazdadan:
“Ahura Mazda, Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Sraoşavazda (itaətə aparan),
Sraoşa mükafatçısı,
Sraoşa cəsarətlisi
Ahuranın Mantrasını
Oxuyan kimdir?

**15. Dedi Ahura Mazda:**
“Parodarş adlı ( görən) bir quş,
Ey Spitama Zərdüşt,
Hansı ki pis insanlar
Onu Karkatac (xoruz, toyuq)
Adlandırır.
O, canlanan sübh çağında
Səsini ucaldır:

**16. ”Qalxın insanlar,**
Yaxşı Aşanı tərifləyin,
Devaları lənətləyin.
Buşyansta(tənbəllik),
Uzunayaqlı sizə tərəf yalvarır,
O, işıq saçan kimi
Bütün dünyanı yuxuya verir:
“Uzun yat, ey insan,
Hələ vaxt deyil”.

**17. Üç ən yaxşı şeyə**
Diqqət yetirməyin:
Xeyirxah fikrə,
Xeyirxah sözə,
Xeyirxah əmələ.
Üç ən pis şeyə
Diqqət yetirin:
Pis fikrə,
Pis sözə,
Pis  əmələ”.

**18. Gecənin birinci**
Üçdə birində
Ahura Mazda Odu
Evin sahibindən soruşur:

**19. ”Evdəki ev sahibi,**
Mənə kömək et!
Paltarını geyin,
Əllərini yu, odun tap,
Onları mənə gətir,
Məni yuyulmuş əllərinlə
Təmiz odunla yandır.
Devaların yaratdığı tamahkarlıq
Görünür həyatımı
Götürmək istəyir”.

**20. Cecənin ikinci**
Üçdə birində
Ahura Mazda Odu
Çobandan soruşur:

**21. ”Heyvandar-çoban,**
Mənə kömək et.
Paltarını geyin,
Əllərini yu, odun tap,
Onları mənə gətir,
Məni yuyulmuş əllərinlə,
Təmiz odunla yandır.
Devaların yaratdığı tamahkarlıq
Görünür həyatımı
Götürmək istəyir”.

**22. Gecənin üçüncü üçdə birində**
Ahura Mazda Odu
Mükafatlandıran Sraoşadan
soruşur:
“Ey mükafatlandıran
Mehriban Sraoşa,
Kömək edin!
Cismani dünyadan kimsə mənə
Yuyulmuş əlləri ilə
Təmizlənmiş odun gətitir.
Devaların yaratdığı
Tamahkarlıq görünür
Mənim həyatımı
Götürmək istəyir”.

**23. Mükakafat verən Sraoşa**
O Parodarş adlı quşu oyadır.
Ey Spitama Zərdüşt,
Hansı ki pis insanlar
Onu Karkatac adlandırırlar.
O, canlanan sübh çağında
Səsini qaldırır:

**24. Qalxın, insanlar,**
Ən Yaxşı Aşanı tərifləyin.
Devaları lənətləyin.
Buşyansta (tənbəllik)
Uzunqulaqlı sizə tərəf yalvarır.
O, işıq saçan kimi
Bütün dünyanı yuxuya verir:
"Uzun yat, ey insan,
Hələ vaxt deyil!

**25. Üç ən yaxşı şeyə**
diqqət yetirməyin:
Doğru fikrə,
Doğru sözə,
Doğru əmələ.
Üç ən pis şeyə
Diqqət yetirin:
Pis fikrə,
Pis sözə,
Pis əmələ"

**26. Yoldaşı yataqda yatan**
Yoldaşına deyəcək:
"Qalx, o, məni oyadır!"
Kim birinci qalxsa,
Ən Yaxşı Dünyaya çatar.
Kim birinci
Yuyulmuş əlləri ilə
Təmizlənmiş odunu
Ahura Mazdanın Oduna gətirsə,
Razı qalan, düşmən olmayan,
Doymuş o Od xeyir- dua verəcək.

**27. "Bir sürü heyvan,**
Çoxlu insan gələcək sənə.
Təsir edən fikir gələcək sənə,
Hərəkətli varlıqla

Ən xoşbəxt həyat sürərsən,
O gecələri, hansı ki sən yaşarsan”
Bu Odun xeyir-duasıdır (ona),
Kim ki ona işıqla seçilmiş,
Aşanın ritualı ilə ,
Təmizlənmiş, quru odun gətirir.

**28. Kim mənim bu quşlarımdan**
Bir cütünü, ey Spitama Zərdüşt,
Dişi və erkəyini
Mömin ərə, Yaxşı Aşaya görə
Bağışlasa,
Bu yüz sütunlu, min dirəkli,
On min açılışlı,
On min pəncərəsi olan,
Bir ev bağışlamaq kimidir.

**29. Kim mənim Parodarş quşumun**
Bədəni ölçüsündə
Ət verərsə,
Mən Ahura Mazda
Ondan heç vaxt
Başqa sözlər soruşmaram
Sən Ən Yaxşı Dünyaya
keçəcəksən.

**DRUJUN DÖRD ERKƏYİ VAR**

**30. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq soruşdu:
“Ey nankor, aciz druj!
Tək sən
Bütün cismani dünyadan
Cinsi əlaqə olmadan doğursan”?

**31. Və burnunda**
Ona deva druj:

“Mükafat verən,
Mehriban Sraoşa!
Cismani dünyadan
Mən cinsi əlaqə
Olmadan doğurmuram .
Çünki mənim
Dörd erkəyim var.

Onlar məni elə örtürlər,
Necə ki başqa erkəklər
Toxumunu dişilərə buraxır”

**33. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq soruşdu:
“Ey nankor, aciz druj!
Bu erkəklərdən hansı birincidir?”

**34. Və burnunda**
Ona deva druj:
“Mükafat verən,
Mehriban Sraoşa!
Mənim bu erkəklərimdən
Birincisi odur ki,
Kim ki hətta kiçik,
Layiqli hədiyyəni
Yalvaran mömin ərə
verməz.

**35. Onlar məni elə örtürlər,**
Necə ki başqa erkəklər
Toxumlarını dişilərə buraxır”.

**36. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq soruşdu:
“Ey nankor, aciz druj!
Buna qarşı hansı
Əks hərəkət vardır?”

**37. Və burnunda**
Ona deva druj:
“Mükafat verən,
Mehriban Sraoşa!
Buna qarşı əks hərəkət
 vardır:
Əgər ər kiçik, layiqli
Hədiyyəni yalvaran
Mömin ərə versə.

**38. O, elə içimdəki dölü vurur,**
Necə ki dördayaqlı canavar
Balanı bətndən qoparır.

**39. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq soruşdu:
“Ey nankor, aciz druj!
Bu erkəklərdən
Hansı ikincidir?”

**40. Və burnunda**
Ona  deva druju:
“Mükafat verən,
Mehriban Sraoşa!
Mənim bu erkəklərimdən
İkincisi odur ki,
Kim ki ayaqları boyu
Ayaqlarının uzunluğuna qədər
İdrar edir.

**41. Onlar məni elə örtürlər**
Necə ki başqa erkəklər
Toxumu dişilərə buraxır”

**42. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq
 soruşdu:

"Ey nankor, aciz druj!
Ona qarşı hansı
Əks əməl vardır?"

**43. Və burnunda**
Ona deva druju:
"Mükafat verən,
Mehriban Sraoşa!
Ona qarşı əks əməl var:
Əgər ər üç addımlıqda durub
Üç dəfə Aşanı tərifləsə,
İki dəfə Humatanamı,
Üç dəfə Huhşatratemani tərifləsə,
Sonra dörd dəfə
Ahuna Vairyanı oxusa,
Yənhe –hatamı
Ehtiramla başa çatdırsa.

**44. O, belə içimdəki**
Dölü vurur,
Necə ki
Dördayaqlı canavar
Balanı bətnindən qoparır.

**45. Mükafat verən Sraoşa**
Druju gürzlə
Basaraq soruşdu:
"Ey nankor, aciz druj!
Bu erkəklərdən hansı
üçüncüdür?"

**46. Və burnunda**
Ona deva druj:
"Mükafat verən,
Mehriban Sraoşa,
Mənim bu erkəklərimdən
Üçünüsü odur ki,

Kim ki yatarkən
Toxum buraxir.

**47. Onlar məni elə örtür,**
Necə ki başqa erkəklər
Toxumu dişilərə buraxır”.

**48. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq
 soruşdu:
“Ey nankor, aciz druj!
Ona qarşı hansı
Əks həmlə vardır?”

**49. Və burnunda**
Ona deva druj:
“Mükafat verən,
Mehraban Sraoşa!
Ona qarşı əks həmlə var:
“Əgər yuxudan
Oyandıqdan sonra
Ər üç dəfə Aşanı tərifləsə,
İki dəfə Humatanamı,
Üç dəfə Huhşatrotemanı
 tərifləsə,
Dörd dəfə Ahuna Vairyanı
 oxusa,
Yanhe-hatamla
Ehtiramla başa çatdırsa.

**50. Dördayaqlı canavar**
Uşağı ana bətnindən
Qoparan kimi
İçimdəki dölü vurur.

**51. Və o, Müqəddəs Armaitiyə,**
(Möminliyə) deyəcək:
Müqəddəs Armaiti,
Bu əri sənə verirəm.
Bu əri sən
Qatları və Yasnanı
Qüdrətli şəkilləndirə biləcək,
Suallara cavab verə biləcək,
Müdrik bacarıqlı,
Mantraları təcəssüm
Edə biləcək biliklərlə
Mənə qaytararsan.

**52. Və sən ona**
Oddan yaradılmış,
Oddan yaranmış
Və ya Od qəbiləsi,
Odlar Ölkəsi
Və ya başqa oddan yaradılmış
Ad ver.

**53. Mükafat verən Sraoşa**
Druju gürzlə basaraq
soruşdu:
"Ey nankor, aciz druj,
Bu erkəklərdən
Hansı dördüncüdür?"

**54. Və burnunda ona**
Deva druj:
"Mükafat verən,
Mehriban Sraoşa!
Mənim bu erkəklərimdən
Dördüncüsü on beş yaşına
Çatdıqdan sonra
Kəmərsiz və köynəksiz
səndələyən
Kişi və qadınlardır.

**55. Onlar dörd addım**
Atdıqdan sonra
Biz, devalar dərhal dil
Və yağla qarışırıq.
Bundan sonra onlar
Özbaşına Aşanın
Canlı yaratdıqlarını
Məhv edirlər.
Necə ki
Bidətçilər, cadügərlər
Aşanın canlı yaratdıqlarını
Məhv edirlər.

**56. Mükafat verən Sraoşa**
Druju qəzəblə basaraq
soruşdu:
"Ey nankor, aciz druj,
Ona qarşı hansı
Əks əməl vardır?"

**57. Və burnunda**
Deva druj dedi:
"Mükafat verən,
Mehriban Sraoşa!
Buna qarşı əks hərəkət
yoxdur.

**58. Əgər kişi və qadın**
On beş yaşına
Çatdıqdan sonra
Kəmərsiz, köynəksiz
səndələsə,

**59. Bundan sonra**
Onlar dörd addım atır,
Biz devalar dərhal
Dil və yağla qarışırıq.

Bundan sonra
Onlar özbaşına
Aşanın canlı yaratdıqlarını
Məhv edirlər.
Necə ki
Bidətçilər, cadügərlər
Aşanın canlı yaratdıqlarını
Məhv edirlər.

**ƏXLAQSIZ - AHURA MAZDANIN DÜŞMƏNİDİR.**

**60. Məndən dürüst soruş,**
Müqəddəs Yaradandan,
Hər şeyi biləndən
Ən Cavablı sualı.
Belə sən daha çox
Yaxşılıq əldə edəcəksən,
Sən daha çox
Müqəddəs olacaqsan,
Əgər Məndən soruşsan".

**61. Ahura Mazdadan**
Sorusdu Zərdüşt:
"Ahura Mazda,
Müqəddəs Ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
Səni ən çox
Məyus edən kimdir?"
Sənə ən çox
Düşmən olan kimdir?"

**62. Dedi Ahura Mazda:**
"Əxlaqsız (qadın),
Ey Haqq olan Zərdüşt,
Hansı ki

Bacarıqlının və bacarıqsızın,
Devapərəst olanın,
Devapərəst olmayanın,
Bədəni ilə ödəyənin,
Bədəni ilə ödəməyənin
Toxumunu qarışdırır.

**63. O, nəzəri ilə**
Kanallarda axr suların
Üçdə birini dayandırır,
Ey Zərdüşt, o, nəzəri ilə
Böyüyən gözəl ,
Yaşıl bitkilərin
Artımının üçdə birini alır.

**64. O, nəzəri ilə**
Müqəddəs Armaitinin
Məhsuldarlığının
Üçdə birini alır, ey Zərdüşt,
Nə vaxt uzananda
O, gücün, qalibiyyətin,
Mömin ərin möminliyinin,
Çox xeyirxah fikirlərinin,
Xeyirxah sözlərinin,
Xeyirxah əməllərinin,
Üçdə birini alır, Ey Zərdüşt.

**65. Mən sənə deyirəm, Ey Zərdüşt,**
Onlar öldürməyə
Qıvrılan ilanlardan,
Ulayan canavardan,
Canlılara hücum edən
Dişi canavardan,
Suya hücum edən
Minlərlə balalayan
Qurbağalardan daha
Daha layiqdirlər.

## HEYZLİ QADINLA YAXINLIQ ETMƏNİN GÜNAHININ ÖDƏMƏ İLƏ TƏMİZLƏNMƏSİ

**66. Məndən dürüst soruş,**
Müqəddəs yaradandan,
Hər şeyi biləndən,
Ən savablı sualı.
Belə sən daha çox
Müqəddəs olacaqsan,
Əgər məndən soruşsan"

**67. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
"Ahura Mazda ,
Müqəddəs Ruh,
Cismani canlıların yaradanı
Sən Haqq olan,

Kim heyzli, axıntılı,
Qanlı olan qadına,
Bilərəkdən, fərqinə vararaq
Şüurlu şəkildə toxum buraxsa"

**68. Bunun cəzası nədir?**
Bunu necə ödəyəcəkdir?
Necə əməllə o
Etdiklərini düzəldəcəkdir?"

**69. Dedi Ahura Mazda:**
Kim heyzli, axıntılı ,
Qanlı olan qadına
Bilərəkdən, fərqinə vararaq
Şüurlu şəkildə
Toxum buraxsa.

**70. Min müxtəlif**
Heyvan balası
Qoy bağışlasın.
Yaxşı Aşada
Od mərasiminə
Səmimi gətirsin.
Yaxşı sularla yağ gətirsin.

**71. Yaxşı Aşada**
Qoy Oda min dəstə
Bərk, düz, seçilmiş odun
gətirsin.
Yaxşı Aşada qoy Oda
Odunu urvasna,
Və ya Vohu –kereta,
Və ya Hadanaepata,
Və ya hər hansı
Ətirli ağacdan gətirsin.

**72. Yaxşı Aşada**
Qoy min səcdə
Baresmanı toplasın.
Yaxşı Aşada qoy
Yaxşı sulara
Təmizlənmiş, süzülmüş,
Bacarıqla təmizlənmiş,
Bacarıqla süzülmüş,
Haoma və südlə
Hansı ki
Hadanaepata ilə qarışdırılmış
Min ayin gətirsin

**73. Qoy qarnında poza verən**
Min ilan öldürsün.
Qoy iki min başqalarını
öldürsün.

Qoy iki min şişirdilmiş
Qurbağa öldürsün.
Qoy iki min taxıl daşıyan
Qarışqanı öldürsün.
Və iki min başqalarını
öldürsün.

**74. Qoy miqrasiya**
Çayları üzərindən
Otuz körpü salsın.
Qoy at qamçısı ilə
İki min zərbə alsın,
İki min-itaətə aparan.

**75. Bunun cəzası budur,**
Bunun ödəməsi budur,
Belə bir hərəkətlə
O, baş vermişləri
İslah edə bilər.

**76. Əgər o, bunu islah etsə,**
Haqq Dünyasına düşəcək.
Əgər islah etməsə,
O, qatı zülmətdən gələn
Qaranlığa, Yalan Dünyasına
düşəcək".

# Frahard – Bölmə 19

ZƏRDÜŞTÜN DEVALARA
QARŞI ÇIXMASI.
UNİVERSAL PEŞƏ.
ÖLÜMDƏN SONRA
RUHUN TALEYİ.

**1. Şimal tərəfin şimalından**
Çaşqın, çoxölümlü,
Devalar devası
Belə ki burnunda
Pis əməlli, çoxölümlü
Şər ruh ( dedi):
"Ey druj , ovsunla, məhv et,
Mömin Zərdüştü"
Druj ovsunladı,
Deva Buiti təhlükəlidir,
Məhv edəndir, yalançıdır.

**2. Zərdüşt Ahuna Vairyanı**
**oxudu**.
**Necə ki Varlığın layiqli Rəbbi kimi,**
Elə Rat da Aşa ilə razılıqdadır,
Rat Xeyirxah Fikrə təslimdir,
Əməllər Mazdadadır,
Ancaq Hakimiyyət –Ahuradır.
Kim yoxsullara Çoban qoyulacaq.

Vahvi Datinin xeyirxah sularını
izzətləndirdi.
Mazdayasna İnancını elan etdi.
Aşılmış druj yaltaqlandı,
Deva Buiti təhlükəlidir,
Məhv edicidir, yalançıdır.

**3. Druj ona burnunda:**
"Əzab verən pis ruh!
Mən çoxhvarnolu
Mömin Zərdüştü
Necə öldürəcəyimi görmürəm.

Zərdüşt fikirləşərək gördü:
Yalançı, pis niyyətli devalar
Məni ölümə məhkum
Etmək üçün məsləhətləşirlər.

**4. Zərdüşt ayağa qalxdı.**
Zərdüşt pis düşüncədən,
Düşmən süi-qəsdlərinin
Ağırlığından qorxmadan
Yerindən tərpəndi:
Əlində ev ölçüsündə
Daşlar tutdu.
Mömin Zərdüşt (gücü)
Yaradan Ahura Mazdadan
 aldı:
Onları bu geniş, dairəvi,
Uzaqda harada saxlayırsan?
Dreji sahilində,
Poruşaspanın evində.

**5. Zərdüşt şər ruha dedi:**
Pis niyyətli şər ruh!
Mən devaların yaratdığı
Yaradılışları öldürəcəyəm.
Mən devaların yaratdığı
Cəsəd murdarlığını
 öldürəcəyəm.
Mən pairiki Hantaitini
 öldürəcəyəm.
Hansı ki ( ona) qarşı
Kansava suyunda
Qalibiyyət gətirən Səoşyant
Şərqin Şərqində doğulacaq.

**6. Ona cavab olaraq,**
Hansı ki pisləri yaradan
Şər ruh burnunda:

“Mənim yaratdıqlqarımı
Məhv etmə, ey saleh Zərdüşt!
Sən ana bətnindən (doğulan)
Poruşaspanın  oğlu adlandırıldın.
Xeyirxah Mazda İnancından
İmtina et.
Hədiyyə almaq üşün
Necə ki ölkə hökmdarı
Vadaqan etdi”.

**7. Spitama Zərdüşt**
Ona cavab verdi:
Mən Xeyirxah Mazda
İnancından imtina etmərəm.
(Hətta) mənim bədənim,
Mənim nəfəsim,
Mənim şüurum dağılsa belə”

**8. Pisləri yaradan şər ruh**
 Burnunda ona cavab olaraq:
“Hansı sözlə
Sən qalib gələcəksən?
Hansı sözlə
Sən üz döndərəcəksən?
Hansı yaxşı
Hazırlanmış silahla-
Mənim, şər ruhun
 Yaratdıqlarına?”

**9. Spitama Zərdüşt ona**
 cavab verdi:
“Həvəngdəst ilə,
Fincanla, haoma ilə,
Sözlə,
Mazdanın dediyi ilə-
(Budur ) mənim
Ən yaxşı silahım.

Bir sözlə mən
Qələbə qazanaram.
Bir sözlə mən
Üz döndərəcəyəm,
Bu yaxşı hazırlanmış silahla.
Mən qalib gələcəyəm,
Ey pis niyyətli şər ruh.
Bunu Müqəddəs Ruh etdi,
Sonsuz zaman etdi,
Ölməz Müqəddəslər etdi,
Xeyirxah fəzilətlilər etdi

**10. Zərdüşt Ahuna Varyanı oxudu:**
**Necə ki Varlığın layiqli Rəbbi kimi,**
Elə Rat da Aşa ilə razılıqdadır,
Rat Xeyixah Fikrə təslimdir,
Əməllər Mazdadadır,
Ancaq Hakimiyyət –Ahuradır,
Kim yoxsullara Çoban qoyulacaq.

Dedi mömin Zərdüşt:
Bunu mən səndən soruşuram,
Doğrunu mənə de, Ahura!

**11. Dreji sahilində oturan Zərdüşt,**
Ahura Mazdadan,
Xeyir sahibi olan
Ahura Mazdadan,
Ən Yaxşı Aşadan,
Ədalətli Hakimiyyətdən,
Müqəddəs Möminlikdən
 soruşdu:
Ahura Mazda, Müqəddəs Ruh,
Cismani canlıların yaradani-
Sən Haqq olan.

**12. Mən onları bu drujdan,**
Bu pis niyyətli şər ruhdan
Necə qoruyum?
Birbaşa və dolayı
Murdarlanmanın qarşısını
Necə alım?
Mən bu
Mazda möminləri kəndində
Cəsəd murdarlığının
Qarşısını necə alım?
Mən möminləri
Necə təmizləyim?
Mən mömin qadını
Necə təmizləyim?"

**13. Dedi Ahura Mazda:**
"Çağır bura, ey Zərdüşt,
Mazdanın Xeyirli İnancını,
Çağır bura, ey Zərdüşt,
Qoy yeddi karaşvardan
İbarət olan yer üzünə
Ölməz Müqəddəslər gəlsinlər.
Çağır bura
Öz-özünə yaranmış məkanı,
Çağır bura
Sonsuz zamanı,
Çağır bura
Yüksək hərəkətli Vayunu,
Çağır bura, ey Zərdüşt,
Gümrah küləyi,
Çağır bura
Mazdanın yaratdığı
Müqəddəs Möminliyi-
Ahura Mazdanin
Gözəl qızını.

**14. Çağir bura, ey Zərdüşt,**
Mən Ahura Mazdanın
Fravaşisini,
Onu ən böyük, ən yaxşı,
Ən gözəl, ən möhkəm,
Ən ağıllı, ən xeyirxahını,
Kimin ki ruhu
Müqəddəs Mantradır,
Özün çağır bura , ey Zərdüşt,
Bu yaradılış
Ahura Mazdanındır.

**15. Mən bura dolu hvarnolu**
Müqəddəs Mantranı
çağırıram.
Mən öz-özünə yaradılmış
Məkanı çağırıram.
Mən sonsuz zamanı
çağırıram.
Mən yüksək hərəkətli
Vayunu çağırıram.
Mən gümrah küləyi
çağırıram.
Mən Mazdanın yaratdığı
Müqəddəs Möminliyi-
Ahura Mazdanın
Gözəl qızını çağırıram...
Mən Mazdanın
Xeyirxah İnancını-
Zərdüştün devalara qarşı
İnancını çağırıram".

**17. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
"Yaxşılığın yaradıcısı,
Ahura Mazda,
Mən necə ehtiramla

Ahura Mazdanın
Bu yaratdıqlarına
Ehtiram göstərim?

**18. Dedi Ahura Mazda:**
“Gəl, ey Spitama Zərdüşt,
Gözəl kanallı, qüdrətli,
Bitən, artan bitkilərin yanına,
Və bu sözləri söylə:
Haqq olan Mazdanın
Yaratdığı yaxşı bitkilərə
baş əy:
Yaxşı Həqiqət Ən Yaxşı olandır,
Xoşbəxtlik var, xoşbəxtlik o kəsə,
Ən Yaxşı Həqiqət üçün Həqiqətdir”.

**19. Qoy o, gavahın uzunluğunda,**
Taxıl qalınlığında
Baresman toplasın.
Kəsilmiş uclarını
Kəsmək gərək deyil.
Qoy mömin ərlər
Ayağa qalxsınlar,
Onu sol əlində tutub
Ahura Mazdaya,
Ölməz Müqəddəslərə,
Sarı haomaya,
Uca, gözəl, Xeyirxah Fikrə,
Yaxşı alicənablığa, səxavətə,
Mazdanın ən yaxşı,
Saleh yaratdıqlarına
Ehtiram göstərsinlər”.

**20. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
Hər şeyi bilən Ahura Mazda,
Sən ayıqsan,

Sən sərxoş deyilsən,
Ahura Mazda,
Xeyirxah Fikir
Birbaşa murdarlanır,
Mürdarlanmış
Xeyirxah Fikri
Təmizləyə bilərəmmi?”

**21. Dedi Ahura Mazda:**
“Qomez qanuna uyğun olaraq
Bağlanmış öküzdən
alınmalıdır.
Sən Ahuranın yaratdığı
Yeri təmizləyəcəksən.
Sonra ərin ətrafında
Şırım çəkilməlidir,
Hansı ki təmizlənir.

**22. Aşaya yüz tərif oxu**
İki dəfə Ahuna Vairyanı oxu.
Dörd dəfə
Əsl inək qomezi ilə,
İki dəfə Mazdanın
Yaratdığı su ilə yuyulmalıdır.

**23. Xeyirxah Fikir təmizlənəcək,**
İnsan təmizlənəcək,
Xeyirxah Fikrə
Sol əllə və  sağ əllə,
Sağ əllə və sol əllə
Paltar götürməlisən.
Sən Xeyirxah Fikri
Yaradılmış qüdrətli işığa,
Ulduzlara qoyarsan,
Hansı ki
Verənin yaratdıqları
Doqquz gecə keçənə qədər
Onun üzərinə işıq saçar.

**24. Doqquz gecədən sonra**
İçkini oda gətirin,
Bərk odunu oda gətirin,
Yaxşı qoxunu oda gətirin,
Və Xeyirxah Fikrin
Yaxşı qoxusu olacaq.

**25. Xeyirxah Fikir təmizlənəcək,**
İnsan təmizlənəcək.
Xeyirxah Fikrə
Sol əllə və sağ əllə,
Sağ əllə və sol əllə
Paltar götürsünlər,
Xeyirxah Fikir deyəcək:
"Ahura Mazdaya baş əyirəm,
Digər möminlərə baş əyirəm!"

**26. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
"Hər şeyi bilən, Ahura Mazda!
Göndərimmi mömin kişini,
Göndərimmi mömin qadını,
Göndərimmi devalara
İbadət edən,
Qısa ömürlülərdən
Yalançı insanı,
Yalançı insanı,
Yer üzündə yayımmı
Ahura Mazdanın yaratdığı
Axan suyu, artan çörəyi,
Digər sərvətləri yayımmı?"
Dedi Ahura Mazda:
"Birbaşa, Ey mömin Zərdüşt".

**27. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
"Ahura Mazda,
Müqəddəs Ruh,

Cismani canlıların yaradanı-
Sən Haqq olan.
O hədiyyələr harada
olacaq?
O hədiyyələr harada
ödəniləcək?
O hədiyyələr harada olacaq?
O hədiyyələr harada
yığılacaq?
Hansı ki insan
Cismani dünyada
Öz ruhu üçün ehtiyat saxlar"

**28. Dedi Ahura Mazda:**
"İnsanın ölümündən sonra,
Ondan sonra, necə də
Yalançı, pis niyyətli devalar
Mərhumun ruhunu
qoparacaqlar.
Üçüncü gecə gələcək,
Parlayan şəfəq parlayacaq,
Dağların yaxşı ərazilərində
Aşa yaxşı silahlı Mitranı
ucaldacaq,
Parlayan Günəşi yüksəldəcək.

**29. Çıxacaq gözəl, incə, şən,**
Taclı, yaxşı xasiyyətli (qız)
İtlərlə, zinət əşyaları ilə,
Bacarıqla, məharətlə.
O, yalançıların ruhunu
Pis qaranlığa atır.
O, möminlərin ruhunu
Hara Bərəzaitidən qaldırır,
Çinvad körpüsündən keçirir,
Ruhani yazatların keçidindən
keçirir.

**31. Xeyirxah Fikir**
Qızılla bəzədilmiş
Taxtından qalxacaq,
Xeyirxah Fikir deyəcək:
“Sən necə, ey mömin,
Təhlükəli dünyadan
Bizə, təhlükəsiz dünyaya
gəldin!”

**32. Möminlərin razı ruhları**
Ahura Mazdaya,
Ölməz Müqəddəslərə,
Qızılla bəzədilmiş taxt-taca,
Mahnı Evinə,
Ahura Mazdanın dərgahına,
Ölməz Müqəddəslərin
məskəninə,
Digər Möminlərin
Məskəninə gəlir.

**33. Ölümündən sonra**
Təmizlənmiş mömin-
Yalançı devalar, pis niyyətlilər
Onun qoxusundan qorxur,
Canavar tutmuş qoyun
Canavardan qorxan kimi”.

**34. Mömin ərlər toplanacaq.**
Nairo-Sanqha qoşulacaq,
Ahura Mazdanın xəbərçisi.
Nairi Sanqhaya deyin!
Özün çağır bura , ey Zərdüşt,
Bu Ahura Mazdanın yaratdığıdır!

**35. Zərdüşt mənə artımı göstərdi:**
“Mən bura Ahura Mazdanı,

Haqq olanı,
Yaradılışı yaradanı çağırıram.
Mən bura Ahuranın
Yaratdığı torpağı,
Ahuranın yaratdığı suyu,
Saleh bitkini çağırıram.
Mən bura Vourukaş
Dənizini çağırıram.
Mən bura günəşli
Səmanı çağırıram.
Mən bura sonsuz
Öz-özünə yaradılmış
Parlaqlığı çağırıram.

**36. Mən bura parlaq,**
Hər şeyi yaxşı,
Ən yaxşı mömin dünyanı
çağırıram.
Mən bura Mahnı Evini
Çağırıram-
Ahura Mazdanın dərgahı,
Ölməz Müqəddəslərin məkanı,
Digər möminlərin məkanıdır.
Mən bura öz-özünə yaradılmış
Qarışıq Yeri,
Mazdanın yaratdığı
Çinvad körpüsünü çağırıram.

**37. Mən bura geniş gözlü,**
Yaxşı parıltını çağırıram.
Mən bura bütün yaratdıqlarıma
Xilas edici xəbərə malik
Mömin, qüdrətli fravaşini
çağırıram,
Mən bura
Ahuranın yaratdığı
Vərtrahnanı çağırıram,

Hansı ki
Mazdanın yaratdığı
Hvarnonu gətirəndir.
Mən bura
Parlaq hvarnolu ,
Qızıl buynuzlu,
İnək görkəmində görünən
Tiştri ulduzunu çağırıram.

**38. Mən bura**
Örnək hakimiyyətə
malik olan
Saleh, Müqəddəs Qatları
çağırıram.
Mən bura
Qat -Ahunavitini çağırıram.
Mən bura
Qat-Uştavaitini çağırıram.
Mən bura
Qat-Uştavaitini çağırıram.
Mən bura
Qat-Spntamainyunun çağırıram.
Mən bura
Qat-Vohuhşatranı çağırıram.
Mən bura
Qat-Vahitoiştini çağırıram.

**39. Mən bura**
Arəzahi və Savahi
Karşıvarını çağırıram.
Mən bura Fradadafşu,
Badadafşu karşıvarını
çağırıram.
Mən bura
Vouru-bareştini,
Vouru-careştini çağırıram.
Mən bura

Parıldayan Hvaniratanı
 çağırıram.
Parlaq hvarnolu
Haetumantı çağırıram.
Mən bura
Yaxşı şüurun
Yaxşı mükaftını çağırıram.
Mən bura
Ədalətli şüuru çağırıram.
Mən bura
Ariya ölkələrinin
Hvarnosunu çağırıram.
Mən bura
Yaxşı sürüləri olan
Yimanı çağırıram.

**40. Ehtiramlı, razı,**
Mükafat verən, xoşxasiyyətli,
Qalibiyyət gətirən
Sraoşa mehriban qarşılandı.
Oda içkini gətir,
Oda bərk ağacı gətir,
Oda ətirli maddə gətir,
Ehtiram göstər,
Deva Spencahranı döyən
Ən hərəkətli Oda,
Məhsul bolluğndan
Dadlı yeməklər gətir.

**41. Mükafat verən Sraoşaya**
Ehtiram göstər.
Sraoşa məst edən
Kündəsini döyür,
Devalara ehtiram edən,
Qısa yaşayan,
Yalançı insanın
Yalan yuvasını

Alt-üst edir.
Ən yaxşı ölkələri təmizləyir,
Otlaqlara çoxlu heyvan,
İnəyə yem verir.

**42. Mən bura**
Sualtı balıq Karanı çağırıram,
Hansı ki
İndi suların dərinliyindədir.
Mən bura
Öz-özünə yaranan
Ruhani yaradılışlardan
Döyüşdə dayanıqlı
Dırnağı çağırıram.
Mən bura
Yeddibuynuzlunu ,
Parıldayan oğlanları ilə,
Hansı ki
Onun taclarıdır- çağırıram.

**43. Qışqırdı, qusdu,**
Düşündü, xəyal etdi
Çox ölümlü şər ruh,
Devalar devası (belə devalar):
İndra devadır,
Sauru devadır,
Nanqhaiti devadır,
Taurvi və Zairi ,
Aeşma qanlı nizədir,
Akataşa devadır.
Qış devaların yaratdığıdır,
Təhlükə məhvedicidir,
Qocalıq pisaldanmışlıqdır,
(Onlara o,)sillə vurdu.

**44. Belə pis niyyətli**
Şər ruhlu deva burnunda:
“Yığıncağa biz yalançı,
Pis niyyətli devalar
Arazura başında toplaşarıq!”

**45. Yaltaqlandı burnunda**
Yalançı, pis niyyətli devalar,
Gurladı burnunda
Yalançı, pis niyyətli devalar,
Pis yalan burnunda
Yalançı, pis niyyətli devalar:
“Bu yığıncağa
Arazuranın başında toplaşaq!”

**46. Mömin Zərdüşt**
Poruşaspanın evində doğuldu.
Biz onu məhv etmək üçün
Hansı vasitəni tapa bilərik?
O, devalara qarşı silahdır.
O, devaların düşmənidir,
Druju məhv edəndir.
Devalara ehtiram edən,
Cəsəd murdarlığı,
Devaların yaratdığı,
Dürüst olmayan
Yalan zədələnmişdir”.

**47. Burnunda yaltaqlandı**
Yalançı, pis niyyətli devalar,
Qorxulu, murdar,
Qaranlıq dünyanın
Dibinə yuvarlandılar.

**Yaxşı Həqiqət Ən yaxşı olandır.**

# Frahard – Bölmə 20

# İLK ŞƏFA VERƏN TRİTA

**1. Ahura Mazdadan**
Soruşdu Zərdüşt:
Ahura Mazda,
Müqəddəs ruh,
Cismani canlıların yaradanı-
Sən Haqq olan.
İnsanlardan kim
Birinci həkimdir.
Mahir, bacarıqlı,
Möcüzəli, parlaq, şən,
Önə çəkilmiş?
Xəstəliyin xəstəliyini
dayandırmış,
Ölümdən gələn ölümü
dayandırmış,
Hərəkət edən nizəni
dayandırmış,
İnsan bədənindəki
Alovlu istilyi
dayandırmış?

**2. Dedi Ahura Mazda:**
"Trita insanlardan
Birinci həkimdir,
Ey Spitama Zərdüşt,
Mahir, bacarıqlı,
Möcüzəli, parlaq,
Gümrah, önə çəkilmiş,
Xəstəliyin xəstəliyini
dayandırdı,
Ölümdən gələn ölümü
dayandırdı,
Hərəkət edən nizəni

dayandırmış,
İnsan bədənindəki
Atəşli istiliyi dayandirdı.

**3. O, havadan gələn**
Bu hədiyyə üçün
Güc istədi (metal alətlər)
Hansı ki
Xəstəliyə qarşı dursun,
Ölümə qarşı dursun,
Hərarətə qarşı dursun,
Qızdırmaya qarşı dursun,
Bairəyə qarşı dursun,
Ajivaka qarşı dursun,
Astaira qarşı dursun,
Xarab olmaya, çürüməyə,
İnfeksiyaya qarşı dursun,
Hansı ki şər ruhun
İnsanın bədəninə vurduğudur.

**4. Sonra Mən, Ahura Mazda**
Çoxlu şəfa verən
Bitkilər yığmışam-
Yüzlərlə, minlərlə,
On minlərlə bir (ağacda)-
Qaokernada

**5. Bütün bu( ağaca)**
Biz xeyir-dua veririk,
Bütün bu (ağaca ) dua edirik,
Bütün bunlara (ağaca)
İbadət edirik
İnsan bədəninə görə.

**6. Xəstəliyə qarşı durmaq,**
Ölümə müqavimət göstərmək,
Hərarətə müqavimət göstərmək,

Qızdırmaya müqavimət
 göstərmək,
Baş ağrısına müqavimət
 göstərmək,
İltihaba və infeksiyaya
Müqvimət göstərmək,
Ajana qarşı
Müqvimət göstərmək,
Ajahva qarşı
Müavimət göstərmək,
Dairəyə qarşı
Müqavimət göstərmək,
Ajivaka qarşı
Müqavimət göstərmək,
Astaira qarşı
Müqavimət göstərmək,
Xarab olmaya, çürüməyə qarşı
Müqavimət göstərmək,
Yoluxmaya qarşı
Müqavimət göstərmək-
Hansı ki şər ruhun
İnsanın bədəninə vurduğudur.

**7. Xəstəlik, sənə qarşı**
Müqavimət göstəirirəm,
Ölüm, sənə qarşı
Müqavimət göstərirəm,
Hərarət, sənə qarşı
Müqavimət göstərirəm,
Qızdırma, sənə qarşı
Müqavimət göstərirəm,
Baş ağrısı, sənə qarşı
Müqavimət göstərirəm,
İltihab, sənə qarşı
Müqavimət göstərirəm,
Ajan, sənə qarşı
Müqavimət göstərirəm,

Ajahva sənə qarşı
Müqavimət göstəririrəm,
Dairə, sənə qarşı
Müqavimət göstəririrəm,
Ajivaka, sənə qarşı
Müqavimət göstəririrəm,
Astaira, sənə qarşı
Müqavimət göstəririrəm,
Fəsad, sənə qarşı
Müqavimət göstəririrəm.

**8. Böyümə ilə**
Hansı ki biz drujun
Öhdəsindən gələcəyik,
Böyümə ilə
Hansı ki bəli biz drujun
Öhdəsindən gələcəyik-
Qüdrətli (güc) ver mənə,
Ey Ahura Mazda.
(Yasna 31:40)

**9. Mən xəstəliyi aradan qaldırıram,**
Mən ölümü aradan
qaldırıram,
Mən hərarəti aradan
qaldırıram,
Mən qızdırmanı aradan
qaldırıram,
Mən baş ağrısını aradan
qaldırıram,
Mən iltibahı aradan
qaldırıram,
Mən ajanı aradan
qaldırıram,
Mən dairəni aradan
qaldırıram,

Mən ajivakanı aradan
qaldırıram,
Mən astairanı aradan
qaldırıram,
Mən xarab olmanı aradan
qaldırıram,
Mən çürüməni aradan
qaldırıram,
Mən yoluxmanı aradan
qaldırıram,
Hansı ki şər ruhun
İnsanın bədəninə
vurduğudur.

**10. Mən bütün xəstəlikləri**
**Və ölümü,**
Bütün sehrbazları,
Pairikiləri.
Bütün yalançı qadınları
Aradan qaldırıram.

**11. Bəli tezliklə Zərdüştün**
Kişilərinə, qadınlarına,
Xeyirxah Fikrə dəstəyə
Airyaman gələcək,
Hansı ki sayəsində
İnanc layiqli
Mükafat qazanacaqdır.
Mən Aşanın mükafatına
Dua edirəm,
Hansı ki
Ahura Mazdadan
Göndərilməyə layiq görüldü.
(Yasna54:1)

**12. Bəli-airema-işya**
Bütün xəstəlik və ölümü,
Bütün sehrbazları,
Pairikiləri,
Bütün yalançı qadınları vurar.

**13. Necə**
**Varlığın layiqli Rəbbi kimi,**
Rat da Aşa ilə razılıqdadır,
(Rat) Xeyirxah Fikrə təslimdir,
Əməllər Mazdadadadır
Ancaq Hakimiyyət –Ahuradır,
Hansı ki yoxsullara Çoban
 qoyacaqdır.
Kimi , ey Mazda, mənim kimi
Sən müdafiəçi təyin edəcəksən.
Haçan yalançı mənə
Pislik etmək niyyətində olsa,
Sənin Odundan,
Sənin Fikrindən başqa
Aşa kimin əməlləri ilə
Qidalanıb, ey Ahura.
Bu bacarığı mənim İnancımın
Xatirinə bəyan et.

Varlıqlqrın təlimini
Qorumaq üçün
Maneələri kim qıracaq.
Ey varlığın Şəfaçısı,
Mənə Rat verəcəyinə
Açıq söz ver.
Və bəli ona Xeyirxah Fikirlə
Sraoşa-Qulaqasan gələcək,
Ey Mazda, o kəsə və hər kəsə,
Kimi ki sən dilərsən.

**14. Bizi düşmənçilikdən**
Qoruyun, ey Mazda,
Ey Armaiti-
Müqəddəs Möminlik.
Yox ol deva yalanı!
Yox ol deva toxumu!
Yox ol devanın yaratdığı!
Yox ol deva yaradılışı!
Yalan, yox ol!
Yalan, yox ol, rədd ol!
Yalan, get rədd ol!
Uzaq şimala yox ol!
Sən Aşanın
canlı yaratdıqlqarını
Məhv edə bilməzsən!

**Yaxşı Həqiqət Ən Yaxşı olandır,**
**Xoşbəxtlik var, xoşbəxtlik o kəs üçün,**
**Ən Yaxşı Həqiqət üçün Həqiqətdir.**

# Frahard – Bölmə 21

# SU İLƏ ŞƏFA VERMƏ. GÜNƏŞ, AY, ULDUZLAR.

**1. Təzim sənə, Müqəddəs İnək,**
Təzim sənə, fəzilətli İnək,
Təzim sənə, böyüyən,
Təzim sənə, artan,
Təzim sənə.
Pay verən ən yaxşı dindara,
Övladsız dindara,
Hansı ki onu əxlaqsız qadın,
Ölümlü, yalançı tiran
Məhv edir.

**2. Buludlar gəlsin,**
Gəlsin, axar suyu,
Yeraltı suyu,
Atmosfer suyunu,
Min axını,
On min şırnağı gətirsin.
Bəli sən deyərsən,
Ey Zərdüşt,
Xəstəlik yox olar,
Ölüm yox olar,
Qadın xəstəliyi yox olar,
Qadın ölümü yox olar,
Sürünənlər, apaqadelər
Yox olar.

**3. Əgər səhər öldürürsə,**
Axşam şəfa verir;
Əgər axşam öldürürsə,
Gecə şəfa verir;
Əgər gecə öldürürsə,
Səhər şəfa verir;

Yağışda yeni su,
Yeni torpaq, yeni bitki,
Yeni dərman, yeni şəfa
Vermə düşür.

**4. Vourukəş dənizi kimi,**
Hansı ki
Sular məcmusudur,
Qalx, atmosferi yerlə birləşdir,
Yeri atmosferlə,
Qalx qasırğada fırlan,
(Sən), kimin doğuşunda,
Kimin böyüməsində
Hava məkanını yaratdın
Ahura Mazda.

**5. Yüksəl, ey Parlayan Günəş,**
Uca Yaradan,
Yaradılışlar arasında parla.
Yüksəl, Mazdanın yaratdığı
Hava məkanında.
Sən Qordomana[1] gedən,
Bəxş edənin verdiyi
Dağınıq bir yoldasan.

**6. Və onun qarşısında pislikdir.**
Lakin onun qarşısında
Müqəddəs Mantra var.
İndi sənin doğuşunu,
Sənin böyüməyini
Mən yuyuram.
Sənin bədənini,
Sənin gücünü
Mən təmizləyirəm,
Səni oğullarla,
Südlə dolu edirəm.

**7. Yağla dolu, südlə dolu,**
Qaymaqla dolu, yağla dolu,
Beyinlə dolu,
Nəsillərlə dolu,
Sənin min açarını
İndi mən təmizləyirəm,
Sinən içində axır,
Hansı ki uşaq böyürür.

**8. Vourukəş dənizi kimi,**
Hansı ki sular məcmusudur,
Qalx, atmosferi yerlə birləşdir,
Yeri də atmosferlə,
Qalx, qasırğada fırlan,
Sən doğuşunda,
Kimin böyüməsində
Hava məkanını yaratdın,
Ahura Mazda.

**9. Yüksəl ,ey Ay-**
Buğa[2] toxumundan,
Uca Yaradan yardılış
Arasında parla.
Yüksəl, sən Ahura Mazdanın
Yaratdığı hava məkanında
Bəxş edənin verdiyi
Qordomana gedən
Dağılmış yoldasan.

**10. Və onun qarşısında pislikdir,**
Lakin onun qarşısında
Müqəddəs Mantra var.
İndi sənin doğuşunu,
Sənin böyüməyini
Mən yuyuram,
Sənin gücünü,

Sənin bədənini
Mən təmizləyirəm,
Mən səni oğullarla,
Südlə dolu mən edirəm.

**11. Südlə dolu, yağla dolu,**
Qaymaqla dolu, yağla dolu
Beyinlə dolu, nəsillərlə dolu,
Sənin min açarını
İndi mən təmizləyirəm,
Sinə içində axır,
Hansı ki uşaq doyurur.

**12. Vourukəş dənizi kimi,**
Hansı ki sular məcmusudur,
Qalx, atmosferi yerlə birləşdir,
Yeri də atmosferlə,
Qalx, qasırğada fırlan,
(Sən) kimin doğuşunda,
Kimin böyüməsində
Hava məkanını yaratdın,
Ahura Mazda.

**13. Yüksəlin, o yüksəlişlə,**
Ey dərin ulduzlar,
Suların toxumunu saxlayın,
Uca Yaradan
Yaradılış arasında parlayın.
Yüksəlin, siz Ahura Mazdanın
Yaratdığı hava məkanında
Bəxş edənin verdiyi
Qardomana gedən
Dağılmış yoldasız.

**14. Və onun qarşısında pislikdir.**
Lakin onun qarşısında
Müqəddəs Mantra var.

İndi sənin doğuşunu,
Sənin böyüməyini
Mən yuyuram,
Sənin bədənini,
Sənin gücünü
Mən təmizləyirəm,
Səni oğullarla,
Səni südlə dolu mən edirəm.

**15. Yağla dolu, südlə dolu,**
Qaymağla dolu, yağla dolu,
Beyinlə dolu,nəsillərlə dolu,
Sənin min açarını
İndi mən təmizləyirəm,
Sinə içində axır,
Hansı ki uşaq doyurur.

**16. Vourukəş dənizi kimi,**
(Hansı ki) sular məcmusudur,
Qalx, atmosferi yerlə birləşdir,
Yeri də atmosferlə,
Qalx qasırğada fırlan,
(Sən) kimin doğuşunda,
Kimin böyüməsində
Hava məkanını yaratdın,
Ahura Mazda.

**17. Yüksəl, qalx!**
Yoxluğun qarşısı alındı!
Sonsuzluğun qarşısı alındı!
Sehrbaz əxlaqsızın qarşısı
alındı!

**18. Mən xəstəliyi**
Aradan qaldırıram,
Mən ölümü aradan
qaldırıram,

Mən hərarəti aradan
qaldırıram,
Mən qızdırmanı aradan
qaldırıram,
Mən baş ağrısını aradan
qaldırıram,
Mən iltibahı aradan
qaldırıram,
Mən ajanı aradan
qaldırıram,
Mən ajahvanı aradan
qaldırıram,
Mən dairəni aradan
qaldırıram,
Mən ajivakanı
Aradan qaldırıram,
Mən astairanı aradan
qaldırıram,
Mən xarab olmanı,
Çürüməni, infeksiyanı
Aradan qaldırıram,
Hansı ki şər ruhun
Ölümlünün-insanın
Bədəninə vurduğudur.

**19. Mən hər xəstəliyi, ölümü,**
Bütün sehrbazları ,
Bütün pairikiləri,
Bütün yalançı qadınları
Aradan qaldırıram.

**20. Bəli tezliklə Zərdüştün**
Kişilərinə, qadınlarına,
Xeyirxah Fikrə dəstəyə
Airyaman gələcək,
Hansı ki sayəsində
İnanc layiqli mükafat

qazanacaqdır.
Mən Aşanın mükafatına
dua edirəm,
Hansı ki Ahura Mazdadan
Göndərilməyə layiq görüldü.
(Yasna 54:1)

**21. Bəli vurur A-airema-işya**
Bütün xəstəlikləri, ölümü,
Bütün sehrbazları,
Bütün pairikiləri,
Bütün yalançı qadınları.

**22. Necə ki Varlığın layiqli Rəbbi kimi,**
Rat da Aşa ilə razılıqdadır,
(Rat) Xeyirxah Fikrə təslimdir,
Əməllər Mazdadadır
Və Hakimiyyət Ahuradır,
Kimi yoxsullara Çoban qoyacaqdır,

Kimi, ey Mazda, mənə
Sən müdafiəçi təyin edəcəksən,
Haçan yalançı mənə
Pislik etmək niyyətində olduqda,
Sənin Odundan, sənin Fikrindən
başqa,
Aşa kimin əməlləri ilə
Qidalanıb, ey Ahura,
Bu bacarığı mənim
İnancımın xatirinə bəyan et.

Varlıqların təlimini
Qorumaq üçün
Maneələri kim qıracaq?
Ey varlığın Şəfaçısı ,
Mənə Rat verəcəyinə
Açıq söz ver,

Və bəli ona Xeyirxah Fikirlə
Sraoşa- Qulaqasan gələcək,
Ey Mazda, o kəsə və hər kəsə,
Kimi ki sən dilərsən.

**23. Bizi düşmənlərdən**
Qoruyun, ey Mazda,
Ey Armaiti-Müqəddəs Möminlik.
Yox ol deva yalanı!
Yox ol deva toxumu!
Yox ol devanın yaratdığı!
Yox ol deva
Yalan , yox ol!
Yalan, yox ol, rədd ol!
Yalan, get rədd ol!
Uzaq şimalda yox ol!
Sən Aşanın
Canlı yaratdıqlarını
Məhv edə bilməyəcəksən!
Yaxşı Həqiqət Ən Yaxşı olandır,
**Xoşbəxtlik var, Xoşbəxtlik o kəs üçün,**

# Frahard – Bölmə 22

# ŞƏFA VERƏN AİRYAMAN

**1. Ahura Mazda**
Dedi Spitama Zərdüştə:
Mən Ahura Mazdayam,
Mən yaxşı şeylərin
yaradıcısıyam,
Hansı ki bu gözəl, işıqlı,
Görkəmli evi yaratdım,
Ona daxil olmaq və
Xaric olmaq üçün.

**2. Amma yaramaz Mənə baxdı,**
Alçaq pis ruh çoxölümlü
Mənə qarşı doqquz,
Doxsan, doqquz yüz,
Doqquz min, doqquz on min
Xəstəlik törətdi.
Mənə şəfa ver,
Çoxhvarnolu Müqəddəs Mantra!

**3. Mən buna görə dərhal sənə**
Sürətli qaçan
Min at verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.
Mən buna görə dərhal sənə
Sürətli qaçan
Min donqarlı dəvə verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

**4. Mən buna görə dərhal sənə**
Min qara günahsız
İnək verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur,
Mən buna görə dərhal sənə
Müxtəlif rəngdə min dişi,
Xırda heyvan verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

**5. Mən sənə gözəl bir nemətlə**
Xeyir-dua verirəm,
Dostluqla mükəmməl nemət,
Hansı ki başı doldurur,
Dolana qədər doldurur,
Sağlam olmayanları bağlayır,
Xəstəni sağlam edir.

**6. Ona cavab verdi çoxhvarnolu**
Müqəddəs Mantra:
Mən səni necə sağaldım?
Mən səni doqquz, doxsan,
Doqquz yüz, doqquz min,
Doqquz on min xəstəlikdən
Necə qoruyum?

**7. Nairo-Sanqhaya**[2]
Müraciət etdi
Yaradan Ahura Mazda:
Bəlağətli Nairo-Sanqha!
Get, Airamanın evinə uç,
Bunu Airamana çatdır.:

**8. Bunu sənə Haqq olan**
Ahura Mazda elan edir:
"Mən Ahura Mazdayam,
Mən yaxşı şeylərin
yaradanıyam,
Hansı ki bu gözəl, işıqlı,
Görkəmli Evi yaratdım,
Ona daxil olmaq,
Və xaric olmaq üçün.

**9. Amma yaramaz mənə baxdı:**
Alçaq pis ruh çoxölümlü
Mənə qarşı doqquz,
Doxsan, doqquz yüz,
Doqquz min, doqquz on min
Xəstəlik törətdi.
Mənə şəfa ver, tezliklə,
Ey Airyaman!

**10. Mən buna görə dərhal sənə**
Sürətli, çevik qaçan
Min at verərəm,
Sənə ehtitam edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.
Mən buna görə dərhal sənə
Sürətli  qaçan
Min donqarlı dəvə verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

**11. Mən buna görə dərhal sənə**
Qara günahsız min inək verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

Mən buna görə dərhal sənə
Müxtəlif rəngdə min dişi,
Xırda  heyvan verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

**12. Mən sənə gözəl bir nemətlə**
Xeyir-dua verirəm,
Dostluqla mükəmməl nemət,
Hansı ki boşu doldurur,
Daşana qədər doldurur,
Xəstə  olmayanları bağlayır,
Xəstələri sağlam edir.

**13. Bu sözləri yerinə yetirərək,**
Bəlğətli Nairo-Sanqha
Airyamanın evinə getdi, uçdu,
Bunu Airyamana çatdırdı:

**14. Bunu sənə Haqq olan**
Ahura Mazda elan edir:
"Mən Ayhura Mazdayam,
Mən yaxşı şeylərin yaradanıyam,
Hansı ki bu gözəl, işıqlı,
Görkəmli evi yaratdım,
Ona daxil olmaq,
Və xaric olmaq üçün.

**15. Amma yaramaz mənə baxdı,**
Alçaq, çoxölümlü pis ruh
Mənə qarşı doqquz, doxsan,
Doqquz yüz, doqquz min,
Doqquz on min
Xəstəlik törətdi.
Mənə şəfa ver,
Tezliklə, ey Airyaman!

**16. Mən buna görə dərhal sənə**
Sürətli, çevik qaçan
Min at verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.
Mən buna görə dərhal sənə
Sürətli qaçan min donqarlı
Dəvə verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

**17. Mən buna görə dərhal sənə**
Qara günahsız min inək
verərəm,
Sənə ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.
Mən buna görə dərhal sənə
Müxtəlif rəngdə, min dişi,
Xırda heyvan verərəm,
Mən ehtiram edirəm,
Ey Mazdanın yaratdığı
Yaxşı pak nur.

**18. Mən sənə gözəl bir nemətlə**
Xeyir-dua verirəm,
Dostluqla mükəmməl nemət,
Hansı ki boşu doldurur,
Xəstə olmayanları bağlayır,
Xəstələri sağlam edir.

**19. Bu tez baş verdi,**
Çox çəkmədi,
Hansı ki çalışqan Airyaman

Tez dağa, meşəyə
Müqəddəs söhbətə gəldi.

20Tezliklə Airyaman
Doqquz ayğır hədiyyəsi gətirdi,
Tezliklə Airyaman
Doqquz dəvə hədiyyəsi gətirdi,
Tezliklə Airyaman
Doqquz öküz hədiyyəsi gətirdi,
Tezliklə Airyaman
Doqquz çubuq hədiyyəsi gətirdi,
Doqquz şırım çəkdi.

**21. Mən xəstəliyi aradan qaldırıram,**
Mən ölümü aradan qaldırıram,
Mən hərarəti aradan qaldırıram,
Mən qızdırmanı aradan qaldırıram,
Mən baş ağrısını aradan qaldırıram,
Mən iltihabı aradan qaldırıram,
Mən ajanı aradan qaldırıram,
Mən ajahvanı aradan qaldırıram,
Mən quruqanı aradan qaldırıram,
Mən ajivakanı aradan qaldırıram,
Mən astairanı aradan qaldırıram,
Mən xarab olmanı, çürüməni,
İnfeksiyanı aradan qaldırıram,
Hansı ki şər ruh ölümlünün-
İnsanın bədəninə yeritdi.

**22. Mən hər cür xəstəlikləri, ölümü,**
Bütün sehrbazları, pairikiləri,
Bütün yalançı qadınları
Aradan qaldırıram.

**23. Bəli tezliklə Airyaman**
Zərdüştün kişilərinə və qadınlarına,

Xeyirxah Fikrə dəstəyə gələcək,
Hansı ki sayəsində İnanc-Din
Layiqli mükafat qazanacaqdır.
Mən Aşanın mükafatına
Dua edirəm,

Hansı ki Anura Mazdadan
Göndərilməyə layiq görüldü. (Yasna 54:1)

**24. Bəli A-airəma-işya**
Hər cür xəstəliyi və ölümü,
Bütün sehrbazları, pairikiləri,
Bütün yalançı qadınları vurar.

**25. Necə ki**
Varlığın layiqli Rəbbi kimi,
Rat da Aşa ilə razılıqdadır,
(Rat) Xeyirxah Fikrə təslimdir,
Əməllər Mazdadadır
Və Güc –Anuradır,
Kimi yoxsullara çoban
qoyacaqdır?
Kimi, ey Mazda , mənə
Sən müdafiəçi təyin edəcəksən,
Haçan yalançı mənə
Pislik etmək niyyətində olduqda,
Sənin Odundan,
Sənin Fikrindən başqa,
Aşa kimin əməlləri ilə
Qidalanır, ey Ahura?
Bu bacarığı mənim İnancımın
Xatirinə bəyan et.
Varlıqların təlimini
Qorumaq üçün maneələri
Kim qıracaq?
Ey varlığın Səfaçısı,
Mənə Rat verəcəyinə

Açıq söz ver,
Və bəli Xeyirxah Fikirlə
Sraoşa – Qulaqasan gələcək,
Ey Mazda, o kəsə və hər kəsə,
Kimi ki sən arzulayırsan.

**26. Bizi düşmənlərdən**
Qoruyun, ey Mazda,
Ey Armaiti-Müqəddəs Möminlik.
Yox ol, deva yalanı!
Yox  ol, deva toxumu!
Yox ol, deva yaradan!
Yox ol, deva!
Yalan, yox ol!
Sən Aşanın
Canlı yaratdıqlarını
Məhv edə bilməyəcəksən!

**Yaxşı Həqiqət Ən Yaxşı olandır,**
**Xoşbəxtlik var, Xoşbəxtlik**
**O kəs üçün,**
**Ən Yaxşı Həqiqətə görə Həqiqətdir.**
**Bir yol var- Həqiqət yolu!**
**Bütün digər yollar- yolsuzluqdur!**

## L Ü Ğ Ə T

“Lüğət”ə  xüsusi adlar daxildir. Əksəriyyəti coğrafi adlar, terminlər, reallıqlar ki, tərcümə olunmuş “Videvdat”da və bölmələrinə yazılmış qeydlərdə rast gəlinir.

**“Avesta”**– avesta dilində Zərdüşt dininin  müqəddəs kitablar toplusu.

**Ahura Mazda** – zərdüştizmin ali tanrısı, eyni ilə, ehtimalən “Müdrik Tanrı”, “Bilik Mayası”(sonrakı forması Hörmüzd) adlanır.

**Ahura** – hakim tanrı; devalara düşmən, Ahura Mazdanın ixtisar edilmiş forması.

**Ahura Mazda Odu** – icra etdiyi funksiyasına görə dəyişən, atəşgahlarda yanan, Həqiqəti ayıran, Əjdahaya qarşı vuruşan, Zərdüşt təlimində əsas ünsür.

**“Ahuna Vairya”, “Ahunvar”**– zərdüştizmin ən müqəddəs duası. “Necə ki ən yaxşı Tanrı”  sözləri ilə başlayır, zərdüştilər üçün o əhəmiyyəti daşıyır, necə ki xristianlar üçün “Bizim ata”, müsəlmanlar üçün Quranın birinci surəsi önəmlidir.

**Anhra Man** – “Şər Ruh” Ahura Mazdaya qarşı olan, Həqiqətin, bütün gözəl dünyanın düşməni.

**Ariyanam Vaeja** – bütün arilərin mifik, əfsanəvi ilk vətəni, eynən “ariya ərazisi” və ya “ariya miqyası” deməkdir ki, Vahvi-Datiya (Xeyirli gözəl Datiya) çayının ətrafında yerləşdiyi ehtimal olunur. Vahvi-Datiya həm də vəhylə verilmiş deməkdir.

**Airyaman** – Şəfa verən, Ahura Mazda tərəfdarı.

**Ari, ariyalılar** – Hind-İran tayfaları özlərini “ariya” adlandırırlar. Eramızdan qabaq ikinci minillikdə onların bir hissəsənin

(hind) Hindistana hərəkət etdikləri güman edilsə də, son elmi nəticələr onların səkkiz-on iki min il qabaq Hindistanda yaşadıqlarını bildirir. Ancaq Şərqi Avropada, orta və Mərkəzi Asiyada qalanlar müxtəlif İran xalqlarını –skifləri, midiyalıları, sakları, farsları yaratdılar.

**Ameşa** – Spenta-Ölməz Müqəddəslər-Ahura Mazdanın altıköməkçisi, hansı ki O, Müqəddəs Ruhun ("Spenta Man") köməyi ilə onları birinci yaratdı: Vohu Man- "Yaxşı Fikir", Aşa- Vahişta- "Yaxşı Həqiqət", Spenta Aramayti- "Müqəddəs Möminlik", Hşatra-Varya- "İstənilən Hakimiyyət", Harvatat-"Bütövlük", Ameretat- "Ölməzlik",

Ahura Mazdanın başçılığı ilə onlar yeddilik yaratdılar və himayədarlıqlarını bütün yeddi gözəl yaratdıqlarına- insana, heyvana, oda, yerə, göyə, suya və bitkilərə edirdilər.

**Aşa** – Həqiqət (ehtimalən Arta, Rta) ədalət, qayda-qanun, zərdüştizmin əsas anlayışı, bütün sahələrdə Druqa (bax, Yalan) qarşı olan, hamını sülhlə idarə edər. Aşa- Vahişta- Yaxşı Həqiqət – Ölməz Müqəddəslərdən biri və duanın adı. "Videvdat"a görə Ahura Mazda insanları Həqiqətin toxumundan yaratdı.

**Aeşma daeva** – Qəzəb, acıq, qeyz, oğruluq devası. Anhra Manın ordusunda Həqiqətə qarşı vuruşan.

**Arazura Yalı** – şər ruhların, devaların toplaşdığı dağlıq ərazi.

**Asta Vidota –** şər ruhun əsas devalarından biri.

**Atravan** – odu qoruyan kahin, dini mərasimlərin icrasına rəhbərlik edir.

**Bahdi –** Bavri- Üçbaşlı Əjdahanın hakimlik etdiyi ölkə, lakin o, Traytaon tərəfindən öldürülmüşdür. Bu adı Babillə də eyniləşdirirlər.

**Barsman** – baresman- ayin zamanı ruhaninin əlində tutduğu çubuq dəsti, müasir zərdüşti ayinlərində məftillərdən istifadə olunur.

**Buiti** – təhlükəli deva.

**Buşyasta** – Tənbəllik- devaların tərəfdarı.

**Daeva** – daevalar, divlər, şeytanlar.

**Daxma** – dairəvi tikilmiş çox hündür, üstü açıq və hamar tikili, hansı ki üstünə cəsədlər qoyulurdu ki, quşlar yesin, sümüklər isə günəşin hərarətindən məmnun olurdu.

**Dreji çayı** – Poruşaspanın evinin yanından axır. Lerik-Lənkəranda bitişik olan Derıji adında ərazi mövcüddür.

**Druj** – cəsədi murdarlayan, pislik, yalanın, devaların cəbhəsində vuruşan, Sraoşanın əlində əsir qalan, sonda təmizlənmiş cəsədi tərk edən.

**Ərdvi** – bütün suların məcmusu, çayların dənizlərin, okeanların yazatı, adətən Surə epiteti (Güclü) və Anahita "Yatmayan, Ləkələnməmiş, Təmiz". Ərdvi Surə Ahahitaya beşinci yəşt həsr edilmişdir.

**Ən Yaxşı Dünya** – vəişt, behişt, cənnət.

**Fravaşi** – ruh, doğulmamışdan əvvəl mövcüd olan və öləndən sonra yaşayan möminlərin ruhu, qoruyucu mələklər, insanlara kömək etmək qabiliyyətindədirlər, buna görə də köməyə çağrılırlar.

**Haoma** – bitki, içki, ondan (qızılgözlü Haoma) hazırlanır, görünür bu ayin içkisinin müxtəlif bitkilərlə südün qatışığından hazırlanması və istifadə edilməsi zərdüştizmdə ibadətin əsas hissəsini təşkil edir. Haoma içkisi məst etmə təsirinə malik deyil, oyandırma, həyəcan, həvəs təsirinə malikdir. Bu içki şairlərə

ilham verir, döyüşçüləri qorxmaz edirdi. Spitama Zərdüşt özü valideynləri Haoma içəndən sonra məhəbbətlə ana bətnində mayalandı.

**Hara** – əfsanəvi dağlar, yeri əhatə edir. Hara Bərəzayti adı sözbəsöz "Uca Hara" deməkdir, sonralar bu ad Elburs- Elborz dağlarına aid edilmiş ki, Şimali İrandadır və Qafqazda olan Elbrusa da aid edilmişdir.

(Hər iki ad "Avesta"dan gəlir). Uca Hara və yaxud Haraytinin əsas təqdimatında ola bilsin Himalay, Pamir- Hindquş haqqında xatirələr yatır.

**Hvarno** – ən parlaq, xoşbəxt olan, Hvarnoya sahib olan ən qüdrətli şəxsə çevrilirdi.

**Hnent** – vehrkanların yaşayış məskəni. Hal-hazırda bu ərazilər Talış dağlarında və Elburzdədir.

**Hörmüzd** – Ahura Mazda adının sonrakı forması.

**Qaokerna** – əfsanəvi ağacın adı. Ağ haomaya oxşarlığı var. Əfsnələrə əsasən ehtimal olunur ki, bu çaşır bitkisidir. Hansı ki südlü şirənin hazırlanmasında istifadə olunur. Qədim dövrlərdə bu şirə hədsiz dərəcədə dərman vasitəsi kimi qiymətli idi.

"**Qatlar**"– şeirlə yazılmış dini nəğmələr, Zərdüşt peyğəmbərin özü tərəfindən hazırlanmışdı. "Yasna"nın ən müqəddəs hissəsinə daxildir.

**Kansava** – göldür, hansı ki Zərdüştün ailəsi orada qorunur. Xəzər dənizi olma ehtimalı məqbul sayılmalıdır.

**Karşipt quşu** – Ahura Mazdanın vəhylərini ilk dəfə hökmdar Yimaya gətirmişdir.

**Karşvar** – Zərdüştizmə görə bütün məskunlaşan dünya yeddi hissəyə- karşvara (iqlimə, əraziyə), sonrakı forması kişvərə ("ölkə") bölünür.

**Kuşti** – zərdüştilərin daşıdığı yun ipdən hazırlanmış müqəddəs qurşaq.

**Mantra** – "Müqəddəs söz"lər, dualar toplusu.

**Mazda** – Ali Tanrı olan Ahura Mazdanın öz adı. Eynən "Müdrik Tanrı", "Bilik Mayası" deməkdir.

**Mazdayasna** – Mazda dini , mazdayasnaçılar-Ahura Mazdaya dua oxuyan və ehtiram edənlər.

**Mahnı Evi** – Müqəddəs Məkan; Ahura Mazdanın dərgahında yerləşir.

**Mitra** – müqavilə yazatı. Günəşə sitayişlə bağlıdır, Ona onuncu yəşt həsr edilmişdir.

**Nariya Sanqha** – gözəl quş, Ahura Mazdanın xəbərçisi.

**İndra** – "Avesta"da şər qüvvələri təmsil edir. Hind "Veda"larında dörd Tanrıdan birinin adı.

**Çinvad Körpüsü** – ölümündən sonra hər kəsin keçəcəyi daralıb enlənən körpü.

**Parodarş quşu** – sübh çağı insanları yuxudan qaldıran, zərdüşti inancına görə o öz səsi ilə hər gün sübh çağı minlərlə pis devanı öldürür. Daha çox xoruza və toyuğa bənzədilir

**Pairik Xantait** – ona qalib gələcək Səoşyant Kansava gölündən baş qaldıracaq.

**Poruşaspa** – Spitama ailəsindəndir. Spitama Zərdüştün atası.

**Puitik dənizi** – Vourukaş dənizinə tökülən kiçik dəniz. Etık-axıb tökülən deməkdir.

**Raman –** sülh və əminamanlıq yazatı, heyvanların himayəçisi.

**Ranha –** çay adı, ehtimalən, Sırdərya (Yaksart) ilə eyniləşdirilir, yunan mənbələrinə əsasən skifdə Ra-indiki adı Volqa; avest. Onu da əlavə edək ki, Ranha çay adını Farha-Fəradla da eyniləşdirmək olar.

**Ratu** – təqribən "başçı, sahib, hakim" deməkdir, hər nəslin, tayfanın, qəbilənin, toplumun canlı (cansız əşyaların da) öz Ratuları vardır.

**Raşna** – Raşn (a), nizam-intizam və ədalət yazatı, öləndən sonra insanların ruhunu mühakimə edən, əlində tərəzi tutan hakim və onların yaxşı fikirlərini, sözlərini, əməllərini çəkir.

**Xeyirxah Fikir** – onu Ahura Mazda yaratdı, şər fikrə qarşı döyüşürdü.

**Saura** – deva, pisliyin yardımçısı.

**Soqd** – Soqdiana Zərəfşan çayının orta və aşağı axarında vilayət.

**Spenta –** ağ, müqəddəs, gözəl, xeyirli, faydalı.

**Sonsuz Zaman** – kainatda hər şey onun əhatəsindədir. Canlıdır, qüdrət sahibidir.

**Spenta Armaiti** – Müqəddəs Möminlik, Ölməz Müqəddəslərdən biri, yerin himayəçisi.

**Spitama** – Zərdüştün doğuluş adı.

**Sraoşa** – eyni ilə "Qulaq asan, eşidən, sirrləri açan" yazatı, nizam- intizamı o saxlar, əlində dəyənək tutar, qulaq asmayanlara cəza verər. Zərdüşt onu "hamıdan və hər kəsdən böyük" adlandırıb,

ona görə ki, Sraoşa dualar mərasimini idarə edir, onun köməyi ilə insanlar Tanrıya müraciət edir və şərlə döyüşürlər.

**Traytaon-Traetaon** – İran əfsanə qəhrəmanı, əjdahaya qalib gələn, "Şahnamə"də Fəridun. İranı Zöhhakın əlindən azad etmişdir.

**Vayu** – külək (və ölüm) yazatı

**Vahvi** – Daitiya-eynən "Xeyirxah, gözəl Datiya", iranlıların ilk mifik vətənlərində Arianam Vaejahda çaydır. Vahvi Datiya həm də Vəhylə Verilmiş deməkdir.

**Var** – buzlaşma dövründə hökmdar Yima tərəfindən insanların, heyvanların, bitkilərin qorunması üçün tikilmiş anbar tipli binalar.

**Vohu Man** – Gözəl Fikir, Ölməz Müqəddəslərdən biri.

**Vera (Daena və ya Daena Mazdayasna)** – Vera Mazda dini qayda-qanun yazatı, Zərdüşt dinində ilahə Aşi ilə birlikdə Mitranın bacısı.

"**Vispered**" – eynən "(İbadət) bütün başçılar" "Avesta" kitablarından birinin adı.

**Vivahvant** – Yimanın atası, o, insanlar arasında Haomanı birinci hazırlamışdır.

**Vourukaşa** – eyni ilə "Geniş kəsilmiş", "geniş kəsikləri, körfəzləri" kimi tərcümə olunan dənizin adı; Zərdüşt mifologiyasında dünya okeanına aiddir, Əfrasiabın bu dənizə girmək istəyi onun Xəzər dənizi olduğundan xəbər verir.

**Vərtrahna** – On dördüncü "Yəşt" Vərtrahnaya-Müharibə və Qələbə yazatına həsr edilmişdir.

"**Yasna**" – eyni ilə Allaha xidmət və ibadət, zərdüştilikdə əsas dini xidmət, ayin, "Avesta" kitablarından biri, özündə ayinlərin mətnlərini ehtiva edir.

**Yənhe-Hatam** – kiçik, qısa, qədim dua, bütün yəştlərdə bölmələrin sonunda oxunur. "O kəslərə dua edirik ki..."

"**Yəşt"** – himn, ayrı- ayrı yazatlara həsr edilmişdir.

**Yima** – Vivahvantın oğlu, şah-çoban, "qızıl əsr"də iranlıların hökmdarı, "Şahnamə"də Cəmşid, pişdadilər sülaləsindəndir.

**Urvatat Nara** – Spitama Zərdüştün oğlu.
**Urva** – hal-hazırda CənubiAzərbaycanda Urmiya gölü ətrafında ərazilər.

**Zaratuştra** – Zaratuştra-Zərdüşt peyğəmbər (onun adının mənası "Qoca dəvə sahibi" kimi izah edilsə də əslində "Tanrının var olan hakimi, başçısı") deməkdir, Spitama ailəsindən Poruşaspanın oğlu, Ahura Mazda dinini təlim edən, Ahura Mazda ilə söhbətlərində peyğəmbər təlim və öz suallarına cavab aldı. Yunan dilinə keçərkən onun adı Zoroastr (astroloq) kimi bütün Avropada yayıldı.

**Zairi** – daeva, batil inanclı.

## MÜNDƏRİCAT

**Ön söz** ........................................................................................ 3

**GİRİŞ ƏVƏZİ** ................................................................................. 5

**Frahard - Bölmə 1**
Ən yaxşı torpaqlar ........................................................................... 9
BİRİNCİ BÖLMƏYƏ ........................................................................ 17

**Frahard - Bölmə 2**
YİMA ................................................................................................ 19
İKİNCİ BÖLMƏYƏ .......................................................................... 34

**Frahard - Bölmə 3**
YERİ TƏMİZ SAXLAMAQ ............................................................... 36
ÜÇÜNCÜ BÖLMƏYƏ ....................................................................... 50

**Frahard - Bölmə 4**
HÜQUQLAR ..................................................................................... 51
DÖRDÜNCÜ BÖLMƏYƏ ................................................................. 67

**Frahard - Bölmə 5**
MURDARLIĞIN HEYVANLAR TƏRƏFİNDƏN YAYILMASI ........... 68
BEŞİNCİ BÖLMƏYƏ ........................................................................ 85

**Frahard - Bölmə 6**
TORPAĞIN VƏ SUYUN QALIQLARLA MURDARLANMASININ
QARŞISININ ALINMASI ................................................................. 86
ALTINCI BÖLMƏYƏ ........................................................................ 97

**Frahard - Bölmə 7**
MEYİT DRUJUNUN MƏRHUMA HÜCUMUNUN VAXTI ............... 98
YEDDİNCİ BÖLMƏYƏ .................................................................... 119

**Frahard - Bölmə 8**
YAS MƏRASİMİ ............................................................................... 120
SƏKKİZİNCİ BÖLMƏYƏ ................................................................ 150

**Frahard – Bölmə 9**
BARŞNUM DOQQUZ GECƏNİN (TƏMİZLƏNMƏSİ) ................... 151

**Frahard-Bölmə 10**
QATLARIN SÖZLƏRİ İLƏ TƏMİZLƏNMƏ ..................................... 169

**Frahard-Bölmə 11**
DÜNYANIN MÜXTƏLİF ŞEYLƏRİNİN TƏMİZLƏNMƏSİ ZAMANI OXUNAN DUALAR ........ 175

**Frahard-Bölmə 12**
YAS ........ 185

**Frahard-Bölmə 13**
İT ........ 195

**Frahard-Bölmə 14**
YAXŞILIQ VƏ XEYİRXAHLIQ SU SAMURU ÖLDÜRMƏYİN GÜNAHINI TƏMİZLƏYƏNDİR ........ 212

**Frahard-Bölmə15**
BEŞ GÜNAH ........ 220

**Frahard-Bölmə 16**
MENTRUASİYA OLAN QADIN ........ 233

**Frahard-Bölmə 17**
SAÇ VƏ DIRNAQLARLA RƏFTAR QAYDALARI ........ 239

**Frahard-Bölmə 18**
YALANÇI KAHİNLƏR VƏ HƏQİQİ KAHİNLƏR ........ 243

**Frahard – Bölmə 19**
ZƏRDÜŞTÜN DEVALARA QARŞI ÇIXMASI. UNİVERSAL PEŞƏ. ÖLÜMDƏN SONRA RUHUN TALEYİ. ........ 263

**Frahard – Bölmə 20**
İLK ŞƏFA VERƏN TRİTA ........ 280

**Frahard – Bölmə 21**
SU İLƏ ŞƏFA VERMƏ. GÜNƏŞ, AY, ULDUZLAR. ........ 288

**Frahard – Bölmə 22**
ŞƏFA VERƏN AİRYAMAN ........ 297

**LÜĞƏT** ........ 306

***Tədqiqatçı şair***
***Xanlar Həmid***
***“Avesta” tarixini***
***araşdırarkən.***



***Yəzd,***
***Zədüşt atəşgahı***



***Yəzd, Daxma,***
***Bürce Sükut qulləsi***



***Persepol, Təxti Cəmşid***



***Persepol, Təxti Cəmşid***



***Persepol, Təxti Cəmşid***



***Persepol, Təxti Cəmşid***



*Nəqşi Rüstəm,*
*Kəbəyi Zərdüşt*



*Nəqşi Rüstəm*



*Yəzd, Zərdüşt atəşgahı*



*Fəxriabad İmamzadə*
*Suleyman türbəsi*

# AVESTA
## (Videvdat)

Bakı – **"APOSTROF-A" –** 2023

**Texniki redaktor**
***Aynurə Osmanova***

**Çapa məsul**
***Xalid Nəsirov***
***Kifayət Sultanova***
***Tərana Fətullayeva***

***Şair, dramaturq, AYB-nin üzvü***
***Xanlar Həmidlə əlaqə:***
*+99450 325 88 01*
*+99450 320 95 77*

Çapa imzalanıb 16.02.2023
Formatı 70x100 1/16
Ofset çapı,
Kağızı krem
Fiz. çap. vər. 20
Sayı 500

Kitab **"APOSTROF-A"** nəşriyyatında
ofset üsulu ilə çap edilib.
Bakı, H.Zərdabi 71 A
E-mail: apostrof0706@gmail.com
*Tel.: +99412 432 51 04 / +99450 313 07 06*